# MÜNAFİQİN SİRLƏRİ

**Onlar özlərinin xoşlamadıqları qızları Allaha aid edirlər. Dilləri də yalandan ən gözəl aqibətin onların olacağını söyləyir. Şübhəsiz ki, od onlar üçün hazırlanmışdır və onlar orada tərk olunacaqlar. (Nəhl surəsi, 62)**

**HARUN YƏHYA**
**(ADNAN OKTAR)**

# MÜNDƏRİCAT

GİRİŞ

MÜNAFİQLƏR ŞEYTANIN FİRQƏSİDİR

MÜNAFİQ NİYƏ İBADƏT EDƏR, NİYƏ MÖMİNLƏRLƏ BİRLİKDƏ OLAR?

MÜNAFİQLƏRİN XÜSUSİYYƏTLƏRİ

MÜNAFİQLƏRİN MÜSTAĞNİYYƏTİ

MÜSTAĞNİYYƏT XƏSTƏLİYİNİN GƏTİRDİYİ ZƏRƏRLƏR

MÜNAFİQLƏR HEÇ VAXT PEYĞƏMBƏRLƏRƏ ÜSTÜN GƏLƏ BİLMƏMİŞLƏR

MÜNAFİQLƏRƏ QARŞI GÖSTƏRİLƏCƏK RƏFTAR

MÜNAFİQ ÜÇÜN TÖVBƏ MÜMKÜNDÜRMÜ?

MÜNAFİQLƏRİN AXİRƏTDƏKİ VƏZİYYƏTLƏRİ

NƏTİCƏ

HZ. MEHDİ (Ə.S) DÖVRÜNDƏKİ MÜNAFİQLƏR

DARVİNZMİN ÇÖKÜŞÜ

# GİRİŞ

*İnsanlar arasında elələri də vardır ki, mömin olmadıqları halda: "Allaha və Axirət gününə inanırıq" - deyirlər. Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki yalnız özlərini aldadır və bunu anlamırlar. Onların qəlblərində xəstəlik vardır və Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə də ağrılı-acılı bir əzab çəkəcəklər. (Bəqərə surəsi, 8-10)*

Çox insan üçün "münafiq" sözü o qədər də böyük məna ifadə etməz. Bəziləri isə sözü xalq dilindəki şəkliylə, yəni "ikiüzlü" ya da "yalançı" olaraq bilir, lakin Qurandakı mənasından xəbərdar deyillər. Bir az dini bilgisi olanlar isə münafiqlərin, daha çox Peyğəmbərimiz (s) dövründə yaşamış inkarçı qrup olduğunu düşünürlər.

Halbuki, münafiqlər Allahın Quranda yüzlərlə ayə ilə xəbər verdiyi və onlara qarşı son dərəcə təmkinli olunmasını xatırlatdığı qrupdur. Və yenə Qurana baxıldığında anlaşılan, münafiqlərin heç də az rast gəlinən qrup olmadığı, əksinə hər mömin birliyinin içində olan "təşkilatlı" qrup olduğu görünür.

Qurana baxdığımızda bu qaydanın hər dövr üçün keçərli olduğunu görərik; hz. Musa (ə.s) ilə birlikdə olan birliyin içində də, hz. Süleyman (ə.s)-a inananların arasında da, hz. İbrahim (ə.s)-ın ümmətində də, Peyğəmbərimiz (s)-in 1400 il əvvəl yaşamış camaatında da... Qısacası, Quranda bəhsi keçən hansı müsəlman icması olursa olsun, içlərində münafiqlərin də olduğundan bəhs edilir. Çünki "**Əvvəllər olub-gedənlər barəsində də Allahın hökmü belə idi. Sən Allahın qanunlarında heç bir dəyişiklik tapa bilməzsən.**" (Əhzab surəsi, 62) ayəsiylə də bildirildiyi kimi, Allah hər ümməti bənzər hadisələrlə sınaqdan keçirir. Əgər ortada mömin birliyi varsa şübhəsiz onun içində bir də münafiq qrupu olacaq. Bu, Allahın tarix boyunca dəyişməyən qaydasıdır.

Bu səbəbdən Allah, möminlər üçün təhlükə meydana gətirəcək bu birliyin xüsusiyyətlərini Quranda tez-tez bildirmişdir. Münafiqlər, Quranda ən çox təsviri olan insan növlərindən biridir.

Həyatının hamısını Allaha həsr etmiş, Onun yolunda canı ilə və malı ilə mübarizə aparan səmimi insanların arasında, "onlardanmış" kimi görünərək

(bəzən illərlə) yaşayan bu insanlar, əslində "onlardan" deyildirlər və yalnızca özlərinə mənfəət təmin etməyin arxasınca qaçırlar. Tarix boyunca bu hadisə, haqq və səmimi olan bütün mömin birliklərində görülmüşdür. Necə ki, Quranda, yuxarıda da ifadə etdiyimiz kimi, Peyğəmbərimiz hz. Məhəmməd (s) də daxil bir çox peyğəmbərin qövmlərindəki münafiqlər haqqında həddindən artıq çox məlumat verilir.

Bu kitabda münafiqlərin xüsusiyyətlərini, Quranda təsvir edilən təfərrüatları ilə bir-bir təhlil edəcəyik. Daha sonra isə münafiqlərin içlərində bəslədikləri əhəmiyyətli xəstəliyə, "müstağniyyət"ə diqqət çəkəcəyik.

"Müstağniyyət", sonrakı hissələrdə daha ətraflı olaraq nəzər salacağımız kimi münafiqlərin üzərilərində olan ən diqqətə çarpan xüsusiyyətlərdən biridir. Münafiq xarakterli biri, özünü "müstağni görən" yəni "heç bir şeyə ehtiyacı olmadığını" sanan, hər zaman özünün ən doğru yolda olduğuna inanan xüsusiyyətdədir. Və bundan ötrü **"Xeyr; həqiqətən insan, azar. Özünü müstağni gördüyündən"** (Ələq surəsi, 6-7) ayələriylə də bildirildiyi kimi azğınlığı və inkarı gedərək artır. Özünü hər şeydən müstəqil, hər kəsdən üstün qəbul etdiyi üçün də nə Allahın ayələrinə təslim ola bilir, nə də öyüd-nəsihət qəbul edə bilir.

Ancaq kitabdakı mövzuları, münafiqlərin həqiqi xarakterlərini və azğın məntiqlərini daha yaxşı anlaya bilmək üçün, əvvəl münafiqlə klassik inkarçının fərqini bilməyimiz lazımdır.

# İNKARÇILARLA MÜNAFİQLƏRİN FƏRQİ

**Sən nə qədər çox istəsən də, insanların əksəriyyəti iman gətirən deyildir. (Yusif surəsi, 103)**

Yuxarıdakı ayə ilə xəbər verilmiş olduğu üzrə, insanların əksəriyyəti iman gətirməzlər. Allaha inanmayanlar hər zaman yer üzünün əksəriyyətini meydana gətirərlər. "İnkarçılar" olaraq adlandırılan bu qrupa, Allahı açıq şəkildə inkar edən dinsizlər, münafiqlər, müşriklər və qəlbində xəstəlik olanların hamısı daxildir. Hamısının ortaq xüsusiyyəti, Allahdan gərəyi kimi qorxmamaları və Allahın kitabından uzaq həyat sürmələridir. Ancaq inkarçılar içərisində yuxarıda da adı keçən bir qrup vardır ki, bunlar, Allahın "**cəhənnəmin ən alt təbəqəsində**" (Nisa surəsi, 145) olduqlarını söylədiyi münafiqlərdir.

Görəsən münafiqləri digər inkarçılardan daha da aşağı mövqeyə gətirən fərq nədir?

İnkarçı Allaha inanmaz, Onun varlığını tamamilə rədd edər; təbii ki, din əxlaqını və Quranı da... Münafiq isə Allahı açıq şəkildə inkar etməz, dinə və Qurana inandığını söyləyər. İnkarçı, Allahı inkar etdiyini elan edərkən, münafiq tam tərsinə, (inkarını gizləyib) iman edirmiş kimi görünər. Öz iddiasına görə, iman da edir, Allahdan da qorxur... Ancaq münafiqin doğrunu söyləmədiyini, qəlbində olanın "həqiqi iman" olmadığını Allah bizə ayələriylə bildirmişdir. Bəqərə surəsində belə buyurulur:

**İnsanlar arasında elələri də vardır ki, mömin olmadıqları halda: "Allaha və Axirət gününə inanırıq" – deyirlər. (Bəqərə surəsi, 8)**

Münafiq iman etdiyini iddia etdiyi üçün mömin birliyinin içində olar. Möminlərin arasında bəzən bütün həyatını keçirər. Ancaq inkarını içində gizlədiyi üçün, möminlər arasında davamlı olaraq içdən-içə fitnə çıxarmağa, Allaha inanan səmimi insanlara zərər verməyə, onları zəifliyə aparmağa çalışar. Münafiqlərin bu fitnəkar xarakterləri Quranda belə xəbər verilmişdir:

**O zaman münafiqlər və qəlbində xəstəlik olanlar: "Allah və Onun Elçisi bizə ancaq yalan vədə vermişdir" – deyirdilər. Onlardan bir dəstə demişdi: "Ey Yəsrib əhli! Siz müqavimət göstərə bilməyəcəksiniz. Geri qayıdın!" İçərilərindən bir qismi isə: "Evlərimiz nəzarətsiz qalıb" – deyərək Peyğəmbərdən izin istəyirdi. Halbuki evləri nəzarətsiz deyildi. Onlar sadəcə olaraq qaçmaq istəyirdilər. Əgər Mədinənin hər tərəfindən üstlərinə hücum edilsəydi, sonra da onlardan fitnə törətmək (imandan dönmək) tələb olunsaydı, onu mütləq edər və cüzi şey istisna olmaqla bunda ləngiməzdilər. (Əhzab surəsi, 12-14)**

Bütün inkarlarına baxmayaraq münafiq, heç bir zaman "**mən münafiqəm**" deyə ortaya çıxmaz. Əksinə özünün son dərəcə "**təqvalı**" olduğunu iddia edər. Ona görə möminlər səhv yolda, özü isə ən doğru yoldadır. Bu səbəbdən məqsədinin möminləri doğru yola gətirmək olduğunu deyət. Bu da onun fitnə çıxarma metodlarından bir başqasıdır.

# MÜNAFİQLƏR DİNSİZDİR?

Münafiqin ən əhəmiyyətli xüsusiyyətlərindən biri, dinə inandığını söylədiyi halda, inandığı din anlayışının Qurana uyğun gəlməməsidir. Bunun səbəbi Qurandan ayrı, özünə xas, müstəqil məntiqinin olmasıdır. Qurana görə deyil, öz məntiqinə görə düşünər. Münafiqlərin bu məntiq zənciri, Quranda "axmaq ağıl" olaraq ifadə edilir:

**Yoxsa onların ağılları bunu onlara əmr edir? Yaxud onlar azğın adamlardır? (Tur surəsi, 32)**

Münafiq, yuxarıda da ifadə etdiyimiz kimi Allahdan qorxduğunu iddia edir; lakin rəftarları, Allahdan qorxan bir insanın rəftarlarına bənzəməz. Məqsədi Allahın məmnuniyyətini qazanmaq deyil; əksinə Onun qəzəbini üzərinə çəkəcək hər cür davranışı sərgiləyər. Bütün bunları edərkən özünün olduqca təqvalı olduğunu, hər davranışının da Qurana uyğun gəldiyini şiddətlə müdafiə edə bilər.

Bütün bunlarla yanaşı, münafiq dində var olan ibadətlərin çoxunu tətbiq etmiş kimi görünür və hətta bəzilərini tətbiq edə də bilər. Lakin bunları yerinə yetirmə tərzi və məqsədi mömininkindən çox fərqlidir. Məsələn, mömin yalnız Allahın məmnuniyyətini qazanmaq üçün namaz qılarkən, münafiq insanlara nümayiş etmək üçün namaz qılar. Allah münafiqlərin bu rəftarını aşağıdakı ayə ilə bildirmişdir:

**Münafiqlər, həqiqətən də, Allahı aldatmağa çalışırlar. Halbuki Allah onları aldadır. Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər. (Nisa surəsi, 142)**

Kənardan baxıldığında münafiqlər və möminlər, eyni ibadəti yerinə yetirən insanlar kimi görünə bilərlər. Halbuki möminlər "**namazlarında huşu içində olanlardır**" (Muminun surəsi, 2); ibadətlərinin qarşılığında da Allahın razılığını qazanarlar. Münafiqlər isə səmimiyyətsizlikləri və ikiüzlülüklərinə görə Allahın qəzəbinə uğrayarlar.

Münafiq, "**xarici görünüşcə**" dinsiz deyil; əksinə Allaha inandığını söyləyən, ibadətlərin çoxunu tətbiq edən bir insandır. Ancaq buna baxmayaraq dindar da deyil. O yalnız öz batil din anlayışının, yəni azğın "**MÜNAFİQ DİNİ**"-nin dindarı sayıla bilər. Amma həqiqi din əxlaqını bildiyi halda təhrif etməyə çalışdığı üçün, axirətdə etdikləri boşa getmiş olacaq. Allah bir ayəsində o günü belə xəbər verir:

**...Buna görə də bütün əməlləri boşa çıxan kimsələrdir. Odur ki, Qiyamət günü Biz onlara əhəmiyyət verməyəcəyik. (Kəhf surəsi, 105)**

"**Münafiq dini**", şeytanın dinidir. İnsanlar üzərində gizli hakimiyyət qurub, onları Allahın yolundan azdırmaq istəyən şeytan, hər cür yollarla onların ağlını ovlamağa çalışır. Onlara pisliyi əmr edər; insanları birbaşa, yaxşılıqdan çəkindirməyə çalışar. Son dərəcə qəribə məntiqə sahibdir; bunu bir sonrakı hissədə ətraflı açıqlayacağıq və münafiqlərlə olan əlaqəsini göstərəcəyik. Münafiqlər şeytanın bu məntiqini çox yaxşı bilirlər amma dəyişən bir şey olmaz; heç bir münafiq "Mən şeytana tabe oluram, onun dinini yaşayıram" deməsə də, onun yanlış məntiqinin eynisini üzərində təcəlli etdirər.

# MÜNAFİQLƏR ŞEYTANIN FİRQƏSİDİR

*Şeytan onları üstələmiş və Allahı zikr etməyi onlara unutdurmuşdur. Onlar şeytanın firqəsindəndirlər. Şübhə yoxdur ki, şeytanın firqəsindəkilər ziyana uğrayanlardır. (Mücadilə, 19)*

Yer üzündə iki topluluq vardır: Allahın firqəsi və şeytanın firqəsi.

Şeytanın firqəsi, özlərini yaradan Allahı unudan və yoldan azaraq şeytanın "**addımlarını izləyən**" birlikdir. Bu birliyi öz içində müşriklər, kafirlər, münafiqlər deyə müxtəlif qruplara ayıra bilərik. Ancaq bu qruplar içində, Allahın axirətdə ən pis əzab ilə cəzalandırılacaqlarını xəbər verdiyi münafiqlərdir. Münafiqlər, şeytana aid bütün xüsusiyyətləri üzərilərində daşıyan birlikdir. Bu mövzuya keçməzdən əvvəl, şeytanın qəribə məntiqlərini araşdırmaqda fayda vardır:

İlk olaraq şeytanın ən əxlaqsız rəftarı, yəni "**azğın və əsrarəngiz üsyanı**" üzərində dayanmaq lazımdır. Əraf surəsində belə xəbər verilir:

**İblis dedi: "Sən məni yoldan çıxartdığına görə mən də Sənin düz yolunun üstündə oturub insanları tovlayacağam. Sonra onların yanına önlərindən və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən". (Əraf surəsi, 16-17)**

Şeytanın ən böyük məqsədi, ayələrdə görüldüyü kimi insanların Allaha qarşı üsyan etmələrini təmin etməkdir. Bu məqsədinə çatmaq üçün əlindən gələn hər şeyi edər, davamlı səy göstərər. Lakin bu inadkar səyi ilə yanaşı anlaşılmaz bir məntiqi daha vardır. Bu azğın məntiqi xəbər verən ayə belədir:

**Münafiqlər şeytana bənzəyirlər. Şeytan insana: "Kafir ol!" – deyir. İnsan kafir olan kimi: "Mən səndən uzağam. Mən aləmlərin Rəbbi olan Allahdan qorxuram!" – deyir. (Həşr surəsi, 16)**

Yuxarıdakı ayədə görüldüyü kimi şeytan, insanlara üsyan etmələrini əmr etdiyi halda, özü Allahdan qorxduğunu deyir. Bu ifadələri, daşıdığı "**səhv məntiqi**" gözlər önünə sərər. Həm Allaha qarşı üsyan edir və insanları üsyana təşviq edir, həm də Allahdan qorxduğunu iddia edir. Əlbəttə bu ifadələr şeytanın ağıl cəhətdən son dərəcə qeyri-stabil varlıq olduğunu göstərir.

Məhz münafiqlərin də şeytan ilə bənzərlik göstərən ən diqqətə çarpan xüsusiyyətləri bu "**azğın və əsrarəngiz üsyan**"dır. Münafiqlər, bir tərəfdən Allaha qarşı təkəbbürlənib, fitnə çıxarmağa səy göstərərkən, digər tərəfdən də Allaha, axirətə iman etdiklərini, Allahın dininə və peyğəmbərinə itaət göstərdiklərini iddia edərlər. Necə ki, Allah münafiqlərin bu rəftarları haqqında möminləri müxtəlif ayələrlə xəbərdar etmişdir. Bir ayədə belə buyurulur:

**Sənə nazil edilənə və səndən əvvəl nazil edilənlərə iman gətirdiklərini iddia edənləri görmədinmi? Onlar mühakimə olunmaları üçün tağuta müraciət etmək istəyirlər. Halbuki onlara tağuta inanmamaq əmr olunmuşdur. Şeytan isə onları dərin bir azğınlığa salmaq istəyir. (Nisa surəsi, 60)**

Quranda, şeytanla münafiqlər arasındakı bu ən diqqətə çarpan ortaq cəhətin xaricində də müxtəlif bənzərlikdən və əlaqələrdən bəhs edilir. İndi bunları araşdıraq.

## Münafiqlər şeytanı dost qəbul edərlər

Allaha inananlar, **"Sizin himayədarınız yalnız Allah, Onun Elçisi və iman gətirənlərdir. Onlar Allaha boyun əyərək namaz qılır və zəkat verirlər."** (Maidə surəsi, 55) ayəsi gərəyi, yalnız Allahı və özləri kimi inananları dost qəbul edərək əhəmiyyətli ibadəti yerinə yetirirlər. Güclərinin ən əhəmiyyətli səbəbi budur.

Möminlər necə Allahı dost seçir və hər işlərində Ona yönəlirlərsə, münafiqlər də şeytanı dost və vəli seçərlər. Şeytanı özlərinə dost tutanların vəziyyəti ayələrdə belə bildirilir:

**...Şübhəsiz ki, o və onun nəsli sizləri, sizin onları görə bilmədiyiniz yerlərdən görürlər. Həqiqətən, Biz, şeytanları iman gətirməyənlərin dostları etdik. (Əraf surəsi, 27)**

**Allah Öz bəndələrinin bir qismini doğru yola yönəltdi, digərlərinə isə haqq yoldan azmaq layiq görüldü. Çünki onlar Allahı qoyub şeytanları özlərinə dost tutdular və elə güman edirlər ki, doğru yoldadırlar. (Əraf surəsi, 30)**

**Kim Mərhəmətli Allahın zikrindən üz döndərsə, Biz şeytanı ona calayarıq və o da ona yoldaş olar. (Zuxruf surəsi, 36)**

Zuxruf surəsində bəhs edilən bu ayədə də bildirildiyi kimi münafiqlərin ən diqqətə çarpan xüsusiyyətlərindən biri də Allahı zikr etməmələri, mənəvi cəhətdən Allahdan uzaq olmalarıdır. Bu vəziyyətdə olmalarını təşviq edən isə yenə şeytandır.

## Şeytan onlara Allahı unutdurar

**Şeytan onları üstələmiş və Allahı zikr etməyi onlara unutdurmuşdur... (Mücadilə surəsi, 19)**

İnsanın "**münafiq**" olması üçün, əvvəlcə mömin birliyinin içində olması və onlara öz ağılsızlığına görə gizli və ya açıq zərər verməyə çalışması lazımdır.

Münafiq, möminlərin içinə qədər girmiş, bir müddət də olsa onların həyat tərzini təqlid edib aralarında yaşamağa çalışmış, möminlərlə birlikdə Allahı anmış, Onun ayələrini oxuyub öyrənmişdir. Bütün bunlara baxmayaraq, imanından sonra inkara düşmüşdür. Münafiqlərin bu vəziyyəti bir ayədə belə bildirilir:

**Bu ona görədir ki, onlar iman gətirdikdən sonra kafir oldular. Sonra da onların qəlbinə möhür vuruldu. Artıq onlar anlamırlar. (Münafiqun surəsi, 3)**

Görəsən necə olur ki, Allahın varlığını və birliyini qəbul edib, Qurana itaət edən imanlı bir insan "**bir anda**" Allaha üsyan edib azır?

Bu əlbəttə ki, bir anda olmaz. Münafiqlərin qəlbləri, imandan çox küfrə yaxındır. Bu zəif imanlı şəxsləri aldatmaq isə, təbii ki, yenə şeytanın işidir. Onlara təsir edər, doğru yoldan azdırıb öz yoluna çəkmək üçün müxtəlif tələlər qurar. Bunların ən böyüyü də Allahı unutdurmağa istiqamətli olanıdır.

Allahı unutdurmaq istəyən şeytan, müəyyən oyunlarla münafiqə yaxınlaşar. Halbuki münafiq nəzərdə tutulan oyunları Quran ayələrindən çox yaxşı bilir. Bu səbəbdən şeytanın tələsinə bilə-bilə düşər; bu da qəlbində (Quranda xəbər verildiyi kimi) "**xəstəlik**" olması səbəbi ilədir. Bu xəstəlik üsyankarlıqdır. Münafiqlərin bu vəziyyətləri ayədə belə xəbər verilir:

**Onların qəlblərində xəstəlik vardır və Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə də ağrılı-acılı bir əzab çəkəcəklər. (Bəqərə surəsi, 10)**

Burada unudulmamayacaq mövzu, şeytanın ancaq zəif imanlılara təsir edə biləcəyidir; həqiqi, səmimi möminləri isə heç bir şəkildə tələyə sala bilməyəcək. Azğın insanlarla həqiqi möminlər arasındakı fərq bir ayədə belə xəbər verilir:

**Şübhəsiz ki, qullarım üzərində sənin heç bir hökmün yoxdur. Yalnız sənə uyan azğınlardan başqa. (Hicr surəsi, 42)**

Münafiqi təvəkkülsüzlüyə, təkəbbürlüyə və səmimiyyətsizliyə sürüməyə çalışan şeytan, qısa zamanda müvəffəqiyyətli olar. Sahib olduğu zəif inanc səbəbi ilə ağlasığmaz bir sürətlə ona uyan münafiq, mömin rəftarını təqlid etməyi artıq bir kənara buraxıb, şeytani davranışlar sərgiləməyə başlayar. Möminlərə o günə qədər heç göstərmədiyi mənfi rəftarlarını göstərər.

Məsələn, birdən qəzəblənər, çaxnaşmaya qapılar, öz ağlına görə möminlərə zərər verəcəyini düşündüyü davranışlar edər. Xüsusilə çətin anlarında və ya ona gələn zərər qarşısında şeytanın təsiri yaxşı şəkildə nəzərə çarpar. Gözləmədiyi şəkildə çətinliklə qarşılaşan münafiq bir anda başına gələn hadisənin Allahın idarəsində reallaşdığını, təvəkkül etməli olduğunu, Allahın duasını qəbul edəcəyini düşünə bilməz və bir möminin çətinlik qarşısında göstərəcəyi bütün rəftarların əksini göstərməyə başlayar. İmanının sınandığı çətinlik anı ilə qarşılaşan münafiq, həmin ana qədər görülməmiş bir üzlə ortaya çıxar. Məhz Allahı unutmuş və şeytana təslim olmuş bu üz, münafiqin həqiqi üzüdür.

Açıq şəkildə aydın olur ki, münafiqi doğru yoldan çıxarmaq, şeytan üçün heç də çətin deyil. Necə ki, şeytan yalnız pis yola çağırır; onun arxasından sürünərək gedən, sonra da tövbə etməyən və bütün bunları tamamilə öz arzusuyla edən, münafiqin özüdür:

**Halbuki o, bu insanlar üzərində ixtiyar sahibi deyildi. Biz ancaq axirətə inananla, ona şəkk gətirən kimsələri ayırd etmək üçün şeytana belə bir fürsət verdik. Sənin Rəbbin hər şeyi mühafizə edəndir. (Səba surəsi, 21)**

Şeytan axirətdə, arxasından apardığı kəslərə etiraf edər və onları məcbur etmədiyini, ardınca gələnlərin öz arzuları ilə onu izlədiyini bir daha açıq şəkildə deyər. Ayədə bu həqiqət belə bildirilmişdir:

**İş bitdikdə şeytan deyəcək: "Həqiqətən də, Allah sizə gerçək vəd vermişdi. Mən də sizə vəd vermişdim, lakin vədimə xilaf çıxdım. Mənim sizin üstünüzdə heç bir hökmranlığım yox idi. Mən sizi azğınlığa dəvət etdim, siz də dəvətimi qəbul etdiniz. Buna görə də məni yox, özünüzü qınayın. Nə mən sizin köməyinizə çata bilərəm, nə də siz mənim köməyimə çata bilərsiniz. Heç şübhəsiz ki, mən əvvəllər də sizin məni Allaha şərik qoşmağınızı rədd etmişdim". Həqiqətən, zalımlar üçün ağrılı-acılı bir əzab hazırlanmışdır. (İbrahim surəsi, 22)**

## Şeytan onları vəsvəsələrə salır

Allaha yəqinliklə inanan insan imanında bir an belə şübhəyə qapılmaz; belə bir günahdan Allaha sığınar. Münafiq isə iman mövzusunda şübhəlidir. Bu şübhəni qəlbinə salan isə təbii ki, yenə dost seçdiyi, arxasından sürüklənib getdiyi şeytandır.

**Mən onları mütləq doğru yoldan azdıracaq və xülyalara salacağam; onlara mal-qaranın qulaqlarını kəsməyi buyuracaq və Allahın yaratdıqlarına dəyişiklik verməyi əmr edəcəyəm". Allahı qoyub şeytanı özünə himayədar tutan şəxs açıq-aşkar ziyana uğramışdır. (Nisa surəsi, 119)**

Ayədə ifadə edildiyi kimi, şeytanın insanları salmağa çalışdığı vəsvəsələr, heç olmayacaq tərzdə boş və mənasızdır. Ancaq zəif imanlı kəslər, bunları fövqəladə əhəmiyyətli hesab edir və asan şəkildə mənimsəyir. Qurandan uzaq olduqları üçün, **"Əgər şeytandan sənə vəsvəsə gəlsə, Allaha sığın. Çünki O, Eşidəndir, Biləndir!"** (Əraf surəsi, 200) ayəsiylə, Quranda belə bir vəziyyətdə tətbiq olunması tövsiyə edilən rəftarı da sərgiləməz.

Bu səbəbdən möminlər şeytana qarşı müvəffəqiyyət qazanarkən münafiqlər, mütləq şəkildə ona məğlub olarlar.

## Şeytan onları boş vədləri ilə aldadar

**Şeytan onlara vədlər verir və onları xülyalara salır. Lakin şeytanın onlara verdiyi vədlər aldatmaqdan başqa bir şey deyildir. (Nisa surəsi, 120)**

Şeytan insana yalnız boş vədlər verir. Bu vədlərin hamısı, müvəqqəti dünya həyatına istiqamətlidir. Möminlərə verilmiş nemət olan ağıla sahib olmamasına baxmayaraq olduqca zəkalı olan şeytan, hər kəsə zəif yönlərindən təsir etməyə çalışar. Bu zəif istiqamətlər, insanın Allahın razılığının yerinə üstün seçdiyi "**büt**"lərdir.

"**Büt**" deyildikdə, ağıla yalnız bəzi insanların cahilcə önlərində səcdə etdikləri daşlar gəlməməlidir. Büt, dinin yerinə seçilən hər hansı bir anlayış və

ya bir insan ola bilər. Hamısı da dünya həyatının müvəqqəti bəzəkləri olan mövqe, məqam, zənginlik, şöhrət, gözəllik, gözdə böyüdülən bir insan və ya insanlar da "**büt**" ola bilərlər. Şeytanın vədləri daha da müxtəlifdir, lakin hamısı da boş yalandan başqa bir şey deyil. Çünki hamısı keçicidir və insan torpaq olub, yenidən dirildiləcəyi gün, dünyada dəyər verib bel bağladığı heç bir dəyəri və ya heç bir insanı yanında tapa bilməyəcək. Üstəlik bir insanın şeytanın vədlərinin boş və saxta olduğunu anlaması üçün dünya həyatının sona çatmasına da ehtiyac yoxdur. Hələ dünyada ikən, sahib olduğu bütün imkanlara qarşı bədbəxt, narahat, gərgin və həqiqi sevgini həyatları boyunca bir dəfə belə yaşamamış olan insanlar şeytanın təlqinlərinin böyük yalandan ibarət olduğunun ən əhəmiyyətli dəlillərindəndir.

Ancaq bütün bunlara baxmayaraq, "**dərin**" qavrayışdan uzaq olan münafiqlərin bu boş vədlərə aldanmaları heç də çətin olmaz. Dünyaya kor-koranə bağlı olan münafiqlər, şeytanın vədlərinin mütləq reallaşacağını, ona tabe olmaqla qazanc əldə edəcəklərini zənn edərlər. Lakin şeytanın vədləri, yalnız insanı cəhənnəmə sürükləmək üçündür. Dünyada və xüsusilə də axirətdə ona heç bir fayda təmin etməyəcək. Həşr surəsində belə buyurulur:

**Münafiqlər şeytana bənzəyirlər. Şeytan insana: "Kafir ol!" – deyir. İnsan kafir olan kimi: "Mən səndən uzağam. Mən aləmlərin Rəbbi olan Allahdan qorxuram!" – deyir. Onların hər ikisinin aqibəti atəş içində əbədi qalmaqdır. Zalımların cəzası budur. (Həşr surəsi, 16-17)**

Şeytana tabe olmayan, vədlərinə aldanmayan tək birlik möminlərdir. Onlar, insanlara dayanmadan pisliyi fısıldayan şeytanın yalanlarına, vermək istədiyi vəsvəsələrə açıq deyildirlər. Hər hadisəni "**ağıl və vicdan**" çərçivəsində qiymətləndirdikləri üçün, bu əsassız vədlərə heç bir şəkildə inanmazlar.

## Həqiqi üzlərini şeytana göstərirlər

Münafiqlər, möminlərə özlərini "**səmimi**" tanıtmaq üçün çox səy göstərirlər. Bu səmimiyyətsizliklərini mənfəətləri zərər görənə qədər israrla davam etdirərlər (məqsədlərinə daha sonra təfərrüatları ilə nəzər salacağıq).

Möminlərdən ayrıldıqları müddətə qədər özlərini gizləyən münafiqlər, bu müddət ərzində həqiqi üzlərini də yalnız şeytana göstərirlər. Allah bir ayədə münafiqlərin bu vəziyyətlərini belə xəbər verir:

**Onlar möminlərlə rastlaşdıqda: "Biz iman gətirdik!" – deyirlər, öz şeytanları (azmış dostları) ilə təklikdə qaldıqda isə: "Biz sizinləyik. Biz möminlərə ancaq istehza edirik!" – deyirlər. (Bəqərə surəsi, 14)**

Burada əhəmiyyətli bir mövzuya diqqət etmək lazımdır. Şeytan münafiqlərin qarşısına əlbəttə ki, cismən çıxmaz. Onun müxtəlif qabiliyyətləri vardır; insanların qarşısına onlardan biri kimi, yəni "**insan surətində**" çıxa bilməsi də bunlardan biridir.

"**İnsan surətində**" çıxmasını bir az daha açıqlamaqda fayda var. "**Şeytan kimi**" sözü xalq arasında da istifadə edilən bənzətmədir. Görəsən necə "**şeytan kimi**" olmaq mümkündür? Bir insan şeytanın xüsusiyyətlərini üzərində daşıyırsa o insana "**şeytan kimi**" demək çox yerindədir.

Münafiqlər də, əvvəlcə bəhs edildiyi kimi şeytanın bütün xüsusiyyətlərini üzərində daşıdıqları üçün, tam yerində bənzətmə ilə "**şeytan kimi**"dirlər. Üstəlik özləri kimi olan insanları da rahatlıqla diaqnoz edə bilmə qabiliyyətinə sahibdirlər. Qarşılarındakı insanda özləri ilə ortaq bir istiqamət görürlərsə bu insana qarşı da həqiqi üzlərini göstərə bilərlər.

Məhz bu mərhələdə münafiqlər, möminlərin yanından ayrılıb özlərinə bənzər kəslərin yanına getdiklərində, "**şeytanları ilə baş-başa qalmış**" olurlar. Və öz aralarında, irəlidə də bəhs ediləcəyi kimi, gizli yığıncaqlar edərək, gizli fısıldaşmalar edərək peyğəmbərə düşmənçilik, üsyan kimi müxtəlif əxlaqsız, alçaq və hiyləgər planlar hazırlayarlar. Ancaq unutmamaq lazımdır ki, bu planların hamısı ən başdan pozulmuş olan tələlərdir və münafiqlərin möminlərə maddi və ya mənəvi zərər verə bilməsi əsla mümkün deyildir.

# MÜNAFİQ NİYƏ İBADƏT EDƏR, NİYƏ MÖMİNLƏRLƏ BİLİKDƏ OLAR?

**Münafiqlər sənin yanına gəldikləri zaman: “Biz şəhadət veririk ki, sən Allahın Elçisisən!” – deyirlər. Allah da bilir ki, sən Onun Elçisisən. Allah şahiddir ki, münafiqlər əsl yalançıdırlar. (Münafiqun surəsi, 1)**

Münafiqlərin şeytanla ortaq xüsusiyyət göstərdikləri “**azğın və əsrarəngiz üsyan**” mövzusunu əvvəlki hissədə araşdırdıq. Həmçinin münafiqlərin (dinsizlərdən bir az daha fərqli olaraq) Allahın varlığını bilən, amma Onun əmrlərinə tabe olmayan, üstəlik bunu edərkən də özlərini ifşa etməməyə çalışan və inananlardan əsl xarakterlərini gizlədib, onlara özlərini dindar kimi tanıtmağa çalışan olan “**qəribə**” məntiqli kəslər olduqlarını gördük.

Bu mərhələdə bu sual ağıla gəlir. Əslində imanı qəlbində yaşamadıqları halda niyə iman etmiş kimi görünürlər?

Çünki münafiqlərin mövqeyi digər inkarçılardan fərqlidir. Münafiq Quranda izah edilənləri yetəri dərəcədə anlamışdır. Allaha qulluq vəzifəsini yerinə yetirmək üçün, ayələrə tam olaraq əməl etməli olduğunu öyrənmişdir. Bunu da öz diliylə təsdiq edər. Ancaq qəlbindəki, dilindəki ilə bir deyil. Qəlbində inancsızlığı, üsyanı, günahı saxladığı halda, dilində Allahın adını daşıması münafiqliyinin ən böyük göstəricisidir.

Əslində inanclı bir insanın münafiqlərin bu qaranlıq ruh halını tam olaraq qavraması mümkün deyil. Çünki Allah qorxusu olan bir insanın, söylədikləri ilə etdikləri hər zaman birdir. Bu səbəbdən münafiqlərin ikiüzlülükləri, saxtakarlıqları inananları ancaq təəccübləndirər. Lakin yenə də Quranda möminlərə bildirildiyi qədəri ilə münafiqlərin bu qaranlıq ruh halları ilə əlaqədar bəzi səbəblər sayıla bilər.

## 1) Maddi mənfəət təmin etmək istəyərlər

Münafiqin möminlərə dost kimi görünməsinin ən böyük səbəblərindən biri, özünə maddi mənfəət təmin etmə arzusudur. Möminlər Allahın onlara verdiyi lütf sayəsində mənəvi olduğu kimi, maddi güc və iqtidara da sahibdirlər. Bunun nümunəsi tarixdə çox görülmüşdür. Qurandakı bir çox ayədə hz. Süleyman (ə.s)-ın, hz. Məhəmməd (s)-in, hz. Davud (ə.s)-ın, hz. Zülqərneyn (ə.s.)-ın və daha bir çox elçinin sahib olduqları maddi güc və iqtidardan bəhs edilir. Məsələn, hz. Süleyman (ə.s)-la əlaqədar olaraq bir ayədə belə buyurulur:

**Cinlər onun üçün istədiyi qəsrlər, heykəllər, hovuzlara bənzər çanaqlar və yerindən tərpənməyən nəhəng qazanlar düzəldirdilər. Ey Davud nəsli! Bu nemətlərə şükür edin! Qullarımdan şükür edən azdır. (Səba surəsi, 13)**

Hz. Süleyman (ə.s)-ın sahib olduğu qalalar, heykəllər, böyük çanaqlar və qazanlar, heç şübhəsiz ki, dövrün ehtişamını və zənginliyini ifadə edir. Bir başqa ayədə də hz. Süleyman (ə.s)-ın, inkişaf etmiş texnologiyadan istifadə edərək döşəməni şəffaf şüşədən hazırlamış köşkə sahib olduğundan və böyük mülkün sahibi olan Səba məlikəsi Bilqeysin bu köşkdən son dərəcə təsirləndiyindən belə bəhs edilir:

**Qadına: "Saraya daxil ol!" – deyildi. O, sarayı gördükdə onu dərin bir gölməçə hesab etdi və baldırlarını açdı. Süleyman dedi: "Bu, büllurdan hamarlanıb düzəldilmiş bir saraydır!" Qadın dedi: "Ey Rəbbim! Mən özümə zülm etmişdim. İndi isə Süleymana tabe olub aləmlərin Rəbbi olan Allaha təslim oldum!". (Nəml surəsi, 44)**

Kəhf surəsində isə, elm və iqtidar sahibi mömin olan hz. Zülqərneyn (ə.s.)-ın sahib olduğu güc belə izah edilir:

**Həqiqətən, Biz ona yer üzündə hökmranlıq verdik və hər şeyin yolunu ona öyrətdik. (Kəhf surəsi, 84)**

Nisa surəsindəki başqa bir ayədə də, Quranda gözəl əxlaqı ilə çox təriflənən hz. İbrahim (ə.s)-ın və ailəsinin böyük bir mülkə sahibi

olduqlarından bəhs edilir. Bunlardan başqa, Allahın iman edənlərə, onları daha əvvəl "**ayaq basmadıqları**" yerlərə varis edəcəyinə dair vədi vardır. Ayədə belə bildirilir:

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər – məhz onlar fasiqlərdir. (Nur surəsi, 55)**

Allah vədini hər zaman həyata keçirmişdir. Quranda belə buyurulur:

**Və onlardan sonra sizi o yerdə sakin edəcəyik. Bu, hüzurumda durmaqdan qorxanlar və təhdidimdən çəkinənlərə aiddir". Elçilər qələbə istədilər. Hər bir inadkar dikbaş da ziyana uğradı. (İbrahim surəsi, 14-15)**

Allahın möminləri hər zaman dəstəkləməsi münafiqlərə möminlərlə birlikdə olduqlarında mənfəət təmin edə biləcəklərini düşündürür. Məhz bu səbəbdən (din əxlaqıyla həqiqi mənada əlaqələri olmadığı halda) möminlərlə olmaq xoşlarına gələr.

Lakin möminlər, sahib olduqları mal və mülk zənginliyini, münafiqin etmək istədiyi kimi, heç vaxt öz mənfəətləri yönündə xərcləməzlər. Çünki onlar bütün malın və mülkün Allahın olduğunu və ancaq Onun yolunda xərclənməli olduğunu bilirlər. Bunu sonunda fərq edən münafiq, möminlərin zənginliyindən özünə bir pay əldə edə bilməyəcəyini yaxşıca qavradığında, onlardan ayrılma qərarını almışdır belə...

Həmçinin zənginlik sahibi olan möminlərin ticarət imkanları da çox genişdir. Bu imkanları da münafiqləri dərindən təsir edər. Hətta bir çox münafiq, bəzi ibadətləri (namaz, oruc, zəkat kimi) yalnız müsəlmanlar arasında etibarlı bilinmək və bunun sayəsində onlar arasında geniş ticarət imkanı tapa bilmək üçün tətbiq edir. Allah Quranda münafiqlərin ticarət mövzusundakı ehtiraslarını və bunun, onların ən əhəmiyyət verdikləri mövzuların əvvəlində gəldiyini belə xəbər verir:

**Onlar ticarət və ya əyləncə gördükləri zaman dağılışıb ona tərəf qaçdılar və səni minbərdə ayaq üstə olduğun halda tərk etdilər. De: “Allah yanında qazanacağınız savab əyləncədən də, ticarətdən də xeyirlidir. Allah ən yaxşı ruzi verəndir”. (Cümə surəsi, 11)**

Əlbəttə ki, bu riyakar davranışlarda olan münafiqlər ümid etdiklərini almayacaq, dünyada qazandıqları zərərlə bərabər, axirətdə də ziyana uğrayacaqlar.

**2) Ətrafını və nüfuzunu artırmaq istəyərlər**

Əxlaqları, mədəniyyətləri və hörmətlərinə görə möminlərin ətrafı genişdir. Eyni zamanda yaşadıqları cəmiyyətin öndərlərinə din əxlaqını izah etdikləri üçün onlarla yaxın əlaqələri da vardır. Bununla bərabər fikri mübarizədə olduqları müəyyən ictimai təbəqə xaric, xalqın arasında da geniş kütlələr tərəfindən çox sevilirlər. Və bu sevgi, inananların yer üzərindəki gücü və hakimiyyəti artdıqca çoxalır. Getdikcə artan dəstəklə birlikdə içində yaşadıqları cəmiyyətdə hörmətləri, digər insanlardan çox fərqli “**keyfiyyətə**” sahib olduqları, çox üstün əxlaqı yaşadıqları da açıq şəkildə başa düşülməyə başlayır.

Müsəlmanlar gözəl əxlaqları və görülməmiş qətiyyətləri səbəbindən haqlı şöhrətə də sahibdirlər. Məsələn, Quranda hz. İbrahim (ə.s)-ın qətiyyəti ilə gənc yaşında xalq arasında yayılan şöhrəti və məşhurluğu ayədə belə bildirilir:

**Bəziləri: “İbrahim deyilən bir gəncin onları pislədiyini eşitmişik” - dedilər. (Ənbiya surəsi, 60)**

Yenə başqa ayələrdə Allahın elçiləri üçün bu şəkildə buyurulur:

**Və deyirdilər: “Məgər bir məcnun şairə görə məbudlarımızı tərk edəcəyik?” (Saffat surəsi, 36)**

**Biz adını sənə görə ucaltmadıqmı? (İnşirah surəsi, 4)**

Məhz bütün bu şan, şöhrət və məşhurluqdan təsirlənən zəif xarakterli münafiqlər, möminlərlə birlikdə olaraq nüfuz qazanmağa çalışırlar. Onlarla birlikdə olsalar özlərinin də ətrafında onlar qədər təsiredici və nüfuzlu olaraq tanınacaqlarını düşünürlər.

Ancaq əlbəttə, Allah onlara, inananlarla birlikdə olduqları müddət ərzində çıxardıqları fitnə-fəsad səbəbi ilə, ümid etdikləri şanı deyil, layiq olduqları alçaldılmağı daddırar.

# MÜNAFİQLƏRİN XÜSUSİYYƏTLƏRİ

**O kəslər ki, Allahla əhd-peyman bağladıqdan sonra onu pozur, Allahın qovuşdurulmasını əmr etdiyi şeyləri kəsir və yer üzündə fitnə-fəsad törədirlər. Məhz onlar ziyana uğrayanlardır! (Bəqərə surəsi, 27)**

Münafiq sözünün mənalarından biri "**qarışıqlıq və fitnə-fəsad çıxaran**"dır. İçində olduqları mömin birliyin arasına daxil olma səbəbi də, əslində budur. Etdikləri əxlaqsızlıqda qərarlıdırlar. Hər fürsətdə möminlərin nizamına qarşı hərəkət etməyi sanki vəzifə hesab edirlər. Mömin olmadıqları halda özlərini mömin kimi göstərməyə və bunun sayəsində onların imkanlarından faydalanmağa çalışan münafiqlər, başlarına çətinlik və ya sıxıntı gəldiyində dərhal onlardan ayrılar və qarşı cəbhəyə keçərlər; həqiqi xarakterləri ancaq çətin zamanlarda ortaya çıxar. Bu vəziyyət, möminlərin yanında, mənfəətləri istiqamətində qaldıqlarının açıq göstəricisidir. Bu çirkin xarakterin Quran ayələri ilə tanıdılmış yüzlərlə xüsusiyyəti vardır. Yalnız münafiq xarakterini tanımaq üçün, əvvəlcə Allaha olan inanclarının səmimi olmadığını bilmək lazımdır.

## Allaha və axirətə inancları səthidir

Dünyanın harasında yaşayırsa yaşasın hər insan, Allaha iman etməklə, Onu tək İlah bilməklə və Ona ibadət etməklə məsuldur. Bundan ötrü də, Allahın sözü olan Qurana ehtiyacı vardır.

Ancaq özünə hələ heç bir elm gəlməmiş, yəni Qurana heç dəvət edilməmiş adamın üzərindəki öhdəlik əlbəttə ki, bir deyil. İkinci qrup, Allaha qarşı ibadətlərini yerinə yetirməklə "**tam mənasıyla**" məsuldur. Münafiq, Allaha inandığını və Quranı qəbul etdiyini söyləməklə bu böyük məsuliyyəti dərk edir. Əvvəlcə, Allah üçün yaşamalı olduğunu öyrənmişdir. Möminlərin arasında qaldığı müddət ərzində davamlı olaraq Allahın və Quran ayələrinin anıldığına şahid olur, həmçinin elçini də tanıyır. Lakin buna baxmayaraq üz çevirirlər. Allah, bu cür davrananlara belə xitab edir:

**Sizə Allahın ayələri oxunduğu və Onun Elçisi sizinlə olduğu bir vaxtda, siz necə küfr edirsiniz?.. (Ali İmran surəsi, 100)**

Yuxarıdakı ayə münafiqlərin Allahın ayələrinə qarşı olan dünyagörüşlərini ortaya qoyması baxımından olduqca əhəmiyyətlidir. Çünki Quranı oxumaq və dinləmək möminin imanını artırar. Elçi ilə eyni mühiti paylaşan münafiqin də "**inanıram**" dediyi ayələri eşitdiyində, normal şərtlərdə imanının artması və qəlbinin yumşalması lazımdır. Lakin o imanını artırmaq deyil, dünya həyatından qazanc və mənfəət əldə etməyə çalışır. Bu səbəblə də, məhz bu möcüzə reallaşar; Quran ayələrini davamlı dinləyir və tətbiq edilməli üsullar ona davamlı göstərilsə də, qəlbindəki xəstəlik heç cür şəfa tapmaz. Unudulmamalıdır ki, yalnız Allahı razı etmək üçün edilən şeylər bir meyar ola bilər və cənnəti qazanmağa vəsilədirlər. Halbuki münafiqin ən diqqətə çarpan xüsusiyyətlərindən biri, "**bir şəkildə**" iman edirmiş kimi görünsə belə, Allahı razı etmə mövzusunda göstərdiyi zəif məqamlardır. Necə ki, bu zəiflik, qarşısına çıxan ən kiçik bir çətinlikdə özünü dərhal göstərir. Allah belə buyurur:

**... qəti əmr verildiyi zaman Allaha sadiq qalsaydılar, əlbəttə ki, onlar üçün daha yaxşı olardı. (Məhəmməd surəsi, 21)**

Göründüyü ki, münafiq çətin bir zamanda daha əvvəl verdiyi sözləri unudar və sədaqətsiz rəftar sərgiləyər. Hər an dağılmağa, saxta inancını itirməyə uyğun quruluşu vardır. Bu da, Allaha həqiqi mənada iman etməməsi, "**inanıram**" desə də əslində axirətə qəti olaraq inanmadığına görədir.

Peyğəmbərimiz (s) dövründə, hz. Məhəmməd (s)-in liderliyindəki möminlər inkarçılara qarşı mübarizə apardığı zaman, aralarından bir qrup, düşmən qarşısında imanlarını itirmiş, Allah və Peyğəmbərimiz (s) haqqında ağılsızca zənlər etməyə başlamışlar; beləcə həqiqi üzlərini göstərmişlər:

**Orada möminlər imtahana çəkilmiş və güclü sarsıntıya məruz qalmışdılar. O zaman münafiqlər və qəlbində xəstəlik olanlar: "Allah və Onun Elçisi bizə ancaq yalan vədə vermişdir" - deyirdilər. (Əhzab surəsi, 11-12)**

Mömin olanlar isə münafiqlərin göstərdiyi zəifliyin tam tərsinə daha da güclənmişlər:

**Möminlər müttəfiqləri gördükdə: "Bu, Allahın və Onun Elçisinin bizə olan vədidir. Allah və Onun Elçisi doğru söyləmişlər!" – dedilər. Bu onların yalnız imanını və itaətini artırdı. (Əhzab surəsi, 22)**

## İman gətirdikdən sonra inkar edərlər

**Allaha and içirlər ki, nalayiq sözlər deməyiblər. Onlar küfr sözünü demiş, İslamı qəbul etdikdən sonra kafir olmuş və bacara bilmədikləri bir işə can atmışlar... (Tövbə surəsi, 74)**

Münafiqlər öz aralarında müxtəlifdir. Məsələn bəzisi, mömin birliyinin içinə yalnız özünə maddi mənfəət təmin etmək üçün girərkən, bəzisi də (sırf onlara olan kinindən) aralarına gəlib, əleyhlərində planlar tətbiq etmək niyyətindədir. Bunlarla yanaşı, iman edərək möminlərin aralarına qatılan, ancaq sonradan qəlbləri qatılaşaraq imanlarını itirən və onlardan ayrılan münafiqlər də vardır. Bu tərz kəslər iman etdikdən sonra niyyətlərini pozmuşlar və inkara düşmüşlərdir. Halbuki onlar, daha əvvəl Allaha və möminlərə bağlılıq sözü vermişlər, imanlarında qərarlı olacaqları barədə vəd etmişlər. Bu ikiüzlü davranışları Quranda belə ifadə edilir:

**O kəslər ki, Allahla əhd-peyman bağladıqdan sonra onu pozur... (Bəqərə surəsi, 27)**

## Mömin birliyinin içindən çıxarlar

**Şübhəsiz ki, Aişə barəsində yalan xəbər gətirənlər özünüzdən olan bir dəstədir... (Nur surəsi, 11)**

Bəs münafiqlər mömin birliyinin içinə necə girirlər? Bu sualın cavabı Quranda bildirilir.

Münafiq özünü mömin olaraq tanıtma mövzusunda olduqca bacarıqlıdır. Mömin kimi namaz qılaraq, Allahı xatırlayaraq özünü (bir müddət də olsa) gizləyərlər. Özünü gizləyə bilməsinin bir başqa səbəbi də, möminlərin hüsnü-zənlə, yəni yaxşı gözlə baxmaları, onları müsbət qiymətləndirmələridir. Aralarına "**mən möminəm**" deyərək gələn bir adama səmimi mömin gözüylə baxmaları da, tamamilə gözəl əxlaqlarından və Allahı razı etmə səylərindən irəli gəlir. Necə ki, əksər hallarda başından etibarən insanın niyyətinin əyri olduğu fərq edilsə belə, "**bəlkə zamanla iman edib düzələr**" düşüncəsiylə möminlərin arasında olmasına icazə verilir.

Kitabın bu hissəsində bəhs ediləcək olan münafiqlərin ümumi xüsusiyyətlərini, bu şərhlər istiqamətində araşdırmaqda fayda vardır.

# XARAKTERLƏRİ VƏ RUH HALLARI

## Fitnəkar xarakterləri vardır

**Onlara: "Yer üzündə fəsad törətməyin!" – deyildiyi zaman: "Biz ki, ancaq xeyirxahlıq edənlərik!" – deyirlər. Sözsüz ki, onlar fəsad törədənlərdir, amma bunu başa düşmürlər. (Bəqərə surəsi, 11-12)**

Mömin sahib olduğu Allah qorxusu səbəbi ilə, vaxtını fasiləsiz olaraq xeyir və gözəllik düşünərək keçirir. Din günündə hər cür əməlindən və düşünüb, ağlından keçirdiklərindən belə sorğuya çəkiləcəyini bildiyi üçün, davamlı xeyirə yönələr.

Münafiq isə hesab verəcəyi həqiqətindən həmişə tərəddüd etdiyi üçün, ağlını Allah rizası üçün istifadə etməz. Bütün mövzuları fəsad üzərinə quruludur. Daima təxribatçılıq çıxarmaq və möminlərə çətinlik vermək istəyər.

İçində saxladığı fitnəkar xarakter ortaya çıxdığında isə bunu yenə inkar etməyə və Allahın elçisini öz zəif ağlı ilə yalan sözləri ilə aldatmağa çalışar; amma əlbəttə müvəffəqiyyət təmin edə bilməz. Çünki Allah onların söyləyəcəkləri sözləri də möminlərə əvvəldən bildirmişdir:

**Onlardan eləsi də var ki: "Mənə izn ver döyüşə getməyim, məni günaha batırma!" – deyir. Doğrusu, onlar artıq günaha batmışlar... (Tövbə surəsi, 49)**

Münafiqlərin hamısında fitnəkar xarakter vardır. Gizli və hiyləli yollarla, ya da açıq-aşkar fitnə çıxarmağa çalışarlar. Fitnənin mənası, daha əvvəl də ifadə etdiyimiz kimi, mömin birliyinin içində fitnə-fəsad və qarışıqlıq yaratmaqdır. Münafiqlər, bu sözün tam qarşılığını içlərində saxlayan və ətrafa əks etdirən insanlardır. Ruhları yaxşıya və gözəlliyə deyil, fitnəyə və nifaqa açıqdır.

Quran araşdırıldığında, münafiqlərin tarix boyunca hər dövrdə fitnə çıxardıqları aydın olur. Ümumi xüsusiyyətləri Quranda müxtəlif nümunələrlə bildirilir. Məsələn, "**fitnəkar**" xarakter göstərən insanlar, əslində heç bir

zaman fərqli bir şey etməmişlər və izlədikləri metodları da hər zaman bir-birinin eynisi olmuşdur.

Quranda fitnəkar xarakterinə verilən bir nümunə də hz. Musa (ə.s)-ın qövmündəki münafiqlərin öndəri olan Samiridir. Hz. Musa (ə.s)-ın yoxluğunu fürsət bilən Samiri, qövmün içində fitnə çıxarmış, bir çoxunun haqdan azmasına səbəb olmuşdur.

## Qüvvəni və qüruru inkarçılarda axtararlar

**...Möminləri qoyub kafirləri özlərinə dost tutanlar gücü və əzəməti onlardamı axtarırlar? Halbuki qüvvət və əzəmət tamamilə Allaha məxsusdur. (Nisa surəsi, 139)**

Münafiqlərin bütün dəyər mühakimələri azğın olduğu üçün, inkarçılara olan baxışları da tamamilə səhvdir. Allaha inanmayan, din əxlaqını yaşamayan və yaşanmaması üçün mübarizə aparan bu insanlara qarşı sevgi bəsləyərlər. Çünki inkarçılardan bəzi mənfəətlər təmin edirlər və bundan ötrü onların meyarlarını əhəmiyyətli sayırlar. Onlar tərəfindən ucaldılmaq, onların dəyər mühakimələrinə görə üstün mövqedə olmaq, özləri üçün ən əhəmiyyətli imtiyazlardan biridir. Qüvvət və qürurun yalnız Allah Qatında olduğunu qavraya bilməzlər. İnkarçıların çoxluğu onları aldadar. Bu səbəblə inkarçıları daha güclü və daha üstün hesab edərlər.

Ancaq münafiqlərin bilmədikləri, daha doğrusu qavraya bilmədikləri bir həqiqət daha var; o da, Allahın daim möminlərin qoruyucusu və dəstəkləyicisi olduğudur. Allah inkarçılarla olan mübarizələrində, möminləri hər zaman dəstəkləmiş, onları qalib etmişdir. Nisa surəsində bu həqiqət **"Allah kafirlərə möminləri məğlub etməyə yol verməyəcəkdir"** (Nisa surəsi, 141) şəklində bildirilmişdir.

## İnkarçıları dost seçərlər

**Sən onların bir çoxunun kafirlərlə dostluq etdiyini görürsən... (Maidə surəsi, 80)**

Allah möminləri, inkarçıları dost etməkdən məhrum etmişdir. Bunun səbəbi də aydındır; inkarçılar, Allaha inanmamaqla, Ona yönəlmir, Onun ayələrinə üz çevirməklə, dost edilməyəcək xarakterə sahib olduqlarını isbatlayırlar. Axirəti tamamilə unutmuşlar. Şeytani instinktlə qarşılarındakıları da dünyanı sevdirməyə çalışırlar. Onların bu cəhətlərini çox yaxşı bilən möminlər, inkarçılardan uzaq durur, onları əsla dost və sirdaş etməzlər.

Münafiqlər isə kafirləri dost bilib, Allaha inanan, həyatlarını Onun rizası üçün çalışaraq keçirən, son dərəcə səmimi və təmiz insanları düşmən bilərlər. Ayədə **"Onlar möminləri qoyub kafirləri dost seçərlər..."** (Nisa surəsi, 139) deyilir. Bunun səbəbi, münafiqlərin inkarçılarla təməldə eyni xüsusiyyətləri daşımalarıdır. Hər iki qrup da Allahı inkar edərək axirəti unudur və ətrafındakı insanları da bu istiqamətdə yönləndirməyə çalışır. Daha əvvəl açıqladığımız kimi hər iki qrup da "**şeytanın firqəsidir**" və ona xidmət edirlər.

## Etibarsız insanlardır

Buraya qədər izah edilmiş olan bütün xüsusiyyətlərindən aydın olduğu kimi, münafiqlər son dərəcə etibarsız insanlardır. Möminlərin içərisindədirlər, amma onlara düşməndirlər. Üstəlik, bu düşmənliklərini içlərində gizlədirlər. Saxtakar davranışlarının əlaməti olaraq içlərində gizlədikləri bu düşmənlik, onların xainliyinin və vəfasızlığının açıq göstəricisidir. Bu səbəbdən etibarlılığa dair ən kiçik əlamət belə göstərməzlər və verdikləri sözlərə əsla sadiq qalmazlar. Ayədə belə buyurulur:

**Onlar əhd bağladığın kimsələrdir ki, sonra hər dəfə öz əhdlərini pozur və heç nədən çəkinmirlər. (Ənfal surəsi, 56)**

Daha əvvəl ifadə etdiyimiz kimi "**fitnə**" və "**fəsad**" çıxarmağa olan düşkünlükləri onların güvənilməz olduqlarını təsdiq edir. Hər hansı bir

çətinlik, sıxıntı anında bu kəslərin sözlərinə etimad edərək hərəkət etmək möminlər üçün mümkün deyil. Əksinə, belə dövrlərdə möminlərin ən çox diqqət etməli olacağı gizli, hiyləli fəaliyyət görən bu insanlardan müsəlmanları qorumaqdır. Etibarsız olduqları, ümumiyyətlə çətinlik anlarında daha da dəqiqləşən münafiqlər haqqında, Quran ayələrində onların həqiqi xarakterləri möminlərə xəbər verilir və möminlər diqqətli olmağa çağırılır.

**Onlar möminlərlə münasibətdə nə qohumluq əlaqəsinə, nə də əhdə riayət etmirlər... (Tövbə surəsi, 10)**

## Yalan söyləyərlər

Münafiqlər yalanı vərdiş halına gətirmişlər. Heç düşünmədən yalan söyləyərlər. Halbuki Allah insanları yalan sözlərdən çəkindirir, onları yalana qarşı xəbərdar edir:

**...Elə isə murdar bütlərdən uzaq olun, yalan sözlərdən də çəkinin. (Həcc surəsi, 30)**

Münafiqlər isə Quranda, **"...Allah şahiddir ki, onlar yalançıdırlar."** (Tövbə surəsi, 107) ayəsiylə bildirildiyi kimi davamlı olaraq yalan söyləyirlər. Yalan, səmimiyyətsizliklərinin açıq əlamətidir. Həmçinin davamlı yalan söyləmələri öz qaranlıq ruh halları baxımından çox təbiidir. Çünki qəlblərində heç yaşamadıqları bir sistemin içərisində həyatlarını davam etdirirlər. Mömin kimi davranmaq, içində yaşadıqları birliyə qarşı dayanıb dincəlmədən rol oynamalarına səbəb olur, "**mömin kimi**" yaşadıqlarını, doğru olmasa da sübut etmələri lazımdır. Bu vəziyyət isə özlərini, əslində hiss etmədikləri, yəni qəlblərində olmayan şeyləri, ağızları ilə söyləmələrinə məcbur edir. Onların bu vəziyyətləri Quranda belə xəbər verilir:

**...Onlar qəlblərində olmayanı ağızları ilə deyirlər... (Ali İmran surəsi, 167)**

Necə ki, münafiqlərin ən bilinən yalan nümunəsi, mömin olmadıqları halda "**möminəm**" deməleridir. Mənfəətləri üçün çox asanlıqla yalan söyləyərlər və qarşılarındakıları aldatmağa çalışarlar. Yalanlarını söyləyərkən də, Allahın adını zikr edərək, Onu şahid gətirməyə belə cəhd edərlər. Bu kəslərlə əlaqədar olaraq bir ayədə belə buyurulur:

**İnsanların eləsi də var ki, onun bu dünya həyatında danışdığı sözlər səni heyran edər. O, qəlbində olana Allahı şahid göstərər. Əslində o, ən qatı mübahisəçidir. (Bəqərə surəsi, 204)**

Qəlblərində iman olmadığı halda mömin olduqları yalanını davam etdirmələri xaricində də mənfəət təmin etmək üçün çox müxtəlif yalanlara üz tutarlar. Bu yalanlarını istər möminlərə, istərsə də inkar edən dostlarına rahatlıqla söyləyərlər. Bir söz söyləyərkən onlar üçün əhəmiyyətli olan, insanları məmnun edərək maraqlarını ən çox təmin edə bilməkdir. İnsanlara yaranmaq məqsədilə söylədikləri bəzi yalanlar ayələrdə belə xəbər verilmişdir:

**Əgər səfəriniz gəlir gətirən və yüngül bir yürüş olsaydı, onlar mütləq sənin ardınca gedərdilər. Lakin əziyyətli yol onlara çətin gəldi. Onlar: "Əgər taqətimiz olsaydı, biz də sizinlə bərabər çıxardıq!" – deyə Allaha and içəcəklər. Onlar özlərini həlak edirlər. Çünki Allah onların yalançı olduqlarını bilir. (Tövbə surəsi, 42)**

**Münafiqlərin, Kitab əhlindən kafir olan qardaşlarına: "Əgər siz yurdunuzdan qovulsanız, biz də sizinlə birlikdə çıxıb gedəcək və sizə qarşı heç vaxt, heç kəsə tabe olmayacağıq. Əgər müsəlmanlar sizə qarşı vuruşsalar, mütləq sizə kömək edəcəyik!" – dediklərini görmədinmi? Allah onların yalançı olduğuna şahiddir. (Həşr surəsi, 11)**

## Bir-birinə uyğun olmayan sözlər söyləyərlər

**Sizin sözləriniz ziddiyyətlidir. (Zəriyət surəsi, 8)**

Yuxarıdakı ayədə də bildirildiyi kimi münafiqlərin danışıqları ziddiyyətlərlə doludur. Çünki tez-tez yalan söylədikləri üçün sözləri əksərən bir-birinə uyğun gəlməz. Möminlərinki kimi ağıla sahib olmadıqları və yalnız zəkalarından istifadə edərək danışdıqları üçün sözlərinin ziddiyyətli olması çox normaldır. Çünki Quranda "ağılla düşünməyən" qövm olaraq bəhs edilən münafiqlər, ağılsız olmaları səbəbi ilə incəlikləri qavraya bilməyən, hadisələrdəki təfərrüatları görə bilməyən quruluşa sahibdirlər. Üstəlik, ağıllarını istifadə edə bilmədikləri üçün "ziddiyyətli sözlərlə" nə qədər alçaq vəziyyətə düşdüklərinin fərqinə də vara bilməzlər. Halbuki özlərindən başqa hər kəs onların ziddiyyətli danışdıqlarını bilir.

## Təvəkkülsüzdürlər

İmanın ən əhəmiyyətli əlamətlərindən biri, insanın Allaha duyduğu güvən və təslimiyyətdir. Quranda "təvəkkül" olaraq adlandırılan bu xüsusiyyət həqiqətən iman edənlərlə, həqiqi mənada iman etməyənlər arasındakı ən diqqətə çarpan fərqlərdən biridir. Allaha həqiqətən iman edən insan, qarşısına çıxan hər hadisənin, özü üçün mütləq xeyir olduğunu bilər və təvəkküllü davranar. Allah Quranda möminlərin bu xüsusiyyətlərini belə xəbər vermişdir:

**Onlar səbirli olanlar və ancaq Rəbbinə təvəkkül edənlərdir. (Nəhl surəsi, 42)**

Münafiq isə başına gələn hadisələrə qarşı təvəkküllü deyil. O hər şeyin öz əleyhinə baş verdiyinə inanır. Hər an başına pis hadisə gələ biləcəyini düşünüb narahat yaşayar. Bunun ardındakı əsas səbəb, Allahdan uzaq yaşamasının nəticəsi olaraq, dünyaya aid qorxuya qapılmasıdır.

Buna ən əhəmiyyətli dəlil, öz ağıllarına görə heç vaxt planda olmayan çətin zamanlarıdır. Quranda, mübarizə dövrləri bunun üçün açıqlayıcı dəlil qılınmışdır. Peyğəmbərimizin (s) zamanında münafiqlər, döyüş zamanı gəldiyində, Allaha təvəkkül etməmişlər və ölüm bayğınlığı kimi qorxuya qapılmışlar.

**...Onlara qorxu gəldikdə, ölüm ayağında bayılan adam kimi, dönüb sənə baxdıqlarını görürsən... (Əhzab surəsi, 19)**

**O zaman onlar sizin həm yuxarı və həm də aşağı tərəfinizdən üstünüzə gəlmişdilər. O vaxt qorxudan gözlər bərəlmiş, qəlblər xirtdəyə çatmışdı... (Əhzab surəsi, 10)**

Allah, Quranda, Peyğəmbərimiz (s) dövründə döyüş əsnasında münafiqlərin qorxularını bir başqa ayədə belə vurğulayır:

**Əgər onlar bir sığınacaq və ya daldalanmaq üçün mağaralar yaxud gizlənməyə bir deşik tapsaydılar, ləngimədən ora yönələrdilər. (Tövbə surəsi, 57)**

## Dərhal ümidsizliyə düşərlər

Möminlərin ən üstün xüsusiyyətlərindən biri, üzləşdikləri çətinlik və ya sıxıntı qarşısında heç vaxt ümidsizliyə qapılmamaları, səbirli və təvəkküllü davranıb Allahın hər şeyi xeyirlə yaratdığına könüldən iman etmələridir. Necə ki, möminlər çox əhəmiyyətli bir həqiqəti qavramışlar. Bu, Allahın hər şeyin, hər hadisənin, hər anın Yaradıcısı olduğu həqiqətidir. Bu səbəbdən başlarına gələn hadisə, mütləq Allahın idarəsində olacaq. Bu vəziyyətdə möminlər, başlarına gələ biləcək çətinlikləri sıxıntı ünsürü olaraq deyil, xeyir olaraq qiymətləndirərlər:

**O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!" – deyirlər. (Bəqərə surəsi, 156)**

Münafiq möminin tam tərsinə, başına gələn hər hadisəni öz əleyhinə olaraq qiymətləndirər. Heç bir şəkildə xoşbəxt olmaz, hadisələrə həmişə mənfi gözlə baxar. Öz əleyhinə kimi görünən bir hadisə qarşısında səbir göstərib təvəkkül etməyi bilməz və dərhal ümidsizliyə qapılar. Çünki ümidi Allahdan deyil; Rəbbimizin sonsuz gücünü təqdir edə bilmir. Kömək gözlədiyi insanlar və dünyada əldə etməyə çalışdığı maraqları da ümidlərini qarşılamır. Bu səbəbdən, münafiqə hakim olan ümidsiz ruh halı, səhv ümidlərin təbii nəticəsidir.

Münafiq, həyatı boyunca həmişə gözəl gördüyü şeylərin özünün olmasını və istədiyi hər şeyin reallaşmasını arzu edər. Hadisələr bu istiqamətdə inkişaf etdiyi müddətcə də "normal" davranar. Ancaq əlbəttə, istədiyi şeylər hər zaman reallaşmaz və bu vəziyyətdə də açıq şəkildə nankorluq göstərərək ümidsizləşər. Məhz Allaha tam bir təslimiyyətlə iman etməyənlərin və qəlbində xəstəlik olanların bu xüsusiyyəti aşağıdakı ayə ilə bildirilmişdir:

**İnsana nemət verdiyimiz zaman anlamayaraq üz çevirib uzaq durar. Ona bir zərər toxunduqda isə məyus olar. (İsra surəsi, 83)**

## Təkəbbürlüdürlər

**Onlara: "Gəlin Allahın Elçisi sizin üçün bağışlanma diləsin!" – deyildiyi zaman başlarını yelləyir və sən onların özlərini dartaraq üz döndərdiklərini görürsən. (Münafiqun surəsi, 5)**

Təkəbbür şeytana tabe olmağın, təvazökar olmaq isə imanın gətirdiyi xüsusiyyətlərdir. Kitabın əvvəlində də izah edildiyi kimi, münafiq haqsız yerə qürur və təkəbbür edər.

Mömin, ağlıyla və imanı ilə hər şeyin tək sahibinin Allah olduğunu, özünün Allaha qarşı acizlik və yoxsulluq içində olan "qul" olduğunu anlamışdır və bu səbəblə də heç vaxt təkəbbürlü davranmazlar. Ancaq, iman, ağıl və qavrama baxımından zəif olan münafiq özünü bəyənər və qüsurlarını görməz.

Halbuki, özündən milyonlarla qat kiçik virusa məğlub olan, görə bilmədiyi və qarşı çıxa bilmədiyi mikroba görə xəstələnib yatağa düşən, yaşı artdıqca əlləri, dizləri titrəyən, doğru dürüst yeriyə bilməyəcək qədər aciz olan varlıqdır insan... Əlbəttə ki, bu vəziyyət açıq-aşkar ortada ikən, təvazökarlıq əsas olmalıdır. Lakin qavraya bilməyən və ağılla düşünə bilməyən münafiqlər, sanki bütün bu həqiqətlər onlar üçün keçərli deyilmiş kimi davranıb, heç də haqları olmadığı halda böyük qürur və təkəbbürlə yaşayarlar. Bu hallarıyla da, həm Allah Qatında, həm də ağlı başında olan insanların gözündə alçalarlar. Allah bu cür insanların vəziyyətlərini bir ayədə belə bildirir:

**...Bu gün isə siz yer üzündə haqsız olaraq təkəbbür göstərdiyinizə və asi olduğunuza görə alçaldıcı əzabla cəzalandırılacaqsınız! (Əhqaf surəsi, 20)**

## Qısqancdırlar

**Yoxsa onlar Allahın Öz lütfündən insanlara verdiyi şeyə görə onlara həsəd aparırlar?... (Nisa surəsi, 54)**

Münafiqlərin bir başqa şeytani xüsusiyyətləri də qısqanc olmalarıdır. Başqalarının sahib olduqları üstünlükləri qəbul edə bilməzlər. Yaxşı olan hər şeyə yalnız özlərinin layiq olduğunu düşünər, buna görə hər cür neməti qısqanarlar. Qısqandıqları kəslər də ümumiyyətlə möminlərdir. Möminlərin sahib olduqları ağıl, heybət, zənginlik, həsəd etdikləri mövzuların əvvəlində gəlir. Bu qısqanclıq, içlərindəki kinin daha da artmasına səbəb olur, ona görə də möminlərin inkara düşməsini arzu edirlər.

## Höcətləşən və təcavüzkardırlar

**...Doğrusu, onlar höcətləşən adamlardır. (Zuxruf surəsi, 58)**

İnkarçılar kimi höcətləşən münafiqlər, gözəl sözdən də anlamazlar. Onlar ancaq davadan, mübahisədən zövq alarlar və işlərini zorakılıqla həll edə biləcəklərini zənn edərlər. Quranda münafiqlərin bu yönləri də belə xəbər verilmişdir:

**İtaət etmə hər tez-tez and içənə, alçağa, qeybət edənə, dedi-qodu yayana, xeyrə mane olana, həddi aşana, günahkara, daş qəlbliyə, bunlardan sonra da başqasının adını mənimsəyən fırıldaqçıya. (Qələm surəsi , 10-13)**

## Həddi aşarlar və sərhəd tanımazlar

Allahdan qorxan adam, Onun sərhədlərini qorumağa qarşı çox həssas olar. Allaha qarşı ən kiçik qüsur belə etmək istəməz. Münafiqlər isə bu cür diqqət etməzlər. Axirət haqqında şübhə edərlər və hesab verəcəklərinə iman etmədikləri üçün rahatlıqla Allahın sərhədlərini aşıb, həddi aşırlar. Din gününü unudan kəslərin necə insanlar olduqları Quranda belə bildirilir:

**O kəslərin ki, Haqq-hesab gününü yalan hesab edirlər. Amma bunu, həddini aşan günahkardan başqa, heç kəs yalan hesab etməz. (Mutaffifin surəsi, 11-12)**

Allahdan qorxmayan, Onun sərhədlərinə görə yaşamayan insanlar hər cür günaha və əxlaqi degenerasiyaya açıqdırlar. Bəzi insanlar özlərindən müxtəlif sərhədlər çəkməyə çalışsalar da, bu sərhədlər yenə də haqqa uyğun olmaz.

Bu xüsusiyyəti göstərən münafiqlər də, rahat şəkildə degenerasiyalı həyat şəklini mənimsəyəcək quruluşdadırlar. Qulluq etdiyi şeytan onları asanlıqla yoldan çıxarıb, ən uc nöqtələrə doğru sürükləyə bilər. Allahı gizli-gizli inkar etdikləri üçün, Allahın əzabı onlar üçün çəkindirici ünsür olmaz. Həddi aşmada heç bir sərhədi olmayan bu insanların qurduqları nizam isə, şübhəsiz ki, Allahın nizamı qarşısında pozulmağa, yox olmağa məhkumdur.

## Nankordurlar

Nankor olduqlarının ən böyük göstəricisi, aralarında olduqları müddət ərzində onlara həmişə yaxşı gözlə baxan, kömək etmək üçün səy göstərən, Allaha, imana dəvət edən, axirətdə sonsuz əzabdan xilas olmaları üçün öyüd-nəsihət verən möminlərə kin və qəzəb duyaraq onlara qarşı cəbhə almalarıdır. İnkarçılarla birlik olub möminlərə qarşı tələ qurmağa çalışmaları da, nankorluqlarının açıq şəkildə feili formasıdır. Ancaq əlbəttə, bu etdikləri cavabsız qalmayacaq, əksinə axirətdə sonsuz əzabla qarşılıq görəcəklər. Allah xüsusilə münafiqlərə öyüd verən, onları Allahın dininə dəvət edən Peyğəmbərə qarşı edilən nankorluğu qətiyyən bağışlamayacağını bildirir:

**Onların bağışlanması üçün dua etsən də, etməsən də, hətta onlar üçün yetmiş dəfə bağışlanma diləsən belə, Allah onları əsla bağışlamayacaqdır. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər... (Tövbə surəsi, 80)**

## Çoxluqla öyünərlər

**Çoxluğa hərisliyiniz başınızı o qədər qatdı ki, gömülməklə qəbirləri ziyarət etdiniz. (Təkasur surəsi, 1-2)**

Münafiqlərin qürur qaynaqları, sahib olduqları müvəqqəti dünyəvi dəyərlərdir. Bu dəyərlərlə (gözəllik, maddi zənginlik) öyünüb insanlara nümayiş edərlər. Bunu edərkən dərk edə bilmədikləri çox əhəmiyyətli həqiqət

vardır. Bunların heç birinin sahibi özləri deyil, sahib olduqları hər şey Allahın onlara müvəqqəti müddətə onların əzabını artırmaq üçün verdikləridir.

Qürur duyduqları bir nöqtə də, inkarçıların saylarının möminlərdən daha çox olmasıdır. Ağılsız olduqlarına görə, bununla əlaqədar qavraya bilmədikləri bir həqiqət isə, Allahın bunu Quranda onsuz da bildirmiş olduğu və bunun möminlərin əleyhinə deyil, lehinə olduğudur. Onsuz da ağılın tələbi ilə hərəkət edən kiçik birliyin, ağılsız davranan böyük birliyə mübarizədə hər zaman qalib gələcəyi və onlardan daha üstün olacağı hər kəs tərəfindən bilinən həqiqətdir.

## Nemət verildikdə lovğalanıb sevinərlər

Özlərini ağılsız şəkildə çox bəyənən, hər zaman ən üstün və ən ağıllı olduqlarını zənn edən münafiqlər, onlara nemət verildiyində "nəhayət dəyərlərinin aydın olduğu" düşüncəsinə qapılaraq daha da lovğalanırlar. Məsələn, möminlər onlara öyüd-nəsihət verdiyi, səhvlərini tənqid etdiyi zaman qəzəblənən və ümidsizliyə qapılan münafiqlər, çox az maraq, hörmət gördüklərində birdən-birə haqsız yerə təkəbbürlənməyə, hörmətə uyğun olmayan rəftarlar etməyə başlayırlar. Və ya təqlid etdikləri gözəl rəftara görə öyünərlərsə, birdən özlərini hər şeydən müstağni görməyə, qarşılarındakı insanları isə aşağı görməyə başladıqları hiss edilər. Eyni ruh halları maddi olaraq əllərinə keçən nemətlər qarşısında da ortaya çıxır.

Halbuki Allah onları sınamaq üçün nemətini artırır, lakin onlar bunun fərqində deyildirlər. Allahın nizamını qavraya bilməyən bu birliyin ruh halı və sonu Quranda belə xəbər verilmişdir:

**Onlar özlərinə edilmiş xəbərdarlığı unutduqları zaman hər şeyin qapılarını onların üzünə açdıq. Onlara verilən şeylərə sevindikləri vaxt isə onları qəflətən yaxaladıq və onlar naümid qaldılar. (Ənam surəsi, 44)**

## Nemətləri üstünlük kimi bilərlər

Münafiqlərə verilən nemətləri üstünlük olaraq hesab etdikləri Rəbbimizin Quranda bildirmiş olduğu Qarun hekayəsində da açıq şəkildə görülür. Allahın sınaq üçün çoxlu sərvət verdiyi Qarun, əlindəki nemətlərdən ötrü malına qürrələnib, bunları öz qövmünə qarşı üstünlük kimi düşünmüşdür. Halbuki sərvətinə layiq olduğunu düşünür, bunların Allahdan gələn böyük nemətlər olduğunu düşünmür. Bu, əlbəttə, Allahın şanını gərəyi kimi təqdir edə bilməməsi və öz acizliyinin fərqində olmamasından qaynaqlanır. Qarunun vəziyyəti, eyni məntiqə sahib münafiqlər üçün Quranda verilmiş əhəmiyyətli nümunədir.

**Həqiqətən, Qarun Musa ilə həmtayfa idi. Amma onlara qarşı yamanlıq edirdi. Biz ona elə xəzinələr vermişdik ki, onların açarlarını daşımaq bir dəstə qüvvətli adama ağır gəlirdi. Qövmü ona dedi: "Öyünmə! Həqiqətən, Allah öyünənləri sevmir. (Qəsas surəsi, 76)**

## Qorxaq xarakterlidirlər

**Onlar sizinlə həmrəy olduqlarına and içirlər. Halbuki onlar sizdən deyildirlər. Əslində, onlar qorxaq adamlardır. (Tövbə surəsi, 56)**

Qəribə, şeytani məntiqi üzərində daşıyan münafiqlər əslində heç də ətrafa əks etdirməyə çalışdıqları kimi cəsur xaraktere sahib deyildirlər. Savaş və çətinlik anları qəlblərindəki xəstəliyin ortaya çıxması baxımından əhəmiyyətli zamanlardır. Məsələn, Peyğəmbərimiz (s) dövründə döyüşə çağırıldıqda, mütləq bu çağırışa razılıq verəcəklərinə dair sözlər verən münafiqlər, döyüş başlayan kimi insanlara qarşı duyduqları şiddətli qorxuya görə geri dönüb qaçmışlar. Bu da onların qorxaq xarakterli olduqlarına açıq-aşkar bir dəlildir:

**...Onlara vuruşmaq vacib edildikdə, içərilərindən bir dəstəsi Allahdan qorxduqları kimi və ya daha artıq qorxu ilə insanlardan qorxdular və: "Ey**

**Rəbbimiz! Vuruşmağı nə üçün bizə vacib etdin? Nə olardı ki, bizə yaxın vaxtadək möhlət verəydin!".... (Nisa surəsi, 77)**

## Fiziki cəhətdən və ruhən murdardırlar

Münafiqlər "cahil din"in nümayəndələri olduqlarını daha əvvəl bəhs etmişdik. Bu batil dini yaşayanlar, Allahın insanlar üçün seçib bəyənmiş olduğu həyat şəklindən uzaq həyat sürərlər. Bu həyatın qaydalarını, şeytanın ilhamı ilə təyin edirlər. Bir-birlərini maddi meyarlara görə qiymətləndirmələri, bir-birlərini qısqanmaları və daha yüzlərlə şeytani davranış bu batil dinin qaydalarını meydana gətirir.

Bu davranışlarının nəticəsində ortaya çirkin cahillik ruhu çıxar. Həmişə pislik hazırlayan, hadisələrdəki xeyiri və hikməti heç bir zaman görə bilməyən, insanların əleyhinə fəaliyyətlərini davam etdirən, sanki şeytanın ruhunu xatırladan ruhdur bu.

Necə ki, içlərində belə çirkin bir ruh halı yaşayan münafiqlər üçün Allah belə hökm verir:

**Yanlarına qayıtdığınız zaman onlardan əl çəkəsiniz deyə qarşınızda Allaha and içəcəklər. Siz onlardan üz döndərin. Çünki onlar murdardırlar. Qazandıqları günahların cəzası olaraq sığınacaqları yer Cəhənnəm olacaqdır (Tövbə surəsi, 95)**

Yuxarıdakı ayədə də ifadə edildiyi kimi, bu kəslərin fiziki mənada da təmiz quruluşa sahib olduqları deyilə bilməz. Necə ki, ruh və fiziki gözəllik, bir-birləriylə yaxın əlaqəli iki anlayışdır. Qəlbində pislik olanın əlbəttə ki, həyatı da pis olacaq. Həmçinin Allah qəlblərindəki xəstəlik səbəbi ilə pisliklərini artırdığını da bir ayədə belə bildirir:

**Qəlbində xəstəlik olanlara gəlincə, o surə onların murdarlığı üstünə bir murdarlıq da artırır və onlar kafir qalaraq ölürlər. (Tövbə surəsi, 125)**

Qəlblərindəki xəstəliyə görə ruhlarında yaranan qaranlıq üzlərində əks olunar. Bu kəslərin üzləri Quranda Allahın bildirdiyi kimi **"sanki qaranlıq gecənin parçalarına bürünmüş kimidir"** (Yunis surəsi, 27). Möminlərə verilən "**nur**" baxanlara fərahlıq verərkən, münafiqlərin üzlərindəki qaranlıq ifadə xüsusilə diqqət çəkicidir.

## Xəsisdirlər, xəsisliyi əmr edərlər

**Münafiq kişilər və münafiq qadınlar bir-birinin tayıdırlar. Onlar insanları pis işlər görməyə vadar edir, yaxşı əməllərə qadağa qoyur və xəsislik göstərirlər.... (Tövbə surəsi, 67)**

İnfaq etmək, Quranda əmr edilən, Allahı razı edəcək ibadətlərdən biridir. Allah bir çox ayə ilə infaq etməyin əhəmiyyətini bildirir və buna xüsusilə, infaq edən adamın özünün ehtiyacının olduğunu xəbər verir. Çünki infaq edən adam, axirətdəki dərəcəsini, cənnətdəki yerini artırmaq üçün infaq edir. Allah, Öz tərəfindən nemətlərini möminlərə bol-bol verir.

Ancaq bu əhəmiyyətli ibadətin öz lehinə olacağını qavraya bilməyən münafiqlər infaq etməyə əsla yanaşmazlar. Çünki bütün səyləri maddi imkanlarını artırmaq olduğu üçün, Allah yolunda etdikləri təqdirdə böyük itki olacağına inanırlar. Onların məqsədi onsuz da öz ağıllarına görə mömin birliyini dağıtmaq, onları bir-birlərindən ayıraraq din əxlaqının yaşanmasına mane olmaqdır. Bu məqsədlərinin heç bir zaman müvəffəqiyyətə çata bilməyəcəyi isə Allahın vədidir. Məqsədlərinə çatmaq üçün nə özləri maddi və ya mənəvi mömin birliyinə fayda təmin etmək istəyərlər, nə də möminlərin bir-birlərinə fayda verməsini qəbul edə bilərlər. Onlar həm özləri xəsislik edərlər, həm də ətraflarına xəsisliyi tövsiyə edərlər.

Mömin birliyinin heç bir şeyə möhtac olmadığının, Allahın köməyinin daim onlarla birlikdə olduğunu dərk edə bilməyən bu kəslərin, insanları necə xəsisliyə dəvət etdikləri belə bildirilir:

**Məhz onlar: “Allahın Elçisi yanında olanlara bir şey verməyin ki, dağılıb getsinlər!” – deyirlər. Halbuki göylərin və yerin xəzinələri Allahındır, lakin münafiqlər anlamırlar. (Münafiqun surəsi, 7)**

## Özlərinin xoşlamadıqları şeyləri infaq edərlər

**...Özünüzə verildiyi təqdirdə ancaq göz yumub alacağınız pis şeylərdən xərcləməyə çalışmayın. Bilin ki, Allah Zəngindir, Tərifəlayiqdir. (Bəqərə surəsi, 267)**

Münafiqlər infaq etsələr də, infaq etdikləri şeylər ancaq xoşlamadıqları şeylərdən ibarət olar. Bu eyni zamanda batil cahillik dininin də çirkin qaydasıdır. Eyni qaydanı davam etdirən və yalnız möminlərə nümayiş etmək məqsədiylə onsuz işlərinə yaramayan şeylərdən sərf edən münafiqlərdən, infaq etdikləri şeylər də heç bir şəkildə qəbul edilməz. Allah Quranda bunun səbəbini belə açıqlayır:

**Onların sərf etdiklərinin qəbul olunmasına yalnız o mane olur ki, onlar Allaha və Onun Elçisinə küfr edir, namaza tənbəlliklə qalxır və mallarını könülsüz xərcləyirlər. (Tövbə surəsi, 54)**

## Acı dillidirlər

**...Qorxu keçib getdikdə isə qənimətdə xəsislik edib acı dilləri ilə səni sancırlar. Onlar iman gətirməmişlər. Allah da onların əməllərini puç etmişdir. Bu, Allah üçün asandır. (Əhzab surəsi, 19)**

Qorxaq və zəif quruluşlarına baxmayaraq acı dilləri ilə möminlərə hücum edər, onları sözləri ilə incitməyə çalışarlar. Bunu etməyə cəsarət tapdıqları mühit isə, maraqlıdır ki, təhlükəsizliyə qovuşduqları öz ağıllarına

görə hər hansı bir təhlükə vəziyyətinin olmadığını zənn etdikləri mühitdir. Ayədə bildirilən "**qorxu getdikdə**" ifadəsi bu vəziyyəti açıqlayır.

Bütün bu rəftarlarının qaynağı şeytandır. Bilindiyi kimi şeytan, insanların doğru yollarında oturub, onlara zərər verməyə çalışır. Münafiqlər də şeytandan nümunə götürdükləri bu istiqamətləriylə, möminlərə sözlə zərər verməkk, onları narahat etmək üçün məşğul olarlar və bunun üçün hər fürsəti istifadə edərlər. Ancaq heç bir şəkildə möminlərə zərər verə bilməzlər.

## Şübhə içindədirlər

**...Həqiqətən, onlar anlaşılmaz bir şübhə içində idilər. (Səba surəsi, 54)**

Münafiqlər qəlblərində həmişə şübhə duyarlar. Bu şübhə, Quran, elçi, axirət kimi dinin əsas mövzularına istiqamətlidir.

Qəlblərində daşıdıqları xəstəlikdən ötrü vicdanları da heç cür rahat olmur. Bir tərəfdən möminlərin Allaha olan bağlılıqlarına şahid olur, bir tərəfdən də öz nəfslərinin saxtakarlığını görürlər. Necə ki, Allah Peyğəmbərimiz (s) dövründə müsəlmanlardan ayrı, onlara qarşı məscid quran münafiqlərin, qəlblərindəki xəstəlikdən qaynaqlanan şübhələrinin daima davam edəcəyindən belə bəhs edir:

**Onların qəlbləri parça-parça olana qədər tikdiyi bina qəlblərində bir şübhə olaraq qalacaqdır... (Tövbə surəsi, 110)**

İnsanlara qarşı da güvənsizdirlər. Hər kəsdən şübhələnər, hər zaman başqalarının onlara oyun oynayacağından, ya da onları alçaldacağından qorxarlar. Allah ayədə onlar üçün **"...Onlar hər bir səs-küyün özlərinə qarşı olduğunu sanırlar."** (Münafiqun surəsi, 4) deyir. Bu dərəcədə narahat olmaları, Allaha etibar etməmələri, Onu dost bilməmələrinə görədir.

# Zalımdırlar

**...Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar zalımlardır. (Maidə surəsi, 45)**

Möminlərin dünyada qazanmaq istədikləri müvəffəqiyyətlərdən biri, insanlar arasında haqqı və yaxşılığı yerləşdirib, zülm və pisliyi yer üzündə məhv edə bilməkdir. Bu idealları, sahib olduqları gözəl əxlaqın nəticəsidir. Bu çətin vəzifəyə boyun olmalarının səbəbi isə Allah qorxularıdır.

Cahil cəmiyyətində hökm sürən zülmü dağıtmaq və yaxşılığı keçərli qılmaq üçün səy göstərən möminlərə qarşı mübarizəyə girişmək, üstəlik bunu onların içlərinə qədər girərək, aralarında ikən etməyə cəhd etmək, münafiqlərin nə qədər zalım ruha sahib olduqlarını açıq şəkildə ortaya qoyur.

İman gətirdikdən sonra imanlarından dönən münafiqlər, zülm dolu dünyanın içinə düşməkdən özlərini xilas edə bilməzlər. Bu səbəbdən, zənn etdikləri kimi hüzur və təhlükəsizlik həyat da yaşaya bilməzlər.

Necə ki, **"İman gətirdikdən sonra imanlarına zülm qatışdırmayanları əmin-amanlıq gözləyir. Doğru yola yönəlmişlər də məhz onlardır."** (Ənam surəsi, 82) ayəsində də bildirildiyi kimi, hüzur və təhlükəsizlik ancaq iman edən və imanlarında qətiyyətli davranan möminlərin sahib ola biləcəyi nemətdir.

# Xarici görünüşləri aldadıcıdır

**Sən onlara baxdıqda bədən quruluşları xoşuna gəlir, danışanda onların dediklərinə qulaq asırsan. Halbuki, onlar divara söykədilmiş dirəklər kimidirlər... (Münafiqun surəsi, 4)**

Münafiqlər dünyada yaşadıqları müddət ərzində axirətdə ziyana uğrayacaqlarını dərk etmirlər. Əksinə cənnətə gedəcəklərinə əmindirlər. Şübhəsiz bu ağılsızlıqlarının və qavrayış qabiliyyətindən məhrum olduqlarının çox açıq dəlilidir.

Məsələn, bir münafiq zəngin, ya da görünüş olaraq gözəl ola bilər. O, bunu özü üçün qazanc olaraq görsə də əslində bu onun üçün imtahan və əzab səbəbidir. Malına, mülkünə ya da gözəlliyinə aldanan münafiq hər şeyin yolunda getdiyini zənn edir və rahat şəkildə fəsad törətməyə davam edər. Halbuki, o fərqində deyilkən etdiyi hər şeyin hesabı tutulur və bütün pislikləri cəhənnəmdə qarşısına əzab olaraq çıxacaq.

Həmçinin, daha əvvəl də ifadə etdiyimiz kimi, Allah dünyada da onları müəyyən müddətə qədər yaşadar, zamanı gəldiyində də elçiyə və möminlərə münafiqlərin içlərindəki qaranlıq ruhu göstərər. Beləcə, onların münafiqliyini görən müsəlmanlar da onların yanıldıcı xarici görünüşlərinə aldanmayaraq Allahın əmrini yerinə yetirər və onlarla mübarizəyə başlayarlar.

## Yaradılmışların ən alçaq olanlarıdırlar

**...Onların qəlbləri vardır, lakin onunla anlamazlar, gözləri var, onunla görməzlər, qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha da azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır. (Əraf surəsi, 179)**

Allahın varlığını bildikləri, Quranın əmr və tövsiyələrini öyrəndikləri, elçini və möminləri tanıdıqları halda, bütün bunlardan üz çevirdikləri və imanlarından sonra inkara azdıqları üçün Allah onları ayədəki şəkildə açıqlayır. İmana dəvət edildikləri halda iman etmədikləri və Allahdan gərəyi kimi qorxmadıqları üçün, Allah onları heyvanlardan daha alçaq xarakterdə yaratmışdır və inananlara da onların bu vəziyyətini xəbər vermişdir.

## Düşünməzlər

Batil cahil dinin ən bilinən xarakteridir düşünməmək. Düşünməməklə xoşbəxt olduqlarına, zehni cəhətdən sağlam qaldıqlarına özlərini inandırmışlar. Düşünərlərsə, bunun onlara zərər verəcəyini zənn edərlər. Və ya bəzən də bir şey düşünməli olduqlarını belə dərk etməzlər.

Düşünmədikləri mövzuların başında "ölüm" gəlir. Hər an ölümlə burun-buruna olduqlarının, Allahın dilədiyi anda canlarını ala biləcəyinin fərqində deyildirlər. Onlar minlərlə il yaşayacaqları, bu dünyanın nemətlərini rahatca istifadə edəcəyi zənninə qapılmışlar.

Düşünmədikləri bir başqa mövzu da ölümdən sonrakı hesab günü və axirətdir. Heç biri ölümdən sonra dirildiləcəyini və dünyada ikən etdiklərinin hesabını verəcəyini, sonsuz həyatı, cənnət və cəhənnəmi düşünməz, daha doğrusu düşünmək istəməz. Hətta çox vaxt belə bir hadisəyə ehtimal da verməz.

Düşünməyə qarşı özlərini sanki möhürləmişlər. Bu xarakterləri onları "**dərk edən varlıq**" olma xüsusiyyətindən uzaqlaşdırar; ən sadə mövzuları belə düşünə bilməz hala gələrlər. Düşünən insan isə hər zaman doğruları axtaracaq. Haradan gəldiyini, içində olduğu kainatın, öz bədəninin necə meydana gəldiyini və təbii ki, özünün hara doğru getdiyini düşünər. Beləcə Qurana bərk sarılaraq "**dərk edən**" insan olma xüsusiyyətini qazanar.

Lakin inkarçılar kimi münafiqlər də, düşünməyərək öz gözləri qarşısında "**qəflət pərdəsi**" meydana gətirərlər. Düşünməyərək dünyanı daha rahat yaşaya biləcəklərini zənn etdikləri üçün, həyatlarını bomboş keçirərlər. "**Düşünməkdən uzaq**" olduqları üçün də içlərindəki pisliyin, qaranlığın və ən əhəmiyyətlisi yalnız özlərini aldatdıqlarının fərqinə vara bilməzlər.

## Ağılla düşünməzlər

Bir insanın yalnız insan görünüşündə olması, insanlara aid bəzi xüsusiyyətlər daşımış olması, onun həqiqətən ağıllı varlıq olduğuna yetərli dəlil deyil. Ağıl çox fərqli anlayışdır; bəzi xüsusiyyətlər nəticəsində ortaya çıxır. Allah Quranda ağlın sirlərini bildirmiş, insanları bu sirlərə xəbərdar olmağa təşviq etmişdir. Bu sirlərdən bəziləri Allaha qeyd-şərtsiz iman edilməsi, Ona tam güvən və təslimiyyət duyulması, Rəbbimizdən başqa heç bir ilah və köməkçi axtarılmaması, Ona qarşı dərin hörmət və qorxu hiss edilməsi, Onun bir an belə unudulmamasıdır. Bütün bunları qavrayan və həqiqi ağlı əldə edən insanlar yalnız möminlərdir.

Münafiqlər isə "ağıllı"nın təqlidini etməyə çalışırlar. Ancaq bu hallarıyla, çox sadə və səthi rəftar sərgiləyərlər. Nə qədər təqlid edərlər etsinlər, həqiqi ağıl əlamətlərini heç vaxt göstərə bilməzlər. Necə ki, "**həqiq ağıl**", ancaq səmimi olan möminlərdə meydana gəlir.

Münafiqlər daxil bütün inkar edənlər, Quranda "**ağılsız**" insanlar olaraq xatırlanırlar:

**...Bu ona görədir ki, onlar ağlı kəsməyən adamlardır. (Həşr surəsi, 14)**

Ağılla düşünməyən varlıqlar olduqlarının başqa göstəricisi də, edilən bütün xəbərdarlıqlara qapalı olmalarıdır. Onlara ölümün yaxınlığını, cəhənnəmin acı əzabını xatırladan möminləri eşitmirmiş kimi davranıb, eyni səhv rəftarı göstərməyə davam edərlər. Allahın zikri qəlblərində təsir yaratmaz, onlara xatırladılan ayələrə laqeyd yanaşarlar. Buna görə də Allah Quranda onlar üçün belə deyir:

**Onlar kar, lal və kor olduqlarına görə doğru yola qayıtmazlar. (Bəqərə surəsi, 18)**

## Qavraya bilməzlər

Daha əvvəl də toxunduğumuz kimi, münafiqlər düşünməyərək şüurlarını haqqı qavramağa qarşı bağlamışlar, qəlblərinin üzərinə sanki bilə-bilə qıfıl vurmuşlar. Allah da bu kilidə möhür vurmuşdur. Ayələrdə bu mövzuda belə bəhs edilir:

**Allah onların qəlblərini və qulaqlarını möhürləmiş, gözlərinə də pərdə çəkmişdir. Onlar üçün böyük bir əzab vardır. (Bəqərə surəsi, 7)**

**...Onların qəlblərinə möhür vuruldu. Buna görə də onlar haqqı anlamayacaqlar. (Tövbə surəsi, 87)**

Bir insan üçün ola biləcək ən böyük itkilərdən biri, ağlını və anlayış qabiliyyətini itirməsidir. Münafiqlər saxtakarlıqları ilə doğru mütənasib olaraq bütün ağıl və qavrayış güclərini itirmişlər. Güclərini pislik və üsyan istiqamətində istifadə etdikləri üçün, onları yaxından maraqlandıran ən diqqətə çarpan hadisələri belə qavraya bilməzlər. Buna ən gözəl nümunələrdən biri, ölümün yaxınlığını qavraya bilməmələridir. İnsanın ölümlü bir varlıq olduğu və əvvəl-axır bir gün öləcəyi çox açıq həqiqət ikən, onlar hələ dünyadan özlərinə mənfəət təmin etməyə çalışarlar. Bu halları, qavraya bilmədiklərinin və ağılla düşünə bilmədiklərinin ən açıq nümunəsidir. Allah ayəsində onları belə tanıdır:

**...Anlamayan adamlar olduqlarına görə Allah onların qəlbini imandan məhrum etmişdir. (Tövbə surəsi, 127)**

## Üzlərindən və danışıqlarından tanınarlar

Münafiqlər fərq edilməmək üçün böyük səy göstərərlər. Lakin bununla yanaşı Allah, ayədə Onun elçisinə bu şəkildə xitab edir:

**Əgər Biz istəsəydik, onları sənə göstərərdik, sən də onları üzlərindəki əlamətlərdən tanıyardın. Sən onları danışıq tərzlərindən mütləq tanıyacaqsan... (Məhəmməd surəsi, 30)**

Açıq aşkar görünür ki, münafiqlər Allahın diləməsiylə elçi tərəfindən tanına bilinirlər. Münafiqləri ələ verən əsas xüsusiyyətləri stabil ruha sahib olmamaları və bununla yanaşı üzlərinin möminlərinki kimi nurlu, danışıqlarının da yenə möminlər kimi şüurlu və tutarlı olmamasıdır. Üzləri ayələrdə bildirildiyi şəkildə zillət içindədir, danışıqları isə qəlblərindəki şübhəni və qaranlığı çölə vurur:

**Məhz Allaha və Onun Elçisinə qarşı çıxanlar ən zəlil kimsələr arasında olacaqlar. (Mücadilə surəsi, 20)**

Möminlərin üzlərində nur, səmimi və hüzurlu ifadə vardır. Xarici görünüşdən də açıq şəkildə müəyyən olan bu xüsusiyyət etibarsız olduqlarının açıq göstəricisidir. Münafiqin üzündəki ifadə isə qəlbindəki inkarı xaricə vurur:

**Kafirlərə açıq-aydın ayələrimiz oxunduqda sən onların üzündə nifrət görərsən. (Həcc surəsi, 72)**

## Bədbəxtdirlər

Münafiqlər etdikləri pisliklər qarşısında hər nə qədər qazanc əldə etməyi ümid etsələr də çətinlik və kədərdən başqa bir şey tapa bilməzlər. Əllərinə keçən ən böyük fürsəti geri çevirmişlər, buna görə Allahın qəzəbini qazanmışlar. Pislikləri etdikdən sonra xoşbəxt olmağı gözləsə də, həyatları boyunca və ən əhəmiyyətlisi axirətdə bədbəxtlik, bərəkətsizlik, çətinlik və hüsran onlardan əl çəkməyəcək. Allah etdiklərinə qarşılıq verdiyi cəzanı belə bildirir:

**Qoy onlar etdikləri günahların cəzası olaraq az gülüb çox ağlasınlar. (Tövbə surəsi, 82)**

Necə ki, münafiqlər, hər nə qədər təkəbbürlənsələr də, özlərini insanlardan üstün və yaxşı mövqedə görsələr də, əslində həyatlarını ayədə ifadə edildiyi kimi sıxıntı içində keçirərlər. Bu Allahın tanınmaları üçün onlara verdiyi bəla formasıdır. Dünyadakı gözəlliklərdən zövq ala bilmədikləri kimi axirətdən də ümidlərini üzdükləri üçün, xoşbəxtliyi dada bilməzlər və daim ağlamağa meylli olarlar. Bu, bəzən çölə əks olunan ağlama olmaya bilər, ancaq ruhlarına hakim olan davamlı sıxıntı, narazılıq, özünə yazığı gəlmə, ümidsizlik kimi mənfi duyğulardır.

## Öz aralarında darmadağındırlar

**...Onların öz aralarındakı düşmənçilik isə çox kəskindir. Sən onların həmrəy olduğunu güman edirsən, halbuki onların qəlbləri dağınıqdır... (Həşr surəsi, 14)**

Yalnız bir-birlərini dost və sirdaş etmələrinə baxmayaraq əslində bir-birlərinə də güvənməzlər. Bunun səbəbi, şüur altında özlərinin ikiüzlü olduqlarını bildikləri kimi, qarşılarındakı münafiqin də ikiüzlü olduğunu bilmələridir. Buna görə bir-birləriylə tam mənasıyla yaxın dost olmazlar.

Öz aralarında birlik olduqları zənn edilən münafiqlər, əslində aralarında heç bir şəkildə isti dostluq, sevgi və qardaşlıq yaşamırlar. Onsuz da qəlbləri də, bu tip duyğuları bəsləməyəcək qədər pis və qatıdır. Ən kiçik bir çətinlikdə heç çəkinmədən bir-birləri əleyhinə ifadələr verə bilər və bir-birlərini tələyə sala bilər. Öz mənfəətləri üçün qarşılarındakı hər kəsi rahatlıqla gözdən çıxara bilərlər.

## Qəlbən Allaha iman etməmələri

Münafiqlərin ən diqqətə çarpan xüsusiyyətlərindən biri Allaha olan imanlarının yalnız dillərində olmasıdır. Hər münafiq imanlı olduğunu, Allahdan qorxduğunu, axirətə və hesab gününə inandığını iddia edir. Ancaq həyat tərzlərinə, ruh hallarına baxıldığında bu iddialarında səmimi olmadıqları aydın olar.

Bu mərhələdə, münafiqlərin qəlbən Allaha iman etmədiklərini anlaya bilmək üçün bu mövzunu aydınlaşdırmaq lazımdır: Bir insanın Allaha iman etməsi nə deməkdir?

İnsanlar Allaha iman etmək dedikdə ümumiyyətlə, başlanğıc olaraq hər şeyi Allahın yaratdığını və sonra da insanı öz "**ağlına**" tərk etdiyini düşünürlər (Allahı tənzih edirik). Halbuki Allaha iman etmək bəzi insanlar tərəfindən

bilinəndən daha çox dərin mövzudur. Allaha imanın gətirdiyi dərinlik vardır. Məsələn, iman edən insan, Allahın böyüklüyünü, sonsuz gücünü, ədalətini və Quranda **"Adların ən gözəli Allahındır"** (Əraf surəsi, 180) ayəsiylə bildirilən bütün üstün sifətlərini təqdir edə bilən insandır. Həmçinin Allaha iman edən insan Onun sonsuz gücünü qavradığı üçün böyük Allah qorxusuna və dərin Allah sevgisinə sahibdir.

Ancaq həqiqi imanı qavramamış kəslərdə yuxarıda ifadə etdiyimiz səhv Allah inancı hakimdir. Necə ki, inkarçıların "**özlərinə xas**" bu axmaq inancları ayələrdə belə bildirilir:

**Əgər sən onlardan: "Göyləri və yeri kim yaratmışdır?" – deyə soruşsan, onlar hökmən: "Allah!" – deyəcəklər. De: "Həmd olsun Allaha!" Lakin onların çoxu bunu bilmir. (Loğman surəsi, 25)**

**Əgər sən onlardan: "Göyləri və yeri kim yaratmışdır?" – deyə soruşsan, onlar mütləq: "Allah!" – deyəcəklər. De: "Bir deyin görək, əgər Allah mənə bir zərər toxundurmaq istəsə, sizin Allahdan başqa ibadət etdikləriniz Onun zərərini aradan qaldıra bilərlərmi? Ya da O mənə bir mərhəmət göstərmək istəsə, onlar Onun mərhəmətinin qarşısını ala bilərlərmi?" De: "Mənə Allah yetər. Təvəkkül edənlər yalnız Ona təvəkkül edirlər!" (Zumər surəsi, 38)**

Yuxarıdakı ayələrdə də görüldüyü kimi insanların bir qismi ümumi olaraq "göyləri və yeri Yaradan"ın Allah olduğunu qəbul edirlər. Lakin Allahı gərəyi kimi təqdir edə bilmirlər Allahın hər an hər şeyi hakimiyyəti altında tutduğunu, gücünün sonsuz olduğunu qavraya bilmirlər.

Məhz münafiqlər də inkarçılardan bir qrup olaraq belə imana sahibdirlər. Ancaq onları digər inkarçılardan ayıran cəhətləri qəlblərinin daha da qatılaşmış olmasıdır. Çünki onlar əvvəl iman etmişlər sonra inkar etmişlər; bundan ötrü Allah onların qəlblərini imana bağlamışdır:

**Bu ona görədir ki, onlar iman gətirdikdən sonra kafir oldular. Sonra da onların qəlbinə möhür vuruldu. Artıq onlar anlamırlar. (Münafiqun surəsi, 3)**

Münafiqlərin Allah qorxusu da yoxdur. Din əxlaqını bilən və möminlərlə bərabər ikən Allahın bütün sifətlərini, böyüklüyünü, gücünü şəxsən zikr etmiş kəslər olaraq, Onun əmrlərini yerinə yetirməmələri də bu laqeydliklərinin açıq dəlilidir.

Məqsədləri mənfəət təmin etmək, fitnə çıxarmaq olduğu üçün və ən əhəmiyyətlisi də Allahdan gərəyi kimi qorxmadıqları üçün ən kiçik çətinlikdə çirkin üzlərini ortaya çıxararlar. Allah münafiqlərin səmimi olaraq iman etmədiklərini ayələriylə möminlərə xəbər vermişdir:

**İnsanlar arasında: "Allaha iman gətirdik!" – deyənlər də vardır. Amma Allah yolunda əziyyətə məruz qaldıqda insanların fitnəsini Allahın əzabı ilə eyni tuturlar. Əgər Rəbbindən bir zəfər gəlmiş olsa, mütləq: "Biz də sizinlə idik!" – deyərlər. Məgər Allah yaradılmışların kökslərində olanları ən yaxşı bilən deyilmi? Allah iman gətirənləri də, münafiqləri də aşkar edəcəkdir. (Ənkəbut surəsi, 10-11)**

## Allah haqqında zənlərə qapılarlar

Münafiqlər Allahın gücünü gərəyi kimi təqdir edə bilmədikləri üçün Allah haqqında yanlış olan bəzi zənlərə də sahibdirlər. Yuxarıda qeyd etdiyimiz kimi xüsusilə bir çətinliklə qarşılaşdıqlarında Uca Rəbbimiz olan Allahı unudar, olan bitənin Ondan müstəqil olaraq reallaşdığını zənn edərlər. Allaha həqiqətən iman edən insanda heç bir şəkildə görülməyəcək təlaşa qapılar; Allahın, çətinliyi onları sınamaq üçün verdiyini düşünməz, dərhal üsyan edərlər.

Necə ki, Quranda Peyğəmbərimiz (s) dövründə Allahın Elçisi ilə döyüşə çıxdıqda, ölüm və ya yaralanmaq təhlükəsi ilə qarşılaşan münafiqlərin, Allah haqqında etdikləri zənlərdən bəhs edilmişdir:

**O zaman onlar sizin həm yuxarı və həm də aşağı tərəfinizdən üstünüzə gəlmişdilər. O vaxt qorxudan gözlər bərəlmiş, qəlblər xirtdəyə çatmış və siz də Allah barəsində zənnə-gümana qapılmışdınız. Orada möminlər imtahana çəkilmiş və güclü sarsıntıya məruz qalmışdılar. O zaman münafiqlər və**

**qəlbində xəstəlik olanlar: "Allah və Onun Elçisi bizə ancaq yalan vədə vermişdir" – deyirdilər. (Əhzab surəsi, 10-12)**

Göründüyü kimi münafiqlər çətinliklə qarşılaşdıqları anda "çox güclü olduğunu iddia etdikləri" imanlarını itirmiş və Allahın böyüklüyünü, gücünü unutmuşlar. Bu da imanlarında heç bir zaman səmimi olmadıqlarını və gerçək mənada kamil imana sahib olmadıqlarını açıq şəkildə göstərir. Çünki Allaha könüldən iman edən insanın, necə mühitdə olursa olsun, hansı çətinliklə qarşılaşırsa qarşılaşsın, Allahın gücünü unutması, bədbəxtliyə qapılması, zənnə düşməsi kimi vəziyyət mümkün deyil. Çünki Allaha səmimi imanla bağlanmış olan insanlar bilirlər ki, Allah hər şeyin Yaradanıdır və qullarını xeyirlə də, şərlə də sınayır.

## Allahı çox az xatırlayarlar

**Kitabdan sənə vəhy olunanları oxuyub namaz qıl. Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir. Allahı yada salmaq isə ibadətlərin ən əzəmətlisidir. Allah nə etdiklərinizi bilir. (Ənkəbut surəsi, 45)**

Yuxarıdakı ayədə də bildirildiyi kimi mömin üçün ən böyük ibadətlərdən biri Allahı xatırlamaqdır. Allaha həqiqətən iman edən insanlar, hər an Onun verdiyi nemətlər içində həyatlarını davam etdirdiklərini bilir və davamlı olaraq Ona şükür edərlər. Ondan gələcək hər xeyirə möhtac olduqlarını, axirətdə Ona hesab verəcəklərini və yalnız Allahın diləməsiylə cənnətə girə biləcəklərini bilirlər. Qəlblərində davamlı Allah olduğu üçün dillərində də O vardır. Hər fürsətdə Allahı anar, qarşılıqsız verdiyi nemətlərdən, kainatda yaratdığı mükəmməl tarazlıqdan bəhs edərlər.

Münafiqlər isə, qəlblərində belə bir imanı yaşamadıqları üçün lazım olduğu qədər Allahın zikrini də edə bilməzlər. Bunun səbəbi, Allaha könüldən təslim olmamaları və Ona qarşı səmimi iman daşımamalarıdır; bu səbəbdən Allahı xatırlamaq içlərindən gəlməz. Çünki Allahı xatırlayarkən, həqiqətdə iman gətirmədikləri, hətta əməl etməklə məsul olub amma əməl etmədikləri bir çox şeyi zikr etmiş olacaqlar. Bu da bəlkə bir az vicdanlarını sıxacağı

üçün, içlərindən gəlməyəcək. Əgər təqlidi olaraq möminlər kimi içdən zikr etməyə çalışsalar da özlərini ələ verəcək və dinləyənlərin qəlbində səmimi təsir yaradamayacaqlar. Bu səbəbdən möminlərin arasında olduqları dövr içində, Allahı çox az və səthi anmalarıyla diqqəti çəkərlər. Necə ki, Allah münafiqlərin içindəki xəstəliyi ələ verən bu çox əhəmiyyətli əlaməti ayələriylə bildirmişdir:

**...Özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər. (Nisa surəsi, 142)**

**Şeytan onları üstələmiş və Allahı zikr etməyi onlara unutdurmuşdur... (Mücadilə surəsi, 19)**

## Allaha şərik qoşarlar

Allahdan müstəqil bəzi güclərin olduğuna, bu güclərin məsələn yaratmada, kainatın rəhbərliyində, hökm vermədə söz sahibi olacaqlarına (Allahı tənzih edirik) inanan kəs "**şirk**" qoşmuş olar. Münafiqlərin də ən əhəmiyyətli xüsusiyyətlərindən biri şirk etmələridir. İnsanların Allahdan müstəqil olduğuna inanan münafiqlər, nə qədər inkar etsələr də əslində açıq şəkildə şirk qoşarlar. Bu xəstəliklərini ortaya çıxaran da, Allahın bir və tək olaraq xatırlanmasından xoşlanmamalarıdır. Allahı gərəyi kimi ucaldaraq da anmazlar. Bu da onların həqiqi üzlərini ortaya çıxaran və Quranda xəbər verilmiş xüsusiyyətlərindən biridir:

**Quranı anlamasınlar deyə, Biz onların qəlbinə örtüklər çəkdik, qulaqlarına da tıxac vurduq. Sən Quranda Rəbbinin Tək Allah olduğunu yada saldığın zaman onlar bu dəvətə nifrət edərək arxalarını çevirib gedərlər. (İsra surəsi, 46)**

**Allah tək olaraq xatırlandığı zaman Axirətə inanmayanların qəlbini nifrət bürüyür. Ondan qeyriləri yad edildiyi zaman isə onlar sevinirlər. (Zumər surəsi, 45)**

# Allahdan deyil, insanlardan qorxarlar

Münafiqlərin dillərindəki iddiaları "**Mən Allahı çox sevirəm, hər etdiyimi Onu razı etmək üçün edirəm**"dir; ancaq, bu sözlərində heç bir zaman səmimi deyillər.

Çünki Allaha səmimi olaraq iman edən biri Ona qarşı yalnız sevgi deyil, eyni zamanda dərin hörmətlə qorxu da duyar. Yəni Allahı ən çox sevən adam, Allahdan ən çox qorxan adamdır eyni zamanda. Çünki Allahı sevmək mövzusunu kitabın əvvəlindən bəri üzərində dayandığımız kimi, Onu, "bütün gözəl adlarını", sonsuz gücü ilə və lazım olduğunda ədalətini təcəlli etdirərək verəcəyi əzabla tanımağı tələb edir. Allahın gücünü gərəyi kimi təqdir edə bilmədikləri, Onun hər etdiklərinə şahid olduğunu qavraya bilmədikləri üçün də Rəbbimizdən qorxmazlar. Əgər bir insan "Mən Allahı sevirəm, amma Ondan qorxmuram" deyərsə və ya feli olaraq belə düşündüyünü hiss etdirəcək hərəkətlər edərsə, o adam tam mənasıyla səmimiyyətsizdir deməkdir.

Necə ki, münafiqlərin həyatlarına baxdığımızda bu ruh halının bütün davranışlarına hakim olduğunu görərik. Münafiq öz ağlına görə "Allahdan qorxduğunu" iddia edir, ancaq hərəkətlərinə baxdığımızda elçiyə və möminlərə zərər verməyə çalışdığını, onların əleyhinə fəaliyyətlər icra etdiyini və onlar haqqında öz ağlına görə böhtanlar atdığını görərik. Buradan da ortaya çıxan, bu adamın Allahdan həqiqətən qorxmadığıdır. Bundan başqa yuxarıda da ifadə etdiyimiz kimi, öz başından azğın din anlayışı uyduran və bu səhv dinin qaydalarına görə yaşamağı özünə məqsəd qoyan münafiqin qorxusu, insanların razılıqlarını qazana bilməməkdir. Necə ki, o, insanların hər birinin müstəqil güc olduğuna inanır. Hamısının ayrı-ayrı razılığını və bəyənməsini qazanmaq məcburiyyətində hiss edir özünü.

Lakin bilmədiyi və qavraya bilmədiyi əhəmiyyətli həqiqət vardır ki, o da, hər insanın yalnız Allahın yaratdığı "**qul**" olduğudur. Hər biri, Allahın istəyi ilə var olan və yenə Allahın diləməsiylə can verən varlıqlardır. Münafiq bu

həqiqəti anlaya bilməz. Daha doğrusu anlamaq istəməz. Çünki onun azğın dininə görə “**insanların razılığını güdmək**” imtina edilməz ibadətdir. Qorxuları da bu meyara əsaslanır.

İnsanlardan qorxmaları və onların rizasını düşünmələri, çətin anlarda da özünü göstərir. Quranda, onlara qarşı birləşən insan birliyini gördükdə qorxub qaçan münafiqlərdən bəhs edilir. Məsələn, Peyğəmbərimiz (s) dövründə əvvəlcə döyüşə mütləq qatılacaqlarına dair vədlər verən bu kəslərin döyüş əmri gəldiyi zaman insanlara qarşı qorxuları imanlarını zəiflətmişdir:

**Məgər sən, özlərinə: “Müharibədən əl çəkin, namaz qılın və zəkat verin!” – deyilən kəsləri görmədinmi? Onlara vuruşmaq vacib edildikdə, içərilərindən bir dəstəsi Allahdan qorxduqları kimi və ya daha artıq qorxu ilə insanlardan qorxdular və: “Ey Rəbbimiz! Vuruşmağı nə üçün bizə vacib etdin? Nə olardı ki, bizə yaxın vaxtadək möhlət verəydin!” – dedilər. De: “Dünyanın ləzzəti azdır. Müttəqilər üçün isə axirət daha xeyirlidir. Sizə xurma çərdəyindəki lif qədər belə haqsızlıq edilməz”. (Nisa surəsi, 77)**

## Allahın dininə xəyanət edərlər

Allahdan qorxmayan və fərqli din anlayışına sahib olan münafiqlər, dolayısilə Allahın dininə bağlılıq da göstərməzlər. Allahın elçisinə, möminlərə və onların Quran əxlaqını yaşamaq məsələsində həmişə xəyanət edirlər. Necə ki, bu xəyanətləri Quranda belə bildirilir:

**İsrail oğulları verdikləri əhdi pozduqlarına görə Biz onları lənətlədik və qəlblərini sərtləşdirdik. Onlar Kitabda olan kəlmələrin yerlərini dəyişdirirlər. Onlar özlərinə öyrədilmiş şeylərin bir hissəsini unutdular. İçərilərindən az bir qismi istisna olmaqla, sən onlardan daim xəyanət görəcəksən... (Maidə surəsi, 13)**

Özünün “saxtakar” olduğunu bilən, Allahı, Peyğəmbərini və möminləri aldatmağa çalışan münafiq həmişə “xəyanət” ruhu ilə yaşayar. Hər

xəyanətindən sonra bir başqasını da edər, çünki münafiq öz xainliyinin fərqindədir. Möminlərdən özünü gizləsə belə öz özündən gizlənə bilməz. Və öz günahına şəxsən özü şahid olduğu üçün də azğınlığı gedərək artar. Əvvəl Allahın elçisi haqqında pis söz deyər, bundan rahatlıq hiss edər. Daha sonra elçiyə böhtan atar, bu da xoşuna gələr. Çünki həqiqi dostu olan şeytanın yolunda irəliləyir. Sonra elçiyə tələ qurar... Günahı getdikcə artar. Lakin bu vaxt Allaha, elçisinə və möminlərə qarşı etdiyi xəyanətin ona heç bir şey qazandırmayacağından, əksinə onu cəhənnəmə aparacağından xəbərdar deyil. Buna əsaslanaraq rahatlıqla xainlik edər. Halbuki dünyada qarşılaşacağı bəlalar yanında, onu cəhənnəmdə də acı əzab gözləyir. Allah münafiqlərin sonunu bir ayədə belə xəbər verir:

**Allah münafiq kişilərə, münafiq qadınlara və kafirlərə içərisində əbədi qalacaqları Cəhənnəm odu vəd etmişdir. Bu onlara kifayət edər! Allah onlara lənət etmişdir. Onlar üçün daimi bir əzab vardır. (Tövbə surəsi, 68)**

## Dəlil olmadan Allah haqqında mübahisə edərlər

**İnsanlar içərisində eləsi də vardır ki, heç bir biliyi, doğru yol göstəricisi və nur saçan bir kitabı olmadan Allah haqqında mübahisə edir. (Həcc surəsi, 8)**

Münafiqlərin məqsədləri insanları Allahdan, Onun dinindən uzaqlaşdırmaq, dünyada din əxlaqının yaşanmasına mane olmaqdır. Buna görə də Allahı tanımayan, ya da səthi olaraq iman edən bəzi insanların başlarını qarışdıracaq, Allah haqqında zənnə düşəcək və insanları da bu zənlərə istiqamətləndirəcək şəkildə Allah haqqında mübahisə edərlər. Şübhəsiz bu, onların düşünə bilməmələri səbəbi ilədir. Bu çirkin rəftarlarının qarşılığını həm dünyada, həm də axirətdə qat-qat alacaqlar. Davamlı olaraq fitnə çıxarmağa meylli formaları olduğu üçün, öz ağılları ilə insanların Allaha olan hörmətlərini, qorxularını yox etməyə istiqamətli fəaliyyətlər edərlər. Və bu əxlaqsız fəaliyyətlərini də hiyləgərcə davam etdirərlər. Şeytanın yoluna

bənzər üsul izləyərək insanların şüuraltına xitab etməyə, ağıllarını qarışdırmağa istiqamətli danışarlar.

Ancaq bu mövzuda, yalnız özləri kimi münafiq olanlara təsir etməkdən başqa bir nəticə əldə edə bilməzlər. Allahın yolundan azdırmaq üçün göstərdikləri fəaliyyətin necə öz əleyhinə dönəcəyini Allah belə bildirir:

**O, başını təkəbbürlə o yan bu yana çevirir ki, insanları Allahın yolundan sapdırsın. O bu dünyada rüsvay olacaq, Qiyamət günü isə Biz ona Cəhənnəm məşəqqətini nəsib edəcəyik. (Həcc surəsi, 9)**

## Allahın bəyənmədiyi əxlaq modelini yaxşı görərlər

Münafiqlərin indiyə qədər bəhs etdiyimiz bütün xüsusiyyətlərindən anladığımız kimi, Allahın bəyənmədiyi hər cür rəftarı üzərində daşıyırlar. Lakin mövcud vəziyyətin ciddi olmasından xəbərsiz olaraq, bir də Allahın seçib bəyəndiyi din olan İslam və onun hökmləri haqqında mənfi və azğın düşüncələr qarşıya qoyarlar. Öz yanlış məntiqləri ilə də öz düşüncələrini yaxşı, haqq olanı isə çirkin görərlər. Münafiqlərin bu vəziyyətləri Quranda, **"Biz sizə haqqı təqdim etdik, lakin çoxunuz haqqı xoşlamırdı."** (Zuxruf surəsi, 78) ayəsi ilə bildirilmişdir.

Quranda xəbər verildiyi kimi, "**hidayətə qarşı azğınlığı satın almış**" olan bu ikiüzlü insanlar, Allahın endirdiyini tanımayan və haqqı çirkin görən formadadırlar. Allahın Quranla inananlara əmr etdiyi gözəl əxlaq, onlar üçün əsla tətbiq olunması mümkün olmayan modeldir. Çünki öz içləri kinlə, nifrətlə, pisliklə dolu olduğu üçün digər insanların da özləri ilə eyni quruluşda olduqlarını, buna görə də belə bir modeli tətbiq etməyəcəklərini düşünürlər.

Şübhəsiz bu düşüncələri, özləri və özləri ilə eyni quruluşda olan digər inkarçılar üçün həqiqətən də keçərlidir. Gözəl əxlaq ancaq Allahdan qorxmaqla və Onun əmrlərinə qəti olaraq boyun əyməklə yaşanar. Çünki bir insanın gözəl əxlaqa sahib olması və bunu davam etdirə bilməsi, axirətə, hesab və cəza gününə olan imanla mümkün ola bilər. Axirət günü hesab

verəcəyini unutmuş bir insanın səbir göstərməsi, insanlara fədakar olması üçün heç bir səbəb yoxdur. Ancaq öz mənfəəti olsa bu tərz bir gözəllik göstərmə ehtiyacı duyar. Əks halda din əxlaqından uzaq yaşayan bir insanın səhv məntiqinə görə, onsuz da yox olub gedəcəyini sandığı dünyada, ölümlü insanlara gözəl xasiyyət göstərmənin mənası yoxdur.

Münafiqin ona mənfəət təmin etmək üçün göstərdiyi rəftarlarının dünyada da, axirətdə də qarşılığı yoxdur. Allahın bütün əmrlərini göz ardı edən adamın bütün etdikləri boşa çıxacaq və Allah bunu bizə Quranda belə bildirir:

**Bu ona görədir ki, onlar Allahın qəzəbinə səbəb olan şeyə uydular və Onun razı qaldığı şeyə nifrət etdilər. Buna görə də Allah onların əməllərini boşa çıxartdı. (Məhəmməd surəsi, 28)**

# QURAN-KƏRİMƏ QARŞI RƏFTARLARI

Bu mövzunu gərəyi kimi anlaya bilmək üçün, əvvəlcə bir inkarçının Qurana olan fikirlərini qısaca araşdırmaqda fayda vardır.

İnkarçıların ən əhəmiyyətli xüsusiyyətlərindən biri, Allahın dini yerinə özlərinə din olaraq "**atalarının dini**"ni seçmiş olmalarıdır. Bu batil dinə görə, əsli olmayan qulaqdan-qulağa gələn inanclara əməl etmək "**ibadət**" sayılır. Bu saxta ibadətlərə uyaraq da, özlərini olduqca "**yaxşı**" sayarlar. Bu kimi insanlar, Quranı və sünnəni heç bir şəkildə ölçü almazlar. Bu batil "**cahillik**" dinində ölçü, cəmiyyətin müəyyən etdiyi batil inanclara əsaslanan bəzi adətlərdir. Bu batil dində "**yaxşılıq**", çox nadir, heç bir səy sərf etmədən edilən kiçik işlərdir. Bunlara "**xeyir**" adını verirlər, özlərinə də "**xeyriyyəçi**".

Məsələn, yolda gedərkən qarşılarına çıxan dilənçiyə ciblərindəki xırda pullardan vermək, ya da özlərinin heç bir şəkildə geyinməyəcəkləri qədər köhnəlmiş paltarları yoxsula vermək onlara görə "**yaxşılıq**"dır. Halbuki yaxşılığın əsl tərifi Qurandadır:

**Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl sahibləri Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə sərf edən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə döyüşdə səbir edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da elə məhz onlardır. (Bəqərə surəsi, 177)**

Bu kəslərə Qurandakı meyarlar izah edildiyində isə, azğın inanclarını tərk etməmək üçün dirəndikləri görünür:

**Onlara: "Allahın nazil etdiyinə və göndərdiyi Elçiyə tərəf gəlin" - deyildikdə: "Atalarımızın tutduğu yol bizə bəsdir" - deyirlər. Əgər ataları bir**

**şey bilməyib, doğru yola yönəlməyiblərsə onda necə olsun? (Maidə surəsi, 104)**

**Onlar yaramaz əməl etdikləri zaman: "Atalarımızı belə gördük. Allah da bizə bunu əmr etmişdir" - deyirlər. De: "Allah yaramaz əməlləri əmr etməz. Yoxsa Allaha qarşı bilmədiyinizi danışırsınız?" (Əraf surəsi, 28)**

Alışdıqları batil dini əsla buraxmaq istəməzlər. Bu səbəblə, öz zəif ağıllarına görə Allahın ayələrində qüsur axtararlar və insanları Onun yolundan döndərməyə çalışarlar:

**O kəslərə ki, insanları Allah yolundan sapdırır, onu əyri göstərməyə çalışır və Axirəti inkar edirlər. (Hud surəsi, 19)**

Münafiq Quranı, inkarçı kimi açıq şəkildə inkar etməz; ona həqiqi mənada inanmadığını və təslim olmadığını hiss etdirməz, əksinə gizlədə bildiyi qədər gizlədər. İnkarçı Qurandakı ibadətlərə əməl etməz, halbuki münafiqin kənardan baxdıqda bir çox ibadəti yerinə yetirdiyi görünür.

Lakin münafiq ayələrə tabe olmur. Nəfsinin çətinlik çəkdiyi yerlərdə ayələrə qarşı tamamilə laqeyd qalar. Həmçinin, o, ibadətlərin yalnız "**şəkli**" olanlarını tətbiq edir. Halbuki şəkil ibadətlərlə yanaşı, tətbiqi lazım olan daha bir çox ibadət vardır; Allaha və Onun elçisinə tam təslim olmaq, elçinin hökmünə qəlbən razılıq göstərmək kimi... Bunlarla yanaşı, gözəl əxlaqa dair Allahın əmrlərini də "**nəfsinə tərs düşdüyü üçün**" görməzlikdən gəlir; nəfsini müdafiə etmək, insanları alçaltmaq, özünü üstün görmək kimi...

Allahın Quranı insanlara göndərməsində bir çox hikmət vardır. Din gününə qarşı xəbərdar edib qorxutmaq, insanlara doğru yolu göstərmək bunlardan bəziləridir. Ancaq insanların yalnız az bir hissəsi Qurana inanır və ona uyğun şəkildə yaşayırlar; bunlar da möminlərdir.

Möminlər Quranın hökmlərinə qarşı son dərəcə hörmətli və təslimdirlər. Bu hörmətləri də, Allaha olan dərin hörmətlərindən qaynaqlanır. Quran hər oxunduğu zaman hörmətlə susub qulaq asar və ayələrin hamısı üzərində düşünərlər. Quran onların imanlarını artırır, qəlblərinə hüzur və sükunət verir. Allah bir ayədə möminləri belə tərif edir:

**Möminlər ancaq o kəslərdir ki, Allah anıldığı zaman onların qəlbi qorxuya düşər, Onun ayələri onlara oxunduqda imanları artar, yalnız öz Rəbbinə təvəkkül edər. (Ənfal surəsi, 2)**

Münafiqlərin Qurana qarşı rəftarları isə son dərəcə riyakardır. Quranın içindəki ayələrin bəzilərinə tabe olub, bəzilərinə tabe olmazlar. Meyarları nəfsləridir. Mallardan infaq etmək, ya da qardaşının nəfsini öz nəfsindən üstün görmək kimi onlara ağır gələn müddəalardan rahatca üz çevirirlər. Fərz olan bir çox hökmün tətbiq etməkdə zəif davranarlar, bəzilərini isə əgər kimsə görmürsə heç yerinə yetirməzlər.

Yuxarıdakı ayədə də bildirildiyi kimi Quranı oxuyan möminlərin imanları artarkən, münafiqlərin küfrləri artar. Bu əslində Allahın böyük möcüzəsidir. Çünki eyni ayələri oxumalarına baxmayaraq ortaya tam fərqli iki ruh halı çıxır; mömin ayələrdəki hikmətləri görərkən, münafiq onları heç bir şəkildə qavraya bilmir. Hətta bu qavramamağı bəlkə də dərk edə bilmir və Quranı çox yaxşı anladığını zənn edir.

Bu möcüzənin necə reallaşdığı Quranda belə açıqlanar:

**Sən Quran oxuduğun zaman səninlə Axirətə inanmayanların arasına gözəgörünməz pərdə çəkdik. Quranı anlamasınlar deyə, Biz onların qəlbinə örtüklər çəkdik, qulaqlarına da tıxac vurduq. Sən Quranda Rəbbinin Tək Allah olduğunu yada saldığın zaman onlar bu dəvətə nifrət edərək arxalarını çevirib gedərlər. (İsra surəsi, 45-46)**

## Quranı açıq şəkildə inkar etməzlər

Münafiqlərin özlərinə xas son dərəcə qəribə və səhv məntiqləri vardır, eynilə şeytanın son dərəcə əsrarəngiz və azğın məntiqə sahib olması kimi.

Münafiqlərdə təcəlli edən bu "**şeytani məntiq**", özünü istisnasız hər mövzuda göstərir. Qurana qarşı baxış aspektlərində də bu məntiq işləməyə davam edər: Quranı tam mənasıyla inkar etməzlər, lakin ona həqiqi mənada

inancları da yoxdur. Bu da olduqca səhv davranışdır, çünki ağıl və vicdan sahibi hər insan Allahın kitabına uymalı olduğunu bilir. Ayələrin bəzisini tətbiq edib, bəzisini tətbiq etməkdə zəif davranmaq, heç şübhəsiz təəccüblə qarşılanacaq əxlaqdır. Vicdani mühakimələri onlara Quranı tətbiq etmələri lazım olduğunu söyləyərkən, nəfsləri Qurana qarşı təkəbbürlənməyi daha cəlbedici göstərir. Ayələri "**çox yaxşı**" bildikləri halda, inanmamaq üçün bəhanələr qarşıya qoymaları nəfslərinə uymalarının nəticəsidir. Necə ki, necə təkəbbür ilə inkar etdikləri Quranda belə bildirilir:

**Buna qəti inandıqları halda, haqsızcasına və təşəxxüslə onları inkar etdilər. Gör fəsad törədənlərin aqibəti necə oldu! (Nəml surəsi, 14)**

Münafiqlər Allahın ayələrinə qarşı zəiflik göstərdiklərini də açıq şəkildə müəyyən edə bilməzlər; bundan çəkinərlər. Bu günahlarını öz içlərində saxlayarlar və ya özləri ilə eyni məntiqdə olan kəslərin yanında açığa çıxara bilərlər. Onların bu yanlış məntiqlərini Allah Quranda belə xəbər vermişdir:

**Bir surə nazil edildiyi zaman onlar: "Sizi kimsə görürmü?" - deyə bir-birlərinə baxır, sonra da üz çevirib gedirlər. Anlamayan adamlar olduqlarına görə Allah onların qəlbini imandan məhrum etmişdir. (Tövbə surəsi, 127)**

## Quranı yanlış şərh edərlər

Münafiqlərin ən əhəmiyyətli xüsusiyyəti, daha əvvəl də təsvir etdiyimiz kimi fitnə və nifaq çıxarmağa çalışmalarıdır. Bu məqsədlərini reallaşdırmaq üçün də çox müxtəlif yollar mənimsəmişlər. Məsələn, elçiyə qarşı hörmətə uyğun olmayan hərəkət edərək ağılsızlıqları ilə möminlərə çətinlik verməyə, yalan xəbər yayaraq möminlər arasında ixtilaf çıxarmağa çalışırlar. Lakin bütün bu səylərinin yanında çox əhəmiyyətli fitnə çıxarma metodları vardır ki, Allah bunu möminlərə böyük təhlükə olaraq xəbər vermişdir:

**Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi mənası aydın ayələrdir ki, bunlar da Kitabın anasıdır. Digərləri isə mənası aydın olmayan ayələrdir. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər. Onun yozumunu isə Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə deyərlər: "Biz onlara iman gətirdik, hamısı bizim Rəbbimizdəndir". Bunu isə ancaq ağıl sahibləri dərk edərlər. (Ali İmran surəsi, 7)**

Ayədə bildirildiyi kimi münafiqlər Allahın ayələri ilə əlaqədar uydurma izahlar edərlər və bunun sayəsində insanları aldatmağı, Allah haqqında səhv fikirlər yaratmağı planlayırlar. Necə ki, Allah ayələrini endirərkən, bəzilərinin inkarçılar tərəfindən qavranmayacağını möminlərə bildirmişdir. Bu səbəbdən münafiqlərin etdikləri səhv izahların möminlər üzərində heç bir təsiri olmayacaq.

Münafiqlərin bu hiyləgər rəftarlarına qarşılıq möminlər ayədə ifadə edildiyi kimi Allahın kitabına tam olaraq təslim olmalıdırlar. Belə bir vəziyyətdə münafiqlərin hər hansı bir şəkildə möminlərə zərər verməsi də mümkün olmaz. Çünki möminlər Allahın ayələrinə qarşı son dərəcə həssas və Uca Allahın onlara verdiyi anlayış sayəsində də "**qəlbində xəstəlik olanlara**" qarşı son dərəcə ayıqdırlar. Münafiqlər yalnız zənn edərək, səhv, məntiqsiz şərhlər etmələrinə qarşılıq axirətdə söylədikləri hər sözün tək-tək hesabını verəcəklər və qurduqları bütün tələlərin öz başlarına keçdiyinə şəxsən şahid olacaqlar.

# ALLAHIN DİNİNƏ BAXIŞ ASPEKTLƏRİ

Münafiqlər qəribə məntiqə sahibdirlər. Quranı bilib öyrənmiş olmalarına baxmayaraq, din əxlaqına və axirətə qarşı düşüncələri Quran məntiqinin tamamilə əksidir. Din əxlaqı onlar üçün heç bir zaman birinci plandakı mövzu deyil. Bu həqiqətən də çox yanlış vəziyyətdir. Çünki münafiqlər dinsizlərdən də fərqlidir; dinə qarşı dinsizlər kimi laqeyddirlər, ancaq buna baxmayaraq dindən və möminlərdən də heç cür uzaqlaşa bilməzlər. Bu azğın qrupun mənsubları Quranda **"Arada tərəddüd edib durarlar. Nə onlarla, nə bunlarla"** (Nisa surəsi, 143) şəklində təsvir olunmuşdur:

**Onlar möminlərlə rastlaşdıqda: "Biz iman gətirdik!" – deyirlər, öz şeytanları (azmış dostları) ilə təklikdə qaldıqda isə: "Biz sizinləyik. Biz möminlərə ancaq istehza edirik!" – deyirlər. (Bəqərə surəsi, 14)**

Münafiqlərin əsaslandıqları təməl Allahın rizasından uzaqdır. Ayələri oxumalarına baxmayaraq, dinə qarşı laqeyddirlər və din əxlaqından da uzaqdırlar. Dərin şəkildə qavrama və anlayış qabiliyyətləri olmadığından, möminlərin düşdükləri vəziyyəti də, öz vəziyyətlərini də analiz edə bilməzlər. Allah üçün yaşamağı bilməyən, əsaslandıqları heç bir təməl olmadan Allaha qarşı savaş açmış kəslərdir. Bu səbəblə, səmimi olaraq iman etmiş sayılmırlar. Ən kiçik çətinlikdə sarsılar, Allahın dininə qarşı sədaqətlərinin olmadığını açıq şəkildə gözlər önünə sərərlər. Çətin bir anda dərhal inkarçılarla əməkdaşlıq edərlər. İbadətlər və Quran hökmləri mövzusundakı laqeydlikləri də bu pis xüsusiyyətlərinə dəlil təşkil edir.

Dinə qarşı zəif olmalarına dair bir çox əlamət vardır. Məsələn, münafiqlər, Allahı çox az xatırlayarlar. Bu da onların imanda və din əxlaqını yaşamaqda nə dərəcə zəif olduqlarını göstərən əhəmiyyətli dəlildir. Yenə Quran ayələrindən onların namaza qarşı istəksizliyi, infaqı göstəriş vasitəsi olaraq istifadə etdiklərini anlayırıq. Yalnız möminlərə qarşı nümayiş olsun deyə etdikləri bu ibadətlərə yalnız qaldıqlarında etməmələri də digər çirkin xüsusiyyətləridir. Doğrusu, yalnız öz mənfəətləri və insanlara

göstərişlərindən söhbət getdikdə etdikləri ibadətləri, tək başına qaldıqlarında tətbiq etmələri gözlənilməzdir. Bu, onlarda hakim olan yanlış məntiqə uyğun gəlmir, din mövzusundakı fikirləri ilə təzad təşkil edir. Münafiqlərin tanıdıldığı ayələrdən bəziləri belədir:

**Münafiqlər, həqiqətən də, Allahı aldatmağa çalışırlar. Halbuki Allah onları aldadır. Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər. (Nisa surəsi, 142)**

**Vay halına namaz qılanların – o şəxslərin ki, onlar namazlarında səhlənkardırlar. Onlar riyakardırlar. (Maun surəsi, 4-6)**

**Və o kəsləri ki, öz mallarını insanlara göstərmək məqsədilə xərcləyir, Allaha və Axirət gününə inanmırlar. Kimin yoldaşı şeytandırsa, necə də pis yoldaşdır o! (Nisa surəsi, 38)**

Münafiqlər ibadətdə istəksizdirlər. Qərarlı olduqları yeganə mövzu, insanların razılığını qazanmaqdır. İnsanların bəyənməsi, tərifi, məmnuniyyəti onlar üçün dünyada görə biləcəkləri ən böyük qarşılıqdır. Etdiklərinin hamısını, bu tərifi qazanmaq üçün edərlər. Bu səbəbdən, möminlərlə birlikdə olduqları müddət ərzində etdikləri yalandan ibarətdir. Öz səhvlərinin fərqində deyildirlər, üstəlik öz ağıllarına görə Allahı, Peyğəmbərini və digər möminləri də aldatdıqlarını zənn edərlər. Halbuki yalnız özlərini aldadırlar. Hərəkətlərində heç bir zaman ixlaslı olmadıqları üçün də axirətdəki mükafatdan məhrum buraxılarlar.

## Haqqı müdafiə etməzlər

Münafiqlər möminlərlə birlikdə olduqları müddət ərzində, özlərini müəyyən etməmək üçün möminləri təqlid edərək rol göstərərlər. Onların etdikləri ibadətlərin təqlidini etməyə çalışarlar, lakin onlara ağır gələnlərə əsla yanaşmazlar. Məsələn, insanları gözəl əxlaqa çağırmaq və haqqı tövsiyə

etmək, nəfslərinə çox ağır gələn işdir. Bunun səbəbi, özlərinin tətbiq etmədiyi bu sistemi, başqalarının da tətbiqini istəməmələridir. Bu səbəblə haqqı müdafiə etməkdən diqqətlə çəkinərlər.

Onsuz da ortada ziddiyyətli vəziyyət vardır; Allahı yad etməkdən qaçan, dinə və möminlərə qarşı gizli nifrət bəsləyən bir insanın, Quranın hökmlərini və Allah üçün yaşamağın əhəmiyyətini izah edə bilməyəcəyi açıqdır. Gözəl əxlaqı yaşamadıqları üçün təbii olaraq qarşılarındakı insanlara da izah edə bilməzlər. Onsuz da buna istəkli də deyildirlər.

Həmçinin Allahın Quranda əhəmiyyətli ibadət olaraq əmr etdiyi "təbliğ" əsla yerinə yetirə bilməyəcəkləri ibadətdir. "Yaxşılığı tövsiyə edib, pisliyin qarşısını almağa çalışmaq", Qurana uyğun xəbərdarlıqlar etmək, münafiqlərin tətbiq edə bilmədiyi ibadətlərdəndir. Çünki əsas məqsədləri insanların rəğbətini qazanmaq olduğu üçün heç kimlə münasibəti pozmaq istəməzlər və gördükləri səhvlərə müdaxilə etməzlər.

## Mübarizədən geri qalmaq üçün bəhanələr irəli sürərlər

Münafiqlərin möminlərin arasında olduqları müddət ərzində əsas hədəflərinin öz mənfəətləri olduğundan bəhs etmişdik. Öz mənfəətləri ilə ən çox zidd düşən mövzu da şübhəsiz, Quranda möminlər üzərinə fərz olaraq yazılmış olan mübarizə dövrləridir. Mənfəət məqsədi istiqamətində ona fayda gətirməyəcəyini düşündüyü və qəlbən inanmadığı məqsəd üçün mübarizə etmənin məntiqi yoxdur. Üstəlik qavraya bilməmə xüsusiyyətlərinin nəticəsi olaraq bu mübarizəni, uğrunda canının, malının veriləcəyi, ancaq qarşılığının axirətdə alınacağı qazanc olaraq düşünməzlər. Allah üçün fədakarlıq etmək, çətinliklərə dözmək kimi üstün əxlaqi xüsusiyyətləri qavraya bilməzlər. Peyğəmbərimiz (s) dövründə döyüş əmri gələn kimi qaçmağa başlayan münafiqlər, günahlarını ört-basdır edə bilmək üçün müxtəlif yalan və bəhanələrə üz tutmuşlar. Bu vəziyyəti xəbər verən ayələrdən bəzilərində belə buyurulur:

**...Onlara: “Gəlin, Allah yolunda döyüşün, yaxud heç olmasa müdafiədə durun!” – deyildi. Onlar: “Döyüş olacağını bilsəydik sizin ardınızca gedərdik” – dedilər... (Ali İmran surəsi, 167)**

**Əgər səfəriniz gəlir gətirən və yüngül bir yürüş olsaydı, onlar mütləq sənin ardınca gedərdilər. Lakin əziyyətli yol onlara çətin gəldi. Onlar: “Əgər taqətimiz olsaydı, biz də sizinlə bərabər çıxardıq!” – deyə Allaha and içəcəklər. Onlar özlərini həlak edirlər. Çünki Allah onların yalançı olduqlarını bilir. (Tövbə surəsi, 42)**

**Döyüşə getməyib arxada qalanlar Allahın Elçisinin əleyhinə çıxaraq evdə qalmalarına sevindilər. Onlar Allah yolunda öz malları və canları ilə cihad etmək istəmədilər və: “Bu istidə döyüşə çıxmayın!” – dedilər. De: “Cəhənnəm odu bundan da hərarətlidir!” Kaş anlayaydılar. (Tövbə surəsi, 81)**

**“Allaha iman gətirin və Onun Elçisi ilə birlikdə cihad edin!” – deyə bir surə nazil edildikdə onların var-dövlətə malik olanları səndən icazə istəyib dedilər: “Bizi burax evdə oturanlarla birlikdə qalaq!”. (Tövbə surəsi, 86)**

**Onlardan bir dəstə demişdi: “Ey Yəsrib əhli! Siz müqavimət göstərə bilməyəcəksiniz. Geri qayıdın!” İçərilərindən bir qismi isə: “Evlərimiz nəzarətsiz qalıb” – deyərək Peyğəmbərdən izin istəyirdi. Halbuki evləri nəzarətsiz deyildi. Onlar sadəcə olaraq qaçmaq istəyirdilər. (Əhzab surəsi, 13)**

Mübarizə zamanında ortaya qoyulan bu rəftar, münafiqin səhv məntiqinin əhəmiyyətli dəlilidir. O günə qədər təqlid etdiyi mömin rolunu tərk edib, həqiqi xarakterini ortaya çıxarar. Ancaq əlbəttə mübarizə dövründən əvvəl də özlərini ələ verən bəzi dəlillər vardır.

Mübarizə üçün hazırlıqlarının olmaması da bu xüsusiyyətlərinin əhəmiyyətli dəlilidir. Belə bir məqsədləri olmadığı üçün bu istiqamətdə hazırlıq etməyi lazımlı görməzlər. Bu vəziyyət, eyni zamanda, onların planlı hərəkətlərinin də dəlilidir. Bilərəkdən ibadətləri yerinə yetirmir və gələcək

üçün möminlərlə əlaqəli hazırlıq görmürlər. Tövbə surəsində Peyğəmbərimiz (s) dövründə döyüşdən qaçan münafiqlərin vəziyyəti belə bildirilir:

**Əgər onlar döyüşə çıxmaq istəsəydilər, mütləq ona hazırlıq görərdilər. Lakin Allah onların döyüşə getməsini istəmədi və onları saxladı. Onlara: "Evdə oturanlarla bərabər, siz də oturun!" – deyildi. (Tövbə surəsi, 46)**

## Möminlərə baxış aspektləri

Münafiqlər Allahın dininə savaş açmış olan insanlardır. Uca Rəbbimiz Allahın elçisinə qarşı çıxar, ayələri dinləməyə dözə bilməzlər. Bu səbəbdən, möminlərə qarşı yaxınlıq duymaları da gözlənilə bilməz. Qarşı olduqları dinin tələblərinin bir birlik tərəfindən tətbiq olunması, bu birliyin Allahın ayələrini oxuyan və tətbiq edən olmaları, onlara qarşı kin və nifrət duymaları üçün yetərli səbəblərdir.

Münafiqlər özlərini əlbəttə gizlədəcəklər. Gizlədə bilmək üçün də möminlər arasında rol oynayacaqlar, qəlblərində olana baxmayaraq, mömin olduqlarını söyləyəcəklər. Bu səbəblə, qəlblərində möminlərə qarşı meydana çıxan nifrəti geniş şəkildə anlaya bilmək ilk baxışda mümkün olmaya bilər. Ancaq bu qəzəbin bəzi əlamətləri şübhəsiz ortaya çıxacaq. Bu əlamətlər bizlərə Quran ayələri ilə xəbər verilir.

## Möminlərə qəlblərində kin və nifrət bəsləyərlər

**...Düşmənçilikləri onların ağızlarından çıxan sözlərdən bəllidir. Köksləində gizlətdikləri düşmənçilik isə daha böyükdür... (Ali İmran surəsi, 118)**

Möminlərin Qurana olan qəti bağlılıqları, Qurandan aldıqları gözəl əxlaqları əhəmiyyətli sevgi və hörmət ünsürü olmasına baxmayaraq, münafiqlər üçün bunun tam tərsi reallaşar. Gözəl əxlaqa dair hər şey, kin və nifrətlərini daha da artırır. Çünki din mövzusunda da, əxlaq mövzusunda da degenerasiya gözləntiləri vardır. Din əxlaqının gözəl gördüyü şeylərdən uzaqlaşmaq və bunun tam tərsini tətbiq etmək istəyərlər. Allahın xatırlanması, ayələrin xatırladılması, möminlərin güclənməsi və gözəlləşməsi, qarşı olduqları bu sistemin gün keçdikcə inkişafı mənasına gəldiyindən, qəlblərindəki nifrəti artırır.

Bu nifrəti müxtəlif şəkillərdə göstərirlər. Müxtəlif əziyyət metodları, möminlərin əleyhinə qurduqları planlar və elçini hədəf olaraq görmələri, qəlblərindəki kinin nəticəsidir. Ancaq şübhəsiz ayədə də bildirildiyi kimi, qəlblərində gizli tutduqları, ortaya çıxan bu nifrətdən daha böyükdür. Amma bu nifrətləri ilə möminlərə hər hansı zərər verə bilmələri qətiyyən mümkün deyil.

## Əsl hədəfləri elçidir

İçlərindəki kinin əsl səbəbi, möminlərin Allaha və elçisinə qeyd-şərtsiz itaət etməsi, davamlı Allahı xatırlayıb və Quranla xatırladıb, öyüd-nəsihət verməléridir. Ölümün yaxınlığı, axirətin həqiqəti, qurtuluşun Allaha və Onun elçisinə itaət olduğu kimi onlara çox ağır gələn mövzuları möminlərdən eşitdikcə, onlara qarşı nifrətləri və qisas alma arzuları daha da çoxalır. İtaət anlayışını qəbul edə bilməzlər, çünki Allahın elçisini təqdir etmir və şahid olduqları üstünlüklər qarşısında kinləri daha da artır. Bu səbəblə əsl hədəfləri elçidir. Bu səbəbdən mübarizələri də birbaşa elçiyə istiqamətli olur. Quranda münafiqlərin Peyğəmbərimiz (s) ilə mübarizəyə girməyə çalışdıqları xəbər verilir.

**Əgər səninlə mübahisə etsələr, de: “Allah sizin nə etdiyinizi daha yaxşı bilir”. (Həcc surəsi, 68)**

Tarix boyunca gələn bütün elçilərə qarşı mübarizə edən münafiqlərin bu istiqamətdəki bütün səyləri həmişə nəticəsiz qalmışdır. Hər dövrdə gələn elçiyə qarşı edilmiş bu cəhdlərin nəticəsiz qalması, münafiqlərin ümidsizliyə düşüb gücsüzləşməsinə, elçinin və möminlərin daha da güclənmələrinə vəsilə olmuşdur.

## Möminləri aldatmağa çalışırlar

Bu kəsləri "münafiq" edən ən diqqətə çarpan xüsusiyyətlərinin, həqiqətən iman etmədikləri halda özlərini imanlı göstərməyə çalışmaları olduğunu ifadə etmişdik. Yalnız özləri kimi gördükləri şəxslərin yanında həqiqi yönlərini büruzə verən bu insanlar, möminlərin yanında yalnız rola girərlər. Lakin Quranda, münafiqlərin möminləri aldatmağa çalışarkən, əslində özlərini aldatdıqlarından belə bəhs edilir:

**Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki yalnız özlərini aldadır və bunu anlamırlar. (Bəqərə surəsi, 9)**

Quranda peyğəmbərlərin və elçilərin dövrlərində yaşamış olan münafiqlərin "iman etdik" demələrinə baxmayaraq, əslində, həqiqətən iman etmədiklərindən bəhs edilərkən, bütün möminləri onlara qarşı daim ayıq olmağa sövq etmişdir:

**Ey Elçi! Qəlbləri iman gətirmədiyi halda ağızları ilə: "İman gətirdik!" – deyən kimsələrdən küfrə can atanlar qoy səni kədərləndirməsin. Həm yəhudilərdən yalana həvəslə qulaq asanlar, həm də sənin yanına gəlməyən başqa bir camaata həvəslə qulaq asanlar vardır. Onlar haqqı dərk etdikdən sonra kəlmələrin yerlərini dəyişdirib deyirlər: "Əgər sizə bu dəyişdirilən hökm verilsə, onu götürün. Yox əgər o verilməsə, çəkinin!" Allah kimi fitnəyə salmaq istərsə, sən ondan ötrü heç bir şeylə Allaha mane ola bilməzsən. Onlar o kəslərdir ki, Allah onların qəlbini təmizləmək istəməmişdir. Onlar dünyada rüsvay, axirətdə isə böyük bir əzaba düçar olacaqlar. (Maidə surəsi, 41)**

Münafiqlərin bu xüsusiyyətləri əsrlər boyu dəyişməmişdir. Quranda, tarix boyunca inandıqlarını iddia edərək ortaya çıxan bu kəslərin varlığından bəhs edilir. Münafiqlər hər dövrdə eyni xüsusiyyətləri daşıdıqlarından və hərəkətləri də hər zaman peyğəmbərlərə qarşı olduğundan, etdikləri şeylər və qarşılaşdıqları nəticə də həmişə eyni olmuşdur. Allahın vədinə görə, eyni "son"la qarşılaşmağa davam edəcəklər. Ayədə belə buyurulur:

**Sənə nazil edilənə və səndən əvvəl nazil edilənlərə iman gətirdiklərini iddia edənləri görmədinmi? Onlar mühakimə olunmaları üçün tağuta müraciət etmək istəyirlər. Halbuki onlara tağuta inanmamaq əmr olunmuşdur. Şeytan isə onları dərin bir azğınlığa salmaq istəyir. (Nisa surəsi, 60)**

## Möminlərin gücündən narahat olurlar

Münafiqlərin möminlərə qarşı etdikləri əməllərindən nəticə alamamaqları qəzəblərini artırdığı kimi, mömin birliyinin gün keçdikcə güclənməsi narahat olmalarına səbəb olur. Çünki düşmən qəbul etdikləri birlik, zaman irəlilədikcə gücünü artırır. Aşağıdakı ayələr, münafiqlərin bu ruh halını açıqlayır:

**Sizə bir uğur nəsib olsa, bu onları kədərləndirər. Sizə bir fəlakət üz verdikdə isə, buna fərəhlənərlər... (Ali İmran surəsi, 120)**

**Sənə bir uğur nəsib olsa, bu onları kədərləndirər... (Tövbə surəsi, 50)**

Münafiqlər möminlərin yanında onlardan mənfəət təmin etməyə çalışdığı halda, öz hesabları boşa gedər. Ümid etdikləri kimi mənfəət təmin edə bilməzkən, möminlər davamlı güclənir. Bu, Allahın dəyişməyən qanunudur. Allah Özünə inanıb iman edənlərə, dünya həyatında kömək edəcəyini və onları nemətlərin ən gözəli ilə təmas edəcəyini bildirmişdir. Bu

böyük həqiqətdən münafiqlər da xəbərdardırlar. Amma hiyləgər əxlaqlarının gərəyi olaraq, davamlı rahatlıq və hüzur içində olan möminlərin həyatları, onlar üçün qəzəb qaynağı halını alır. Möminlər, münafiqlərin məntiqini həll edə bilmədikləri bolluqla mükafatlandırılır və hər zaman rahat həyat sürürlər. Bu səbəbdən münafiqlər, düşmən qəbul etdikləri mömin topluluğunun həmişə çətinlik içində olmalarını qəlbən arzu edərlər. Möminlərə Allahın verdiyi nemətlər və içində yaşadıqları bolluq, onlar üçün sıxıntı və narahatlıq mövzusu olarkən, möminlərin qarşılaşdıqları hər hansı çətinlik də onlar üçün sevinc ünsürüdür. Münafiqlərin bu pis ruh halı Quranda belə xəbər verilir:

**... Onlar sizə qarşı fəsad törətməkdən əl çəkməzlər, sizin sıxıntıya düşməyinizi istəyərlər... (Ali İmran surəsi, 118)**

Möminlər Allahın imtahanına tabe olduqları üçün, zaman keçdikcə çətin kimi görünən bəzi hadisələrlə qarşılaşa bilirlər. Lakin bu, onlar üçün sınaqdır. Çətinliklərin ruhlarını nəcibləşdirdiyini, mübarizə güclərini artırdığını, cənnətə layiq olmaq üçün vəsilə olduğunu çox yaxşı bilirlər. Münafiqlərin bunlardan ötrü narahat olmaları, Allah üçün yaşamağın sirrini qavraya bilməmələridir və dünyadakı imtahanın mahiyyətini bilməmələrinin ən diqqətə çarpan dəlilidir. Möminlər bu çətinlikləri özləri üçün xeyir vəsiləsi olaraq qiymətləndirərkən, münafiqlər bunları möminlər üçün çətinlik, özləri üçün də qələbə olaraq qəbul edərlər. Öz xarakterlərinin gərəyi olaraq möminlərin ağıl ölçüsünün və iman gücünün fərqində deyildirlər. Çətinliklə qarşılaşan möminlərin, əhval-ruhiyyələrinin mütləq pozulduğunu və nəhayət birliklərinin pozulacağını düşünərlər. Bundan ötrü ümidlidirlər. Ancaq gözləmələri nəticəsizdir. Allahdan güc alan, Allaha bağlı olan insanları təqdir edə bilmir və böyük yanlışın içinə düşürlər.

## Möminlərdən qorxarlar

Allahın razılığını qazanmaq məqsədiylə Onun sözlərini meyar götürərək yaşayan möminlərin qətiyyəti münafiqləri daim narahat edir. Möminlər cəsur və qətiyyətli hallarıyla güclü imana sahib olduqlarını, heç bir şeydən

təsirlənməyəcəklərini tam mənasıyla sərgiləyərlər. Bu da münafiqlərin ən çəkindiyi istiqamətlərdən biridir. Çünki sərf etdikləri səylər, ətraflı planlanmış olmasına və müəyyən bir məqsədə istiqamətli düşünülməsinə baxmayaraq, istənilən nəticəni vermir.

Allah dünyada möminlər vəsiləsi ilə münafiqlərə qorxu verir. Qəlblərində böyük kin bəsləmələrinə baxmayaraq, planlarının hər zaman nəticəsiz qalması və möminlərdən qorxu duymaları, aciz olmalarına ən təməl dəlildir. Özünə Allahı vəli seçmiş olan birliyin, hətta tək bir insanın qarşısında belə güclərinin olmadığının özləri də fərqindədirlər. Allaha güvənmədikləri üçün həmişə şübhə və narahatlıq içindədirlər. Narahatlıqları, möminlərin onlara qarşı mübarizələri qarşısında daha da artır. Münafiqlərə qarşı sərt qarşılıq vermək Quranda möminlərin üzərinə yazılmış Allahın əmridir.

**Ey Peyğəmbər! Kafirlərə və münafiqlərə qarşı vuruş! Onlarla sərt davran! Onların sığınacağı yer Cəhənnəmdir. Ora necə də pis dönüş yeridir! (Təhrim surəsi, 9)**

Onlara "Allahdan qorx" deyildiyində təkəbbürlənən bu birlik, Allahın dəstəyi ilə hərəkət edən möminlərin mübarizələri qarşısında qorxuya qapılırlar. "Dərin qavrayışa sahib olamadıqlarından" insanlara olan qorxuları daha böyükdür. Bu həqiqət bir ayədə belə xəbər verilir:

**Doğrusu, onlar qəlblərində Allahdan çox sizdən qorxurlar. Çünki onlar anlamayan adamlardır. (Həşr surəsi, 13)**

## Allahın, möminlərin üzərindəki himayəsindən xəbərsizdirlər

**... Allah kafirlərə möminləri məğlub etməyə yol verməyəcəkdir. (Nisa surəsi, 141)**

Öz vəziyyətlərinin fərqində ola bilməyən bu insanlar, yuxarıdakı ayədə də bildirildiyi kimi Allahın möminlər üzərindəki dəstəyinin və himayəsinin də fərqində deyildirlər. Allahı təqdir edə bilməyən bir insanın, möminlər üzərində belə bir dəstəyi fərq edə bilməməsi təbiidir. Onlara, Allahın qəti olaraq yol verməyəcəyini, qavraya bilsələrdi əlbəttə möminlərin əleyhinə etdikləri səylərinin faydasının olmadığını da qavraya bilərdilər. Bunu təqdir edə bilməmələri, qavraya bilməyən bir qövm olduqları həqiqətini gücləndirir. Dünyada yaşadıqları müddət ərzində bütün gücləri ilə möminlərə qarşı mübarizə edərlər. Halbuki Allah nə dünyada, nə də axirətdə onlara çıxış yolu verməyəcəyini və möminləri hər cür təhlükələrdən qoruyacağını Quran ayələri ilə bildirir. Bu ayələri oxuduqları halda bu əhəmiyyətli həqiqətdən xəbərsiz olmaları, əhəmiyyətli münafiq əlamətidir. Möminlərin "öz başına və köməksiz" olduqlarını düşünürlər. Halbuki möminlər, hər şərtdə inkarçılara qalib gəlirlər. Onlar Allahın qoruduğu, bunun nəticəsi olaraq da çox üstün xüsusiyyətlərə sahib kəslərdir. Bu həqiqəti qavraya bilməmələri, boş və məqsədsiz cəhdlərini getdikcə artırır və həmişə şübhə içində qalmağa davam edirlər.

## Mənfəətlərinə zərər gələrsə möminlərdən ayrılarlar

Münafiqlərin, möminlərin arasında olmalarının başlıca səbəbi daha əvvəl də ifadə etdiyimiz kimi, öz mənfəətləridir. Yaşadıqları rahatlığı pozacaq, mənfəətlərinə mənfi təsir edəcək vəziyyətlə qarşılaşdıqlarında isə, dərhal dönərlər və möminlərdən ayrılarlar. Bu anlar ümumiyyətlə çətinlik və ya mübarizə anlarıdır. Allahın razılığını qazanmağa istiqamətli həyat yaşamadıqlarından, çətin vəziyyətlərdə din əxlaqını yaşamağa yaxınlaşmazlar.

Nəfslərinin ilk çətinə girdiyi anda möminlərdən ayrılan bu kəslərə bir nümunə, hz. Musa (ə.s)-ın qövmündəki münafiqlərdir. Döyüşə çıxdıqları gün, əsl üzlərini göstərmiş, həm döyüşdən qaçmışlar, həm də Allahın elçisinə qarşı hörmətsiz əxlaq göstərmişlər:

**Onlar dedilər: “Ey Musa! Nə qədər ki onlar oradadırlar, biz ora heç vaxt girməyəcəyik. Odur ki, sən və sənin Rəbbin gedin, onlarla vuruşun. Biz isə burada oturacağıq” (Maidə surəsi, 24)**

Allaha gerçək mənada inanmayan və ayələri inkar edən bu insanların möminlərin arasında bəzi səbəblərdən ötrü olmaları əlbəttə maraqlıdır. Bu insanların ən əhəmiyyətli dəyərləri öz mənfəətləridir. Bu dəyər uğrunda, sırf özlərinə mənfəət təmin edə bilmək üçün mömin birliyinin arasında müəyyən müddət qala bilməyi bacararlar. Mənfəətlərinin təhlükəyə düşdüyünü anladıqları zamanlar isə ayrılma vaxtlarıdır. Bu məcburi birlikdə olmalarını müəyyən müddət davam etdirirlər, ta ki mənfəətləri zərər görənə qədər... Çətinlik və mübarizə anları, Allah rizası üçün aparılan mübarizədə kimlərin saleh olub-olmadığını ortaya çıxarır. Mənfəəti zərər görən bu insanlar üçün, artıq möminlərlə birlikdə qalmalarına səbəb olacaq bağlayıcı vəziyyət yoxdur. Münafiqlərin möminlərdən necə mənfəət təmin etməyi düşündüklərini isə, kitabın sonrakı hissəsində görəcəyik.

# ALLAHA VƏ MÖMİNLƏRƏ QARŞI MÜBARİZƏLƏRİ

## Allahın yolundan uzaqlaşdırmağa çalışarlar

Allahın möminə vermiş olduğu əhəmiyyətli məsuliyyətlərdən biri də, insanlara yaxşılığı əmr edib pislikdən çəkindirmək və Quran əxlaqının əsaslarını yer üzündə təbliğ etməkdir. İnsanlara qəflət içində olduqları zəruri mövzunu izah edərək, əbədi axirət həyatlarını qurtarmaları üçün onları xəbərdar etməkdir. Məsuliyyətləri böyükdür, görüləcək iş isə olduqca əhatəlidir. Çünki möminlər üçün bir adamın belə iman etməsinə vəsilə olmaq, Allahın məmnuniyyətini qazana bilmək baxımından böyük əhəmiyyət daşıyır.

Münafiqlərin isə izlədikləri əxlaq lazım olanın tam tərsidir. Allah yoluna çağırmaq yerinə, Allahın yolundan döndərməyi özlərinə vəzifə hesab etmişlər. Bu da şeytanın əmri ilə hərəkət etdiklərini göstərir. Insanların imanına vəsilə olmağı istəmək bir yana, münafiqin ən böyük məqsədi, "şeytan" kimi onları, Allahın yolundan azdırmaq və münafiq cəbhəsinə yandaş toplamaqdır:

**İnsanlar içərisində eləsi də vardır ki, heç bir biliyi, doğru yol göstəricisi və nur saçan bir kitabı olmadan Allah haqqında mübahisə edir. O, başını təkəbbürlə o yan bu yana çevirir ki, insanları Allahın yolundan sapdırsın. O bu dünyada rüsvay olacaq, Qiyamət günü isə Biz ona Cəhənnəm məşəqqətini nəsib edəcəyik. (Həcc surəsi, 8-9)**

Münafiqlərin üsulları müxtəlifdir. Amma bu üsulları tətbiq edərkən, ən əsas xüsusiyyətləri xainlikləridir. Möminlərin arasında olub ikiüzlü mövqe izləyərək, onları əngəlləməyə çalışırlar. Bu xüsusiyyətləri, şübhəsiz onların axirətdə "ən alçaq" qılınmalarının da əhəmiyyətli səbəbidir.

## İnkarçılara möminlər haqqında xəbər daşıyarlar

**...İçinizdə onlara xəbər daşıyanlar vardır... (Tövbə surəsi, 47)**

Münafiqlərin ən böyük istəkləri, möminlər topluluğunun dağılmasıdır. Bu səbəblə, güclü olduqlarına inandıqları inkarçılarla birləşərək, möminlərə qarşı hiyləgər mübarizəyə girərlər. Birlik halındakı mömin birliyi, onlar üçün əhəmiyyətli təhlükədir. Bu səbəblə əvvəlcə bu birliyi yox etməyə çalışarlar. Vəzifələri onların əleyhinə fəaliyyət olduğundan, məqsədləri əllərindən gəldiyi qədər zərər verməkdir. Daha doğrusu, zərər vermək üçün çalışmaqdır.

Əlbəttə bunun üçün mömin birliyinin içində olmağı özləri üçün üstünlük olaraq qiymətləndirərlər. Aralarında olduqları müddətcə onların əleyhinə fəaliyyətləri daha rahat edə biləcəklərini düşünürlər. Xəbər daşıya biləcək, məlumat toplaya biləcəklər. Halbuki, etdikləri hər əks fəaliyyət, özləri üçün əzab vəsiləsi olacaq və nəticə də əldə edə bilməyəcəklər.

Inkarçılarla olan əməkdaşlığa mömin birliyinin içindəykən başlayan bu kəslərin məqsədləri; möminlərin arasında qalıb öz ağıllarına görə möminlərə zərər verə biləcəyini düşündükləri məlumatları inkarçılara çatdıra bilməkdir. Ancaq bu barədə də, münafiqlərin bilmədikləri və ya bilib də əhəmiyyət vermədikləri bir gerçək vardır: Allah möminlərin əleyhinə qurulan heç bir nizama icazə verməz. Münafiqlərin tarix boyunca qurduqları bütün tələlər, öz başlarına çökmüşdür. Allahın vədinə görə də bu şəkildə olmağa davam edəcəkdir. Etdikləri hər iş nəticəsiz qalmağa məhkumdur.

## Gizli danışarlar

Münafiqlərin möminlərin arasında ikən, onların əleyhinə etdikləri gizli danışıqlar günah, düşmənçilik və üsyan məqsədlidir:

**Gizli söhbət qadağan ediləndən sonra yenə də qadağan olunmuş əmələ qayıdıb günah, düşmənçilik və Peyğəmbərə qarşı çıxmaq barədə öz aralarında xısın-xısın danışanları görmədinmi?... (Mücadilə surəsi, 8)**

Mömin birliyinin içində olar, amma bu vaxt öz aralarında gizli birlik halına gələrək möminlər əleyhinə planlar qurarlar. Gizli yığıncaqlarının mahiyyəti budur. Bunun bir nümunəsi peyğəmbərimiz hz. Məhəmməd (s) dövründə görülmüşdür:

**Müsəlmanlara zərər vurmaq, küfr etmək, möminlərin arasına təfriqə salmaq məqsədilə, əvvəlcədən Allaha və Onun Elçisinə qarşı müharibə edən kimsəni gözləmək üçün məscid tikənlər, əlbəttə: "Biz yaxşılıqdan başqa bir şey istəmədik" – deyə and içəcəklər. Allah şahiddir ki, onlar yalançıdırlar. (Tövbə surəsi, 107)**

Dövrün münafiqləri Peyğəmbərimizi (s) və yanında olanları uzaqdan müşahidə etmək, fəaliyyətlərini öyrənmək və onlara tələ qurmaq üçün möminlərdən ayrı məkan seçmişlər. Bu vəziyyət Quranda xüsusilə xəbər verilən, münafiqlərə xas xüsusiyyətdir. Bunu edən münafiqlər, möminlərdən gizli bir iş etdiklərini, gizli planlar qurduqlarını və bunun sayəsində müvəffəqiyyətə çata biləcəklərini zənn edərlər. Halbuki Allah, **"Məgər anlamırdılar ki, Allah onların sirlərindən də, xəlvəti danışıqlarından da agahdır və Allah qeybləri biləndir?"** (Tövbə surəsi, 78) ayəsində bildirdiyi kimi nə etdiklərini görür. Bu davranışları əlbəttə, bu əhəmiyyətli sirrə inanmamalarından qaynaqlanır.

Həmçinin möminlərin arasında inkarçı mövqedə olmaqla kifayətlənməyib, Peyğəmbərimizə (s) qarşı üsyanı pıçıldaşırlar. Halbuki axirətdə öz etdiklərini qarşılarında gördüklərində, etdiklərinin gizli olmadığını, möminlərin dəstəkçisi olan Allahın, möminlərə qarşı edilən hər plandan xəbərdar olmasının yetərli olduğunu anlayacaqlar. Onlar insanlardan gizlətməyə çalışdıqları bu fəaliyyətləri Allahın ortaya çıxaracağına inanmırlar. Yenə qorxuları insanlardandır. Halbuki axirətdə əməllərinin hamısından hesaba çəkiləcək, özlərini tam mənasıyla müstağni gördükləri, heç vaxt ortaya çıxmayacağını zənn etdikləri fəaliyyətləri ilə tək-tək qarşılaşacaqlar.

## Pisliyi təşkil edərlər

Möminlər ömürlərini Allah üçün ibadət edərək, Onun yolunda həmişə ciddi səy göstərərək keçirərlər. Bu məqsədlə həyatlarının hər anını "xeyir" etmək üçün yaşamağa çalışarlar; çünki ölümün onları nə zaman yaxalayacağını bilmədiklərini bilirlər.

Münafiqlər isə (hər şeydə olduğu kimi) burada da möminlərin tam əksinə rəftar ortaya qoyarlar; yaşadıqları hər an pislik etməyə çalışarlar. Günahsız insanlara böhtan atmaq ya da möminlərə tələ qurmaq kimi daha bir çox pisliyi xüsusi olaraq hazırlayaraq, möminlərə zərər verməyə çalışarlar. Səyləri həmişə inananların əleyhinədir. Bu səylərin ən əhəmiyyətli nöqtəsi elçiyə, möminlərə və Allahın ayələrinə duyduqları qəzəbləridir. Edilən hər xəbərdarlıq, içlərindəki kini gücləndirir və qəlblərindəki intiqam alma hissini gücləndirir. Ayələrdə bu həqiqət bizlərə belə bildirilir:

**...Onlara qorxudan peyğəmbər gəldikdə isə bu, onların ancaq nifrətini artırdı. Bütün bunlar onların yer üzündə təkəbbür göstərmələrinə və yaramaz hiyləgərliklər törətdiklərinə görə idi... (Fatir surəsi, 42-43)**

Duyduqları bu kin onlara çox şey etdirə bilər. Gələn elçilər onlara yaxşılığı və gözəlliyi xatırladıb Allahın ayələrini oxuduqca, içlərindəki qəzəb artır və onları hiyləgər fəaliyyətə istiqamətləndirir. Bu səbəblə iman gətirənlərə qarşı pis əməllər təşkil etməyə başlayarlar. Fəaliyyətlərini əngəlləyəcək planlar hazırlayır, möminlərin arasında anlaşılmazlıq çıxarmağa çalışırlar. Verilən bir hökmü azdırmağa, elçiyə itaətsizliyi xoş göstərməyə səy göstərərlər. Elçi tərəfindən edilməməli şeyləri edərək öz zəif ağıllarına görə bir hərəkət ortaya qoyar və tərəfdar toplamağa çalışırlar. Etdikləri hər şey nizamı pozmağa və mömin birliyini gücdən salmağa yönəlib.

Ancaq Rəbbimizin Quranda bildirdiyi kimi, bütün bu səylər mömin birliyinə heç bir şəkildə təsir etməyəcək. Hər dövrdə Allahın nizamına qarşı plan qurmaq istəyənlər həmişə uğursuzluğa məruz qalıblar. Allahı təqdir edə bilməyən hər insan, bu böyük həqiqətdən xəbərsiz olaraq səylərini göstərməyə davam edəcək. Halbuki Quranda bildirildiyi kimi, hiyləli nizam öz sahibindən başqasını əhatə etməz.

# Möminlərə istehza edərlər

Etdikləri çirkin hərəkətlərdən biri də lağ etmələridir. Münafiqlər, möminlərin güclərinə görə düşdükləri əzik və narahat ruh halını, bu ağılsız üsulla ortaya çıxararlar. Möminlərin yaxşı niyyətlərindən sui-istifadə edərək, onları aşağı görür və insanların gözündə alçaq vəziyyətə salmaq istəyirlər. Bu da qarşısı alınmaz qəzəblərinin nəticəsidir. Allah Quranda öz ağızlarından bu həqiqəti bizlərə belə bildirər:

**...Öz şeytanları (azmış dostları) ilə təklikdə qaldıqda isə: “Biz sizinləyik. Biz möminlərə ancaq istehza edirik!”- deyirlər. (Bəqərə surəsi, 14)**

Halbuki möminlərə nə istehzaları ilə, nə də digər əziyyətləri ilə heç bir şəkildə zərər verə bilməzlər. Bütün davranışlarını Allah bilir və görür. Allah Quranda münafiqlər üçün, əsas alçalan və lağ edilənlərin özləri olduğunu belə xəbər verir:

**Allah da onlara istehza edər və azğınlıqlarını o qədər artırar ki, sərgərdan gəzərlər. (Bəqərə surəsi, 15)**

Münafiqlər möminləri qısqanıb onlara qarşı nifrət bəslədiklərindən, bütün davranışları bu gizli kini ətrafa əks etdirərlər. Onlardan müəyyən bir dövr mənfəət güddükləri üçün, nifrətlərini bəlli etməməyə çalışarlar. Ancaq şüuraltındakı nifrət, şübhəsiz ortaya çıxır. Lağ etmək, münafiqlərin möminlərə duyduğu həsədin və kinin gizli göstəricisidir. Danışıqları, baxışları, arxalarından etdikləri qaş-göz işarələri ilə qəlblərindəki gizli kin və nifrət əslində açıq şəkildə çölə əks olunur.

Ayələrdə münafiqlərin yalnız iman etdikləri üçün möminlərə qarşı göstərdikləri rəftarlar dəqiq şəkildə izah edilir. Özlərini üstün və axirətdən mümkün qədər uzaq görmələrinin, yəni ağılsızlıqlarının nəticəsi olaraq, qarşılarındakı insanların Allah üçün nə etdiklərinə məna verə bilir, Allah rizası və axirət üçün yaşanan həyatı lağa qoyurlar:

**Doğrudan da, günah edənlər iman gətirənlərə gülürdülər, onların yanından keçdikdə bir-birinə qaş-göz edirdilər. (Mutaffifin surəsi, 29-30)**

Allah bu münasibətlərinə qarşılıq olaraq axirətdə qarşılaşacaqları ortamı isə belə bildirir:

**Bu gün məhz iman gətirənlər kafirlərə güləcəklər. (Mutaffifin surəsi, 34)**

Bununla yanaşı münafiqlər şeytanın hiyləgər zəkası ilə hərəkət etdiklərindən, möminlərə qarşı etdikləri bu cür rəftarları açıq-aşkar, aydın olacaq şəkildə etməzlər. Bütün istehzalı rəftarlarının, sonradan mütləq izah edilə biləcək kimi olmasına diqqət edərlər. Tətbiq etdikləri zaman fəsad ortaya çıxdığında və istehzaları üzlərinə vurduğunda, sahib olduqları "münafiq məntiqi" özünü açıq şəkildə bəlli edər. Belə bir vəziyyət qarşısında münafiqlər, özlərinin əsla pis niyyətdə olmadıqlarını, səhv anlaşıldıqlarını müdafiə edəcəklər. Öz saxta məsumiyyətlərini sübut etmək üçün əllərindən gələni edəcəklər:

**Onlardan nə üçün istehza etdiklərini soruşsan, deyərlər: "Biz sadəcə boş-boş danışıb zarafatlaşırdıq!" De: "Allaha, Onun ayələrinə və Onun Elçisinə istehzamı edirsiniz? (Tövbə surəsi, 65)**

## Möminlərə böhtan atarlar

**Allaha qarşı yalan uyduran və ya Onun ayələrini yalan hesab edən kimsədən daha zalım kim ola bilər? Şübhəsiz ki, zalımlar nicat tapmayacaqlar! (Ənam surəsi, 21)**

Məqsədləri elçini və möminləri gücdən salıb, din əxlaqının hakimiyyətini əngəlləmək olduğu üçün, elçiyə haqsız yerə böhtanlar atdıqları kimi, möminlərə də əsassız cinayətləri şər atarlar. Münafiqlərin möminlər

əleyhinə tətbiq etdikləri hücumların ən əhəmiyyətlilərindən biri, onlar haqqında böhtanlar irəli sürmələridir. Bu şəkildə özlərini, onlardan ayrı olduqları üçün haqlı göstərəcəklərini zənn edərlər. Bu zənlərinə görə özləri təmizə çıxacaq, möminlər də insanların gözündə etibarını itirəcəklər. Halbuki atılan böhtanlar, heç də hadisələrin möminlərin əleyhinə inkişafına yol açmaz; əksinə hər zaman öz əleyhinə dönəcəkdir. Allah böhtan atan bu kəslər üçün belə buyurur:

**...Elmsiz olaraq insanları azdırmaq üçün Allaha qarşı yalan uyduran kimsədən daha zalım kim ola bilər? Şübhəsiz ki, Allah zalım qövmü doğru yola yönəltməz. (Ənam surəsi, 144)**

Böhtanların ən əhəmiyyətli xüsusiyyəti, əsasən elçini hədəf almalarıdır. Quranda bəhsi keçən və daha əvvəl də ifadə etdiyimiz bəzi ittihamlar, tarix boyu eyni üsullar istifadə edilmişdir. Tarix boyu var olan və Quranda adı keçən qövmlərdəki inkarçılar da onlara gələn elçiyə dəli, cadugər kimi bənzətmələr etmişlər. Keçən zamana baxmayaraq bu hərəkətlərində dəyişiklik etməmişlər, günahlandırma mahiyyəti ilə eyni üsullara üz tutmuşlar. Tarixdə bu cəhdlər heç bir zaman məqsədinə çata bilməmişdir.

## Möminlərə zərər vermək istəyər və ayrılıq salmağa çalışarlar

**Bir zaman kafirlər səni həbs etmək, öldürmək və ya yurdundan qovmaq üçün sənə qarşı hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır. (Ənfal surəsi, 30)**

Şüuraltında möminlərə kin və nifrət duyan münafiqlər, öz ağıllarına görə onlara zərər vermək üçün aralarında fitnə və ayrılıq çıxarmağa çalışarlar. Daha əvvəl də ifadə etdiyimiz kimi əsas məqsədləri, birlik halındakı möminləri ayırmaqdır. Bu şəkildə inananları gücdən sala biləcəklərini və din əxlaqının yaşanmasına əngəl ola biləcəklərini düşünərlər.

Möminlərin birlik halında olmaları əlbəttə ki, əhəmiyyətli dəstək və gücdür. Amma inananlar əsl gücü Allahdan alırlar. Möminlər birlikləri ilə, Allahın onlara yazmış olduğu bəzi öhdəlikləri yerinə yetirir, Allahı zikr edir, inkarçılara qarşı kütləvi olaraq mübarizə aparırlar. Möminlərin əsl güclərini Allahdan aldıqlarını qavraya bilməyən münafiq zehniyyəti, möminlərin arasını vurmaqla onlara əhəmiyyətli zərbə vuracaqlarını düşünürlər. Bu şəkildə baxış aspektlərinin nəticələrindən biri ortaya çıxır, öz ağıllarına görə əhəmiyyətli gördükləri, amma nəticəsiz və mənasız olan məşğuliyyət üçün səy göstərirlər. Onlara görə, birlik olan belə güclü topluluğu gücdən salmağın ən keçərli yolu budur. Aralarından ayrıldıqdan sonra da, möminlər əleyhinə təxribat çıxarma səylərini davam etdirərlər.

Möminlərin aralarında ayrılıq salmağa çalışarkən, (daha əvvəl də bəhs etmiş olduğumuz kimi) hiyləgər yol izləyərlər. Heç bir zaman fitnəyə "biz sizin içinizdə ayrılıq salacağıq" deyərək girişməzlər. Əksinə özlərinin, yer üzündə doğruluğun yayılmasını istəyən etibarlı insanlar olduqlarını iddia edərlər. Bu hiyləgər davranışlarıyla, onların etibarını qazanmağa və onlara hiss etdirmədən aralarına fitnə salmağa çalışırlar. Bu onlar üçün əhəmiyyətli fürsətdir. Halbuki səyləri hər zaman olduğu kimi uğursuzdur:

**Onlar sizə əziyyətdən başqa bir zərər yetirə bilməzlər... (Ali İmran surəsi, 111)**

## Yanlış axirət inancları və dünyanı axirətdən üstün tutmaları

Mömin üçün uğrunda cəhd ediləcək əsl hədəf axirət həyatıdır. Bu səbəbdən möminin dünyadakı bütün hazırlığı axirətdəki həyatını ən mükəmməl şəkildə qazanmaq üçündür. Qəti olaraq iman etmək, mövzu axirət olduğunda olduqca əhəmiyyət qazanır. İnsanların bir qismi, onları gözləyən qəti həqiqətdən, Quran ayələrindəki ətraflı izahlara və onların da şahid olduqları saysız dəlilə baxmayaraq, həmişə şübhə içində yaşayırlar. Bu şübhənin səbəbi, Quran ayələrindən oxuduqları axirət həqiqətini, dünya ehtirasları səbəbi ilə düşünmək istəməmələridir. Necə ki, axirətə qəti şəkildə inanan bir insan, axirətlə müqayisədə dünyanın, gözdə böyüdüləcək bir

dəyərinin olmadığını anlamış və dünyanın aldadıcı bəzəklərindən üz çevirmişdir. Münafiqlər üçün isə, “dünya” ən qiymətli anlayışdır. Bu səbəblə, axirətə qarşı özlərini bilə-bilə korlaşdırırlar. Ayədə onların bu vəziyyətləri belə xəbər verilir:

**Həm də onların elmi axirəti qavrayıb dərk edə bilməz. Üstəlik də onun barəsində şəkk-şübhə içindədirlər, hətta ona qarşı kor kimi baxarlar” (Nəml surəsi, 66)**

Axirət haqqında şübhələri olmalarının ən böyük səbəbi, imanlarındakı zəiflik və nəfslərindəki dünya ehtirasıdır. Axirəti düşünmədikləri, daha doğrusu düşünmək istəmədikləri üçün onun yaxınlığını qavraya bilməzlər. Hesaba çəkilmək Quranda **”doğrusu onlar, hesaba çəkiləcəklərini ümid etmirdilər”** (Nəbə surəsi, 27) ayəsində də bildirildiyi kimi özləri üçün heç gözləmədikləri bir vəziyyətdir. Nəfslərinə hakim olan müstağniyyət də bu əhəmiyyətli və zəruri mövzuda özünü göstərir.

Əlbəttə ki, bunun səbəbi, axirətin varlığını heç bir şəkildə bilməmələri deyil. Onlar sadəcə hesab gününü, axirəti və cəhənnəmi zehinlərində canlandırmaq istəmirlər. Bu böyük həqiqətləri düşünməyib, bu cür dünyanın bəzəyinə aldanarlar. Düşünməməklə də özlərini olduqca qazanclı görürlər. Lakin onlar özlərini qazancda saysalar da, əslində əbədi cənnəti itirirlər.

## Dünya həyatına ehtirasla bağlıdırlar

**Bu dünya həyatı əyləncə və oyundan başqa bir şey deyildir. Axirət yurdu isə əsl həyatdır. Kaş ki, biləydilər! (Ənkəbut surəsi, 64)**

Quranda Allahın insanlara bildirdiyinə görə, dünya yalnız müvəqqəti yurd olaraq yaradılmışdır. Əsl yurd axirət yurdudur; əsl həyat da orada yaşanacaq. Həmçinin bu gerçək həyat, 60-70 il kimi qısa müddətlə də məhdudlanmayacaq, insanlar sonsuz olaraq orada qalacaqlar.

Bu çox böyük həqiqətdir. Hər insanın bu həqiqəti mütləq göz önündə saxlaması və ölümdən sonra gedəcəyi əsl yurd üçün dünyada ikən hazırlıq etməsi əsas şərtdir. Ancaq insanların böyük əksəriyyəti bu həqiqətdən xəbərsizdir. Daha doğrusu bu hadisəni düşünməyə qarşı istəkləri yoxdur. Onlar dünya həyatını yaşamaq istəyərlər. Bunu zədələyəcək hər hansı bir fikrə yanaşmazlar. Axirətin varlığı isə dünyaya olan asıllılıqlarına zərbə vurur. Bunu qəbul etmək istəmədikləri üçün, bu düşüncədən mümkün qədər uzaq qalmağı seçərlər. Həyatları boyunca qaçmağa çalışdıqları həqiqi məlumatı "yox" qəbul edərlər. Öz ağıllarına görə etməli olduqlarını etməməyin yoludur bu.

Dünya həyatına bu qədər bağlanmış olmalarının səbəbi, ölümü düşünməmələridir. Bu səbəblə ölüm mövzusu açıldığında dərhal mövzunu bağlamağa çalışırlar. Çünki ölüm sahib olduqları hər şeyi, bədənlərini, mallarını, pullarını, gözəlliklərini, məqam və mövqelərini alıb aparacaqdır.

Halbuki nə qədər qaçsalar da ölüm çox böyük həqiqətdir. Hər insan Allahın diləməsiylə doğular, Onun təyin etdiyi qədər yaşayar və yenə Onun təyin etdiyi qədər, müəyyən müddət sonra ölər. Ağlı başında hər insan bunu açıq şüurla düşünməli və bu nöqtədə ona düşən məsuliyyəti yerinə yetirməlidir. Bu məsuliyyət qısa və müvəqqəti olan dünya həyatına bağlanmamaq və Allahın sərhədlərinə görə yaşamaqdır.

Ancaq qəlbləri qatılaşmış olan münafiqlərə həyat, olduqca rəngli və hərəkətli gəlir. Əslində bunun səbəbi (imtahanın gərəyi olaraq) dünya həyatının bəzəkli qılınması, inkarçıların da bu bəzəyə aldanmalarıdır. İman sahibi kəslər isə bu bər-bəzəyin aldadıcı olduğunu və dünya həyatının göz açıb bağlayana qədər sürətlə axıb gedəcəyini qavramışlar.

Münafiqlər bu həqiqətdən qaçırlar. Dünyaya bağlılıqları elə şiddətlidir ki, bunun üçün "çox yaxşı bildikləri halda" axirət gerçəyini görməzlikdən gələrlər. Halbuki Quranı oxuyan, hadisələrin əsl istiqamətlərini öyrənən bu kəslər, əlbəttə ki, dünyanın həqiqi üzünü də bilirlər. Buna baxmayaraq Quranda, **"onlar dünya həyatını axirətdən üstün tutur..."** (İbrahim surəsi, 3) ayəsində də bildirildiyi kimi dünya həyatından vaz keçə bilmirlər.

Dünya sevgisi onları sanki sehrləmiş, həqiqətləri qavraya bilməz hala gətirmişdir. Bu səbəbdən münafiqlər heç ölməyəcəklərmiş kimi dünyəvi hesablar edərlər. Sonu gəlməyən planları vardır. Müsəlmanlara qarşı qurduqları məkrli planlar da, bu dünyəvi hesabların əhatəsindədir. Etmədikləri tək şey, öldükdən sonra yaşayacaqları sonsuz həyatları üçün səy

göstərməkdir. Halbuki dünya həyatının bəzəyinə aldanaraq axirəti unutmaları onlara heç bir fayda verməz. Əksinə onları çox çətin, sıxıntılı, alçaldılma və əzablı qorxunc həyat gözləyir.

Ölüm, qiyamət, axirət, cənnət, cəhənnəm kimi son dərəcə əhəmiyyətli olan mövzuları düşünməmələrinin öz ağıllarına görə müəyyən səbəbləri vardır. Ancaq ən əsas səbəb müstağniyyətləridir. Həyat onlara heç bitməyəcək kimi uzun gəlir, axirətdə isə, əgər gedərlərsə ən gözəlinə layiq olacaqlarını düşünürlər. Kəhf surəsində xəbər verilən bağ sahiblərinin hekayəsi bu mövzuya nümunədir:

**O özünə zülm edərək bağına daxil olub dedi: "Bunun nə vaxtsa yox ola biləcəyini düşünmürəm. O Saatın gələcəyini də zənn etmirəm. Rəbbimin yanına qaytarılmalı olsam, sözsüz ki, bundan daha firavan bir həyat qismətim olacaq!" (Kəhf surəsi, 35-36)**

Onları din əxlaqını yaşamaqdan, sadəcə Allaha yönəlməkdən və Onun cənnətini qazanmaq üçün Onun istəklərinə görə həyat sürməkdən uzaqlaşdıran əsas səbəblər, istək və həvəsləri, yəni ehtiraslarıdır. Ancaq bütün ehtirasların ortaq xüsusiyyəti, insanı Uca Allahdan və Onun yolundan uzaqlaşdırmaqdır. Burada əhəmiyyətli nöqtə, dünyəvi ehtiraslarının onları tez ya da gec ortada buraxacağıdır. Ölüm gələndə, gözlərində böyütdükləri dəyərlərin heç biri onlara kömək edə bilməyəcək. Sayılanların hamısını dünyada buraxıb, tək-tənha şəkildə Allahın hüzuruna gedəcəklər.

## Dünya həyatının müvəqqəti olduğunu anlamazlar

**Sizə verilən hər şey ancaq dünya həyatının keçici zövqü və onun bərbəzəyidir. Allah yanında olanlar isə daha xeyirli və daha sürəklidir. Məgər başa düşmürsünüz? (Qəsas surəsi, 60)**

Münafiqlər Quranı bilirlər. Quran ayələrindən dünyanın qısa aldanışdan ibarət olduğunu, əsl həyatın axirətdəki sonsuz həyat olduğunu, orada qazananın da, itirənin də olacağını və qazananlardan olmaq üçün Allahın kitabına görə yaşamalı olduqlarını bilirlər. Lakin bütün bunlara baxmayaraq, onlar dünyanı seçərlər.

Görəsən münafiqlər özləri üçün "qazanc" olacaq yoldan hansı səbəblə üz döndərirlər? Niyə sonu "atəş" olan bir yolu seçirlər? Münafiqlərin bu ruh halıyla əlaqədar sualların cavabı Quranda belə xəbər verilir:

**Onlar dedilər: "Həyat ancaq bizim dünya həyatımızdır. Kimimiz ölür, kimimiz də doğulur. Bizi öldürən ancaq zamandır". Bu haqda onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar. (Casiyə surəsi, 24)**

Bu rəftarlarının bir səbəbi, özlərini axirətdən müstağni görmələridir. Yuxarıda bəhs etdiyimiz kimi varlığına tam olaraq iman gətirmədikləri axirətin, var olsa belə özləri üçün gözəl son olacağı zənni ilə hərəkət edirlər. Şübhəsiz bu onların ağılsızlığının əhəmiyyətli göstəricisidir. Bu səbəbdən qəlblərini dünyəvi ehtiraslara qapılmaqdan çəkindirə bilməzlər. Kənardan baxıldığında iman etmiş görünsələr də, qəlblərində həmişə dünyəvi mənfəətlər ilə bərabərdirlər. Bu səbəblə, gözlərini dünya sevgisi bürümüş, qəlblərini dünya ehtirası əhatə etmişdir. Dünya həyatının qısa və keçici olduğu həqiqəti münafiqlərə son dərəcə boş və mənasız gəlir. Ölümcül bir xəstəliyin bütün bədənə nüfuz etməsi kimi, dünyəvi ehtiraslar da onları sarmışdır.

## Dünya gözəlliklərini yox edərlər

**Kafirlər Odun qarşısına gətiriləcəkləri gün onlara deyiləcəkdir: "Siz dünya həyatınızda pak nemətlərinizi sərf edib qurtardınız və onlardan zövq aldınız... (Əhqaf surəsi, 20)**

Yalnız dünya həyatına istiqamətli olaraq yaşamalarına baxmayaraq bu kəslər heç bir zaman xoşbəxt ola bilməz və dünyanın nemətlərindən tam olaraq faydalana bilməzlər. Dünyanın nemətlərini görüb təqdir edə bilmək üçün Allaha könüldən yönəlmək lazımdır. Özünə könüldən yönələn səmimi qullarına Allah, əzəmətlərinin, gözəlliklərinin, sağlamlıqlarının, ağıllarının, bərəkətlərinin və müvəffəqiyyətlərinin artması kimi bir çox nemətlə qarşılıq verir. Həqiqi ruh və fiziki gözəllik ancaq mömінə məxsusdur. Möminin dünyaya istiqamətli gözləntisi yoxdur, amma buna baxmayaraq, dünyada da həmişə gözəlliklərlə təmasda olur.

Allahın ayələrini inkar edən, onlara qarşı gələn münafiqlər üçün isə, sayılan nemətlər getdikcə azalar və itər. Və bunu öz əlləriylə edərlər; fürsətləri varkən üz çevirmişlər, bir baxıma "istəyərək" üzərlərindəki nemətləri özlərindən uzaqlaşdırmışlar. Bütün mənfəətləri dünyaya istiqamətlidir. Halbuki dünyadakı hüzuru, dincliyi və nemətləri də Allahın verdiyinin fərqində deyildirlər. Gözləntiləri dünyadandır, amma Allah diləmədikcə dünyaya istiqamətli qazancları da olmayacaq. Gözəlliyə layiq olmayan bu kəslərə Allah, qəlbdən bağlı olduqları dünyada gözəllik verməyəcək.

Onlara verilmiş olan bəzi dünyəvi nemətlərə də öz zəif ağıllarına görə layiq olduqlarını düşünürlər. Bunlar özləri üçün üstünlük ünsürü halındadır. Halbuki onlara verilən dünyəvi dəyərlər tək məqsəd üçündür. Bir ayədə bu vəziyyət belə bildirilir:

**Onların nə malları, nə də övladları səni heyrətləndirməsin. Allah bunlarla, dünya həyatında onlara əzab vermək və onların canlarının kafir kimi çıxmasını istəyir. (Tövbə surəsi, 55)**

Dünya həyatı heç də öz düşündükləri kimi rifah və rahatlıq mühiti deyil. Allahın dininə açıq şəkildə "döyüş açmış" olan bu insanlara yaşadıqları dünyada rahatlıq və dinclik də verməyəcək. Tək gözləntiləri dünyadır, burada çalışıb və səy sərf etməkdir, amma qazandıqları tamamilə boşa getmişdir. Bunu da Allah bizlərə, bu ayə vasitəsilə bildirər:

**O kəslər haqqında ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər. (Kəhf surəsi, 104)**

# Din gününü unudarlar

Qiyamət günü, dünya tarixinin sona çatacağı dəhşətli gündür. Ayələrdə bildirildiyi kimi, Günəş sönəcək, ulduzlar töküləcək, dənizlər qaynayacaq, səma çatlayıb yarılacaq, bütün insanlar yatdıqları yerdən qaldırılacaq. Quranda, o günün qorxusu ilə uşaqların saçlarının ağaracağından, hamilə qadınların uşaqlarını düşürəcəyindən bəhs edilir. Qiyamət saatından sonra insanları din günü, yəni hesab günü gözləyir. Möminlər qiyamət gününün meydana gətirəcəyi dəhşətdən qorxarlar və din günündə hesaba çəkildiklərində alçalmamağı, hesablarını qısa müddətdə verib cənnətə girməyi ümid edərlər.

Münafiq də qiyamət gününün varlığını və xüsusiyyətlərini bilir. Çünki Quranı oxuyur. Quranda edilən təsvirlərlə o günün dəhşətli gün olacağı izah edilmişdir. Ancaq, münafiqin ən diqqətə çarpan xüsusiyyəti, olduqca açıq olan Quran ayələrinə və əldə etdiyi bu qədər məlumata baxmayaraq, axirətə hələ də şübhələnməsidir. Bu səbəbdən həyatını bu böyük doğruya görə planlamaz. Hətta unutmağa çalışdığı bu həqiqəti, bir an olsun “açıq şüurla” düşünməz belə.

**Lakin onlar Qiyamət Saatını da yalan saydılar. Biz də onu yalan sayanlardan ötrü yandırıb-yaxan bir od hazırladıq. (Furqan surəsi, 11)**

# MÜNAFİQLƏRİN MÜSTAĞNİYYƏTİ

*Onlar özlərinin xoşlamadıqları qızları Allaha aid edirlər. Dilləri də yalandan ən gözəl aqibətin onların olacağını söyləyir. Şübhəsiz ki, od onlar üçün hazırlanmışdır və onlar orada tərk olunacaqlar. (Nəhl surəsi, 62)*

Allahdan qorxan insanlar, hər zaman hər mövzuda Allahın köməyini və dəstəyini gözləyərlər. Hz. Musa (ə.s)-ın Quranda xəbər verilən, **"Rəbbim, doğrusu mənə endirdiyin hər xeyirə möhtacam"** (Qəsas surəsi, 24) ifadəsi ilə nümunə verildiyi kimi, hər an bizi yaradan Allaha möhtac olduqlarını bilirlər. Məhz möminlərlə tamamilə zidd xüsusiyyətlər daşıyan münafiqlərin "müstağniyyəti" bu nöqtədə ortaya çıxar.

"Müstağniyyət" xəstəliyi tarix boyunca bütün kafirlərdə görülmüşdür. Allah, insanı cəhənnəmə sürükləyən bu xəstəliyə Quranın bir çox ayəsində işarə etmişdir. Xəstəliyin tarixi şeytanla başlamışdır. Özünü, yaradılmışların ən üstünü olaraq görmə ağılsızlığına sahib olan şeytanın müstağniyyətinin ilk əlaməti, Allah əmr etdiyi halda hz. Adəmə (ə.s) səcdə etməməsi olmuşdur. Bu çirkin rəftarının özünə görə izahı da, hz. Adəm (ə.s)-ın torpaqdan, özünün isə atəşdən yaradılmış olmasıdır.

**Ey insanlar! Sizə bir məsəl çəkilir. Onu dinləyin. Şübhəsiz ki, Allahdan başqa ibadət etdikləriniz bir milçək belə yarada bilməzlər, hətta bunun üçün bir yerə yığışsalar belə. Əgər milçək onlardan bir şey götürüb aparsa, bunu ondan geri ala bilməzlər. Bunu etmək istəyən də aciz qalar, istənilən də!.**

**(Həcc surəsi, 73)**

Ancaq münafiqlər, Allaha qarşı aciz olduqlarının fərqində deyildirlər. Daxilən şeytanınkına bənzər təkəbbür daşıyarlar. İnsanları aldada bildiklərini sandıqları üçün həm Allah Qatında, həm də möminlərin gözündə alçaldılmış olmalarına baxmayaraq, özlərini çox ağıllı və üstün görərlər. Həmişə doğru yolda olduqlarını düşünərlər. Qüsurlu və səhv ola biləcəklərinə əsla ehtimal verməzlər. Bütün bunlar da, əslində bir xəstəlik növünün əlamətləridir. Məhz bu xəstəliyin adı yuxarıda ifadə etdiyimiz kimi "müstağniyyət"dir.

Necə ki, Allah münafiqlərin qəlbində xəstəlik daşıyan insanlar olduqlarını və ikiüzlülükləri səbəbi ilə bu xəstəliklərinin artırıldığını bizə belə bildirir:

**İnsanlar arasında elələri də vardır ki, mömin olmadıqları halda: "Allaha və Axirət gününə inanırıq" – deyirlər. Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki yalnız özlərini aldadır və bunu anlamırlar. Onların qəlblərində xəstəlik vardır və Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə də ağrılı-acılı bir əzab çəkəcəklər.**

**(Bəqərə surəsi, 8-10)**

"Müstağniyyət" xəstəliyi tarix boyunca bütün kafirlərdə görülmüşdür. Allah insanı cəhənnəmə sürükləyən bu xəstəliyə Quranın bir çox ayəsində işarə etmişdir. Xəstəliyin tarixi şeytanla başlamışdır. Özünü, yaradılmışların ən üstünü görən şeytanın müstağniyyətinin ilk əlaməti, Allah əmr etdiyi halda hz. Adəmə (ə.s) səcdə etməməsi olmuşdur. Bu şəkildə davranmasının öz ağlına görə izahı da, hz. Adəmin (ə.s) torpaqdan, özünün isə atəşdən yaradılmış olmasıdır.

Bu səbəbdən dünya yaranandan bəri tarix səhnəsinə gələn hər inkarçı, şeytanla eyni xarakterik quruluşu daşıması etibarilə onun bu xüsusiyyətini də üzərində saxlayar. İnkarçıların bir qrupunu təşkil edən münafiqlər üçün müstağniyyət də, ilk olaraq şeytanın üzərində təcəlli edən bu müstağniyyətin eynisidir.

Müstağniyyətin ilk əlaməti, insanın, qəlbində xəstəlik olduğuna qəti olaraq inanmamasıdır. Necə ki, münafiqlər də (Qurandakı ifadə ilə) qəlblərində "**xəstəlik**" olduğuna heç bir şəkildə inanmazlar. Bu da xəstəliklərinin daha çox artmasına səbəb olur. Çünki özünü müstağni yəni qüsursuz, səhvsiz görən adam, pisliklərdən və günahlardan çəkinməz, buna ehtiyac duymaz. Necə ki, Allah Quranda, özünü müstağni görənin azğınlaşacağını xəbər verir. Ayələrdə belə buyurulur:

**Xeyr! İnsan, doğrudan da, həddini aşır -özünün ehtiyacsız olduğunu zənn etdiyinə görə. (Ələq surəsi, 6-7)**

Münafiqlərin içlərində yaşatdıqları müstağniyyətin müxtəlif əlamətləri və nəticələri də vardır. Bunlar, Quran ayələriylə ətraflı olaraq təsvir edilmişdir və bu istiqamətdə maddələr halında mövzuya aydınlıq gətirək.

## 1) Özlərini ayələrə qarşı məsul hiss etməzlər

Özlərini Allahın ayələrindən müstağni görən, yəni ayələrin öz vəziyyətlərini təsvir etdiyindən xəbərsiz olan inkarçı qruplarından biri münafiqlərdir. Quranı oxuduqları halda, özlərini bir çox ayənin hökmündən uzaq görürlər. Məsələn, cəhənnəmi təsvir edən ayələr mömin olanların qorxusunu artırır, çünki Allahın razılığını itirmə və cəhənnəmə girmə ehtimalı hər zaman vardır. Ancaq münafiq olanlar, özlərini qəti olaraq cənnətə layiq gördükləri üçün bu ayələr onların üzərində heç bir təsir oyandırmaz. Bu istiqamətdə, bir çox ayənin əslində tam olaraq onlara xitab etdiyini görə bilməz və anlaya bilməzlər.

Möminə ayələr xatırlandığı, ayələrlə nəsihət edildiyində, qorxusu artar, böyük səmimiyyət göstərərək, ayələrə əməl edər. Münafiqə ayə xatırladıldığında isə, demək olar ki, ayələri eşitmirmiş kimi davranar. Allahın hikmətli sözlərindən əsla öyüd alıb düşünməzlər:

**Onlara nə olub ki, nəsihətdən üz döndərirlər? (Müddəssir surəsi, 49)**

Həmçinin münafiqlərin ən diqqətə çarpan xüsusiyyəti inanclarının yalnız dillərində olmasıdır. Necə ki, ayələrə uyma mövzusunda da bu saxtakar üzləri ortaya çıxar. Allahın ayələri barəsində nə qədər laqeyd olduqları və hətta ayələrin hökmlərindən mümkün qədər uzaq dayanmağa çalışdıqlarını Allah müxtəlif ayələrlə bildirmişdir:

**Sənə nazil edilənə və səndən əvvəl nazil edilənlərə iman gətirdiklərini iddia edənləri görmədinmi? Onlar mühakimə olunmaları üçün tağuta müraciət etmək istəyirlər. Halbuki onlara tağuta inanmamaq əmr olunmuşdur. Şeytan isə onları dərin bir azğınlığa salmaq istəyir. Onlara: "Allahın nazil etdiyinə və Elçisinə tərəf gəlin!" – deyildikdə, münafiqlərin səndən nifrətlə üz çevirdiklərini görürsən. (Nisa surəsi, 60-61)**

**Kitabdan özlərinə bir pay verilmiş kəsləri görmədinmi? Onlar, aralarında hökm versin deyə, Allahın Kitabına dəvət olunurlar, sonra da onlardan bir dəstə haqdan üz çevirir. (Ali İmran surəsi, 23)**

## 2) Özlərini çox ağıllı zənn edərlər

Münafiqlər əslində ağıl sahibi olmadıqları halda "öz ağıllarına" gərəyindən çox güvənərlər. İçində olduqları vəziyyətin nə qədər dəhşətli olduğunun fərqinə varmazlar. Etdikləri hər hərəkətin, verdikləri hər qərarın həmişə ən doğrusu olduğu zənni ilə yaşayarlar. Xüsusilə də din əxlaqı mövzusunda tək camaat olaraq öz doğrularını görürlər. İçlərində daşıdıqları bu yanlış məntiq səbəbi ilə, möminlərin səhv yolda olduğunu belə düşünürlər. Necə ki, bu məntiqsiz düşüncələri ayədə belə bildirilir:

**O zaman münafiqlər və qəlbində xəstəlik olanlar dedilər: "Bunları öz dinləri aldatdı!" Kim Allaha təvəkkül etsə, bilsin ki, Allah Qüdrətlidir, Müdrikdir! (Ənfal surəsi, 49)**

Ayədən də aydın olduğu kimi, yalnız özlərinin doğru yolda olduqlarını zənn etdikləri üçün, möminlərin ağlını da bəyənməzlər. Halbuki möminlər dünyada Allahın "ağıl" verdiyi yeganə insan birliyidir. Buna baxmayaraq özlərini hər kəsdən üstün görən münafiqlərə, din əxlaqını yaşamaq mövzusunda ağıl sahibi möminlər nümunə verildiyində, onların ağlını bəyənmədiklərini açıq şəkildə ifadə edərlər. Münafiqlərin möminlər haqqındakı bu yanlış zənni və əslində özlərinin nə qədər "yazıq" mövqedə olduqları bir ayədə belə buyurulur:

**Onlara: "Bu insanlar iman gətirdiyi kimi siz də iman gətirin!" – deyildiyi zaman: "Biz də səfehlərin iman gətirdikləri kimi iman gətirək?" – deyirlər. Doğrusu, onlar özləri səfehdirlər, lakin bunu bilmirlər. (Bəqərə surəsi, 13)**

Ayədə bildirildiyi kimi münafiqlərin ağılları əksikdir, çünki çox qatı yalanlar söylədikləri, əsassız tələlər qurduqları halda möminlərin bunları anlamadığını, elçinin onların bu oyunlarını ortaya çıxara bilməyəcəyini zənn edirlər. Ancaq Allah zamanı gəldiyində nə qədər kiçik vəziyyətə düşdüklərini onlara da, digər insanlara da göstərir.

### 3) Müvəffəqiyyətli olduqlarını düşünürlər

Münafiqləri mömin birliyinin içində ikən onlardan ayıran digər tərəfləri də din əxlaqını yaşamaq mövzusunda həmişə laqeyd olmalarıdır. Quranda münafiqlərin özlərini mümkün qədər mömin birliyinin mübarizəsində geridə tutmağa çalışdıqları, ağır davrandıqları belə bildirilir:

**İçərinizdə elələri də var ki, cihada çıxdıqda özlərini yubandırar və sizə bir müsibət üz vermiş olduqda: "Allah mənə mərhəmət göstərdi ki, mən onlarla birlikdə bəlaya düçar olmadım" – deyər. (Nisa surəsi, 72)**

Allaha və Onun Elçisinə təslim olmamaqla, mübarizə aparmamaqla, infaq etməməklə və daha bir çox ibadət etməməklə özlərini "müvəffəqiyyətli" zənn edən münafiqlər, bu ibadətləri yerinə yetirsələr itkiyə düçar olacaqlarını düşünürlər. Bu səbəbdən Allahın razılığını axtarmadıqları və özlərini müstağni gördükləri üçün, bu ibadətləri etmək onlara çətin gəlir.

Münafiqlərin özlərini geri tutmaqla mənfəət əldə etdiklərini zənn etdikləri, halbuki böyük itkiləri olduqları bir neçə mövzunu bu cür sıralaya bilərik:

#### a) Mübarizədən qaçdıqları üçün:

Münafiqlər ölümdən çox qorxarlar. Dünya həyatına şiddətlə bağlı olduqları üçün, ölümün düşüncəsi belə onları narahat edir. Ölümün Allahın əmri olduğunu, onlara düşən ölüm gələnə qədər ixlasla ibadətlərini davam etdirmək olduğunu düşünməzlər. Necə ki, Allah Quranda Peyğəmbərimiz (s) dövründəki münafiqlərin bu vəziyyətlərini xəbər vermişdir. Onlar döyüşə

getməyərək də, öz ağıllarına görə ölüm ehtimalını ortadan qaldırdıqlarını zənn etmişlər. Bu səbəbdən bir bəhanə taparaq döyüşə çıxmamalarını öz düşüncələrinə görə ağıllı hərəkət kimi qiymətləndirmişlər. Döyüşdən geri qaldıqları üçün gizlətdikləri sevinci də Allah Quranda möminlərə xəbər verir. Ayədə belə buyurulur:

**Döyüşə getməyib arxada qalanlar Allahın Elçisinin əleyhinə çıxaraq evdə qalmalarına sevindilər... (Tövbə surəsi, 81)**

Halbuki münafiqlər səthi düşünən insanlar olduqları üçün bunu heç ağıllarına gətirməzlər; ölüm insanı hər yerdə yaxalayar. Təhlükədən qaçaraq geridə qalan adamın, evində oturarkən ölməyəcəyinə heç bir zəmanəti yoxdur. Amma əvvəl də ifadə etdiyimiz kimi münafiqlər, içində olduqları səthiliyi qavraya biləcək anlayışa sahib deyildirlər. Bu səbəbdən də müvəqqəti qurtuluşu, daha doğrusu qısa müddətli yubanmağı özlərinə qazanc olaraq görərlər.

**b) Möminlərlə birlikdə olmadıqları üçün:**

Allah mömin birliyini xeyirlə də, şərlə də sınaqdan keçirəcəyini bildirir. Möminlər dünyada axirəti qazanmaq üçün imtahandan keçirilir. Buna görə qarşılarına bəzən xeyirli görünən, bəzən də şər kimi görünən, amma Allahın nəticəsini möminlərin xeyrinə çevirdiyi müxtəlif hadisələrlə qarşılaşırlar. Bunun imtahanın bir sirri olduğunun fərqinə vardıqları üçün hər zaman eyni şövq və səylə Allahın razılığını qazanma yarışı içərisindədirlər. Əsla ümidsizliyə, qorxuya düşməzlər.

Ancaq mömin birliyinin arasında imtahanın sirrini qavraya bilməmiş və hadisələri yalnız zahiri (səthi) olan istiqamətiylə qiymətləndirən bir qrup vardır ki, bunlar münafiqlərdir. Münafiqlər bir az əvvəl də bəhs etdiyimiz kimi özlərini hadisələrdən mümkün olduğu qədər geridə tutmağa çalışırlar. Hətta imkanları varsa mömin birliyindən də əllərindən gəldiyi qədər uzaq dururlar. Bunun səbəbi, möminlərin qarşılaşdıqları çətinliklərlə qarşılaşmaq istəməmələridir. Necə ki, xüsusilə döyüş zamanlarında münafiqlərin, möminləri mümkün qədər uzaqdan izləməyi üstün tutduqlarını keçmişdəki nümunələriylə Allah möminlərə xəbər vermişdir:

**Münafiqlər müttəfiqlərin çıxıb getmədiklərini güman edirlər. Əgər müttəfiqlər bir də gəlmiş olsaydı, onlar bədəvilər arasında köçəri həyat sürüb barənizdəki xəbərləri soruşub öyrənmək istəyərdilər. Hərgah aranızda olsaydılar, ancaq azacıq döyüşərdilər. (Əhzab surəsi, 20)**

Və yenə bir başqa ayədə, möminlərdən uzaqda qalmağa, onların başlarına gələn hadisələrdən bunlara təsiri olmamasına çalışan münafiqlərin necə xeyir əldə etdiklərini düşündükləri belə bildirilir:

**Sənə bir uğur nəsib olsa, bu onları kədərləndirər. Sənə bir müsibət üz versə: "Biz ehtiyat tədbirimizi əvvəlcədən görmüşük!" – deyər və sevinə-sevinə çıxıb gedərlər. (Tövbə surəsi, 50)**

**c) Allahın elçisinə itaət etmədikləri üçün:**

Allahın elçisinə itaət edən mömin, Allahı və Onun kitabını hər şeydən üstün tutur deməkdir. Çünki Allaha və Qurana itaət, elçiyə də itaət etmək deməkdir. Allaha könüldən bağlı və itaətli olan möminlər, elçiyə də eyni bağlılığı və itaəti göstərirlər. Allahın elçisi, onlar üçün öz canlarından, öz nəfslərindən daha qiymətlidir. Quranda Peyğəmbərimizi (s) canları bahasına qoruyan, onunla birlikdə döyüşə gedərək, onun nəfsini öz nəfslərindən üstün tutan möminlərdən bəhs edilir.

O dövrün münafiqləri isə döyüşə getməmiş və Peyğəmbərimizi (s) qorumaq məcburiyyətində qalmadıqları üçün özlərini son dərəcə qazanclı və ağıllı saymışlar. Döyüşə qatılan, ancaq qorxub geri dönən münafiqlər isə hz. Məhəmmədin (s) onları çağırmasına qulaq asmamış və arxalarına baxmadan qaçmışlar:

**O zaman Peyğəmbər arxanızdan (düşmənə yaxın olan sıralardan) sizi çağırdığı halda siz heç kimə əhəmiyyət vermədən düşməndən qaçırdınız... (Ali İmran surəsi, 153)**

Bu qaçışın onları qurtardığı qənaətindədirlər. Halbuki Peyğəmbərimizin (s) əmrindən çıxdıqları üçün, çox böyük səhvə yol vermişlər, Allahın narazılığını qazanmışlar və bu səbəbdən sonsuz əzaba məhkum olmuşlar.

### 4) "Yaxşı niyyətli" olduqlarını iddia edərlər

Münafiqlər fitnə və nifaq mövzusunda sanki bir-birləriylə yarışarlar. Ancaq möminlərdən çəkindikləri üçün etdikləri hər fitnə-fəsad ortaya çıxdığında and içərək, əslində "yaxşı niyyətli" və barışdırıcı olduqlarına möminləri inandırmağa çalışarlar. Etdikləri hər pozğunçuluqda xüsusilə elçiyə gedərək etdikləri şeyin yaxşı niyyətli olduğuna onu inandırmaq üçün səy göstərərlər. Bunun açıq nümunəsini Quranda görmək mümkündür:

**Öz əlləri ilə törətdikləri əməllərə görə onlara müsibət üz verdikdən sonra sənin yanına gəlib: "Biz ancaq yaxşılıq etmək və mübahisə edənləri barışdırmaq istədik!" – deyə Allaha and içdikdə onların halı necə olacaq? Onlar o kəslərdir ki, Allah onların qəlblərində olanı bilir... (Nisa surəsi, 62-63)**

Əlbəttə ayədə də ifadə edildiyi kimi, Allah, onların yalan söylədiklərini və qəlblərində nələr gizlətdiklərini çox yaxşı bilir. Və bunu "dilədiyi zamanda" mütləq ortaya çıxarar. Elçisini də onların bu vəziyyətindən xəbərdar edər.

## Özlərini tərifləyərək təmizə çıxarmağa çalışırlar

**Özlərini öyənləri görmürsənmi? Xeyr! Allah istədiyini tərifləyər... (Nisa surəsi, 49)**

Münafiqlər üçün insanların razılığının nə qədər əhəmiyyətli olduğunu vurğulamışdıq. Necə ki, insanların razılığını qazana bilmək məqsədilə, yuxarıdakı ayədə də bildirildiyi kimi dayanmadan özlərini tərifləyərlər.

Etdikləri bütün səhvləri örtməyə, gizlətməyə və əgər səhvləri ortaya çıxarsa da müxtəlif bəhanələrlə özlərini təmizə çıxarmağa çalışarlar. Üstəlik, özlərini (heç elə olmadıqları halda) insanlara qarşı təqvalı olaraq tanıtmağa diqqət göstərərlər.

Ancaq əlbəttə ki, bu cəhdləri də ancaq özləri kimi olanlar arasında müvəffəqiyyətli olar. Səmimi möminlər onların bu ikiüzlü rəftarlarını çox keçmədən analiz edir və ona görə lazım olan qarşılığı verirlər.

## 5) Onlara öyüd verilməsinə dözə bilməzlər

Kitabın əvvəlindən bəri üzərində dayandığımız kimi münafiqlərin ən əhəmiyyətli xüsusiyyətlərindən biri şeytani təkəbbürləridir. Bu təkəbbür içlərində o dərəcə böyümüşdür ki, heç bir mövzuda qüsurlu olduqlarını, səhv olduqlarını qəbul etməzlər. Əgər bir qüsurları, ya da səhvləri üzlərinə deyilsə də bunu söyləyən adama qarşı böyük qəzəb duyarlar.

Ancaq möminlərin və xüsusilə elçilərin ən əhəmiyyətli xüsusiyyətləri "yaxşılığı əmr edib və pislikdən çəkindirmək"dir. Yəni inananlar davamlı olaraq bir-birlərinə öyüd verir, səhvlərini, qüsurlarını aradan qaldırmağa çalışırlar. Münafiqlər də mömin birliyinin içində olduğu üçün onlar da möminlərin Allahın razılığını qazanmaq üçün tətbiq etdiyi bu ibadətlə tez-tez təmasda olurlar.

Özlərini qüsursuz görən münafiqlərin, verilən nəsihət qarşısında qəzəbə qapıldıqlarını, hz. Məhəmməd (s) dövründə yaşamış münafiqlərin bəhs edildiyi ayələrdə görürük. Qurandan onlara edilən xatırlatmalar qarşısında elə azğınlaşmışlardır ki, **"... öz baxışları ilə az qala səni gözə gətirələr..."** (Qələm surəsi, 51) ayəsində ifadə edildiyi kimi, Peyğəmbərimizə (s) duyduqları kini, qəzəbi, nifrəti gizləməyə belə ehtiyac görməmişlər, bunu baxışlarıyla açıq şəkildə ortaya qoymuşlar.

Şübhəsiz bu, Peyğəmbərimizin (s) onlara nəsihətlər verməsinə görədir. Əgər elçi onlara ölümün yaxınlığı, axirətdəki cəhənnəm əzabının şiddəti, Qurana müxalif olanların dünyadakı və axirətdəki vəziyyətləri kimi əhəmiyyətli mövzuları xatırlatmasaydı və onları bütün qövmə qarşı tərifləsəydi, şübhəsiz münafiqlər elçiyə qarşı kin duymazdılar. Lakin Allahın dəyişməz qanunu olaraq elçilər, öz öhdələrinə düşəni qüsursuz şəkildə yerinə

yetirər və kim olursa olsun yaxşılığı əmr edib, pislikdən çəkindirməyə davam edərlər.

### 6) Özlərini Allahın əzabından uzaq görürlər

**...Və öz-özlərinə: "Bəs niyə Allah bizi dediklərimizə görə cəzalandırmır?" - deyirlər. Cəhənnəm onlara yetər. Onlar orada yanacaqlar. Ora necə də pis dönüş yeridir. (Mübarizə surəsi, 8)**

Etdiklərini davam edib və heç bir şəkildə imtina etməmələrinin bir səbəbi də "heç vaxt bəla gəlməz" zənn etmələridir. "Bəla gələcək olsaydı indiyə qədər gələrdi" şəklində səhv məntiqə sahibdirlər. Halbuki bu tamamilə onların zənnidir, çünki Allahın qaydaları çox fərqlidir. O istəsə dərhal bəla verər, istəsə də müəyyən bir vaxta qədər möhlət verər.

Üstəlik münafiqlər, düşündüklərinin əksinə davamlı bəlaya uğrayırlar, lakin fərqində deyildirlər. Danışıqlarında və baxışlarında pozulma olması, ağılla düşünə bilməmələri, həmişə davam edən narahatlıq, təvəkkül edə bilməməkdən qaynaqlanan daimi stress, gözəlliklərdən zövq ala bilməmə və nemətin dəyərini bilməmə onların üzləşdikləri bəlalara nümunədir.

Allah onlardan bəzisinin ölümünü isə təxirə salar, beləcə dünyadakı inkarlarının artması üçün onlara müddət verir. Bununla birlikdə cəhənnəmdə görəcəkləri əzabın şiddəti də, eyni nisbətdə artmış olur:

**Onların malları və övladları səni təəccübləndirməsin; Allah bunlarla, ancaq onları dünyada azablandırmak və canlarının kafir olduqları çətinlik içində çıxmasını istəyir. (Tövbə surəsi, 85)**

### 7) Sahib olduqları dünyəvi dəyərlərin onları qoruyacağını zənn edərlər

Bu insanların sahib olduqları dünyəvi dəyərlərdən ötrü üstünlük qazandıqlarına və onlara olan səthi güvənlərini bunlardan əldə etdiklərinə

daha əvvəl də toxunmuşduq. Ailələri və sahib olduqları mal-mülk xüsusilə güvəndikləri dayaqların başında gəlir.

Ailələrinin və sahib olduqları maddi dəyərlərin onları dünyada da, axirətdə də qoruyacağını düşünür və bu şəkildə özlərini rahatladırlar. Dünyada Allahdan gələcək bəlaya qarşı, dünyanın ən nüfuzlu, ən zəngin insanlarının belə mane olmağa gücü çatmayacağının fərqində deyildirlər. Buna görə də çox mənasız müstağniyyət içindədirlər.

Halbuki güvəndikləri hər şeyin bir-bir yox olduğuna şahid olacaqlar. Hesab günündə yanlarında nə ailələri, nə də dünyada ikən sahib olduqları dəyərlər olmayacaq. Tam tərsinə, orada tək tənha və köməksiz qalacaqlar. Üstəlik, bu sayılanların dünyada da onlara fayda vermədiyini, Allahın verdiyi müxtəlif müsibətlərlə anlayacaqlar.

Münafiqlər, daha əvvəl də bəhs edildiyi kimi, din əxlaqını qəbul etməməklə, mömin birliyindən uzaqlaşmaqla özlərini qazancda zənn edərlər. Bunun sayəsində nəfslərinin istəklərinə "rahat-rahat", "dilədikləri kimi" yaşaya biləcəklərini sanırlar. Ölümün, ya da hər hansı xəstəliyin, bəlanın onlara çatmayacağı, uzun illər təhlükəsizlik və hüzur içində yaşaya biləcəkləri düşüncəsindədir. Halbuki tam tərsinə bəlalar, çətinliklər və xəstəliklər onlardan əl çəkməz. Necə ki, Allah möminlərə, dindən dönənlərə dünyada da, axirətdə də sıxıntı verdirəcəyini ayələriylə belə müjdələmişdir:

**Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq və Biz Qiyamət günü onu kor kimi hüzurumuza gətirdəcəyik. (Taha surəsi, 124)**

## 8) Cənnətə layiq olduqlarını zənn edərlər

Münafiqlərin daşıdıqları xüsusiyyətlərdən biri də axirət inanclarının çox zəif və yanlış olmasıdır. Bir çoxu öldükdən sonra dünyada işlədikləri cinayətlərin hesabını verəcəklərinə inanmaz; buna ehtimal versə belə etməli olduğu hər şeyi etdiyini zənn etdiyi üçün özünü "cənnətə layiq" olaraq görür. Bu yanlış zənləri Quranda belə nümunə ilə göstərilmişdir:

**O Saatın gələcəyini də zənn etmirəm. Rəbbimin yanına qaytarılmalı olsam, sözsüz ki, bundan daha firavan bir həyat qismətim olacaq! (Kəhf surəsi, 36)**

Öz çürük məntiqinə görə "necə olsa mömin birliyi ilə bərabərdir, yaxşı-pis etdiyi bəzi xidmətlər də vardır. O halda axirətdə bunların qarşılığını görəcək və mütləq cənnətə girəcək. Və ya ən pis ehtimalla cəhənnəmdə cəzasını çəkib yenə cənnətə girəcək". Allah münafiqlərin bu gerçəkdən uzaq zənlərini Quranda belə bildirir:

**Bu, onların: "Od bizə ancaq bir neçə gün toxunar!" – demələrinə görədir. Onları uydurduqları şeylər öz dinlərində aldadıb yoldan çıxartdı. (Ali İmran surəsi, 24)**

Halbuki ayədə də ifadə edildiyi kimi, bu böhtandır və bundan ötrü münafiqlər, dinləri mövzusunda səhv fikrə düşmüşlər. Yuxarıdakı ayənin davamından gələn ayədə bu səhv fikirləri nəticəsində hansı vəziyyətlə qarşılaşacaqlarına da belə hökm verilir:

**Baş verəcəyinə şübhə edilməyən bir gündə onları topladığımız və hər kəsə qazandığının əvəzi ödəniləcəyi, özlərinə də heç bir haqsızlıq edilməyəcəyi zaman onların halı necə olacaq? (Ali İmran surəsi, 25)**

# MÜSTAĞNİYYƏT XƏSTƏLİYİNİN GƏTİRDİYİ ZƏRƏRLƏR

*...Münafiq kişi və münafiq qadınlara, müşrik kişi və müşrik qadınlara əzab versin. Onların pis niyyəti özlərini bəlaya salsın! Allahın onlara qəzəbi tutmuşdur. Allah onları lənətləmiş və onlar üçün Cəhənnəm hazırlamışdır. Ora nə pis dönüş yeridir. (Fəth surəsi, 6)*

Müstağniyyət münafiqlər üçün tək başına bəla qaynağıdır. Ancaq əvvəlki hissələrdə də bəhs etdiyimiz kimi özləri çox vaxt bu bəlaların fərqində deyildirlər. Hətta o dərəcə müstağnidir ki **"...Bəs niyə Allah bizi dediklərimizə görə cəzalandırmır?..."** (Mübarizə surəsi, 8) deyəcək qədər irəli gedə bilərlər. Ancaq daha əvvəl də üzərində dayandığımız kimi, özləri açıq şəkildə görülən bir müsibət gözləyərkən əslində saysız müsibətə uğramışlar və fərqində deyildirlər.

Necə ki, istər fiziki, istərsə də mənəvi olaraq müxtəlif zərərlər görərlər. Allah ayələrində münafiqlərin uğradıqları bu zərərlərdən bəhs etmişdir. İndi bunları maddələr halında araşdıraq.

## 1) Ağılları bağlanar:

Bir insanın sahib ola biləcəyi ən əhəmiyyətli dəyərlərdən biri ağıldır. Ağılsız insan çox zavallı mövqedədir; ancaq ağılsız olduğu üçün bunun belə fərqinə vara bilməz. Zəka ilə ağlı bir-birinə qarışdırar və rəftarlarında, qərarlarında isabətsizlikləri təsbit edə bilməz.

Münafiqlər üçün də eyni şey keçərlidir. Münafiq müəyyən bir zəkaya sahib ola bilər, amma əsla Allahın yalnız səmimi möminlərə nəsib etdiyi, "doğrunu səhvdən ayıran anlayış qazandıran" ağla sahib deyil. Beləcə ən böyük nemətlərdən birindən məhrum qalmış olur.

Ağıl, insanın ən böyük ehtiyaclarındandır. İnsan həyatının hər anında ağla möhtacdır. Yaxşını pisdən ayırd edə bilmək, pislikdən özünü çəkindirə bilmək üçün ağıllı olması əsas şərtdir. Münafiqin dünyaya olan bağlılığı ağlının bağlanmasına səbəb olmuşdur. Bu səbəblə ən asan ağılla qərar verə

biləcək mövzularda belə müvəffəqiyyət göstərə bilməz. Münafiqlərin bu ağılsızlıqlarının ən böyük dəlili, etdiklərini Allahın görmədiyini zənn etmələridir. Bundan ötrü möminləri aldatmağa çalışırlar və aldada bildiklərinə də inanırlar. Quranda Allah onlara belə səslənər:

**Məgər onlar bilmirlər ki, Allah onların gizli saxladıqlarını və aşkara çıxartdıqlarını bilir? (Bəqərə surəsi, 77)**

Digər ağılsız iddiaları, Allahın öz vəziyyətlərini ortaya çıxarmayacağını zənn etmələridir. Halbuki Allah tarix boyunca yaşamış olan bütün münafiqləri din günündə toplayar və hamısını cəzalandırar. Hesab günündən əvvəl dünyada da ağılsız olmaları onları alçalmış edər.

**2) Ayələri qavraya bilməzlər:**

Səmimi müsəlmanların ən əhəmiyyətli xüsusiyyətlərindən biri Quranda, **"Onlara Rəbbinin ayələri xatırlandığı zaman o ayələrə qarşı kar və kor kimi davranmazlar."** (Furqan surəsi, 73) ayəsiylə də ifadə edildiyi kimi, Allahın ayələrinə qarşı çox həssas olmalarıdır. Hər mömin Qurandakı bütün ayələrin onu maraqlandırdığını, heç birindən uzaq və müstəqil ola bilməyəcəyini bilir. Ancaq bu ruh halına sahib ola bilmənin çox əhəmiyyətli şərti vardır. İnsan çox təvazökar olmalı, özünü heç bir səhv və qüsurdan münəzzəh və müstağni görməməlidir. Bu gerçək səmimiyyət və təvazökarlıq olduğunda Allah ayələrinin mənasını insanın qəlbinə yerləşdirər.

Səmimiyyətdən uzaq olan və içlərində fövqəladə qürur daşıyan münafiqlər isə, müstağniyyətlərinə görə bu qavrayışa əsla sahib ola bilməzlər. Həmişə elçinin təbliği ilə təmasda olduqları halda, onun söylədiklərindən tək bir sözü belə qavramağa qadir deyillər. Bu anlayışsızlıqları Quranda belə bildirilir:

**Şübhəsiz ki, sən nə ölülərə haqqı, nə də üz çevirib gedən karlara çağırışı eşitdirə bilməzsən. Sən korları da düşdükləri zəlalətdən çıxarıb düz yola sala bilməzsən. Sən haqqı yalnız və yalnız müsəlman olub ayələrimizə iman gətirənlərə eşitdirə bilərsən. (Rum surəsi, 52-53)**

Elçinin sözlərinə tabe olmayan münafiqlərin Allahın ayələrini də anlaya bilməyəcəkləri, müstağniyyətlərinə görə qavrayışlarının qapadıldığı yenə Quran ayələriylə belə bildirilir:

**Rəbbinin ayələri yadına salınarkən onlardan üz döndərən, əvvəlcə öz əlləri ilə etdikləri günahlarını unudan adamdan daha zalım kim ola bilər? Quranı anlamasınlar deyə, Biz onların qəlbinə örtüklər çəkdik, qulaqlarına da tıxac vurduq. Sən onları doğru yola çağırsan da, onlar heç vaxt doğru yola gəlməzlər. (Kəhf surəsi, 57)**

Yenə içlərində bəslədikləri "müstağniyyət xəstəliyi"nin nəticəsi olaraq Allahın kitabını qavraya bilmədikləri kimi, müxtəlif ayələri də səhv yozurlar. Bunun səbəbi içlərində daşıdıqları qürur və "qıt" ağıllarına olan mənasız güvənləridir. Allah onların ayələri yanlış şərh edərək mömin birliyi içində fitnə çıxarmağa çalışacaqlarını möminlərə Quranda əvvəldən xəbər verərək möminləri münafiqlərin bu xəstəliyinə qarşı belə xəbərdar edir:

**Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi mənası aydın ayələrdir ki, bunlar da Kitabın anasıdır. Digərləri isə mənası aydın olmayan ayələrdir. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər. Onun yozumunu isə Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə deyərlər: "Biz onlara iman gətirdik, hamısı bizim Rəbbimizdəndir". Bunu isə ancaq ağıl sahibləri dərk edərlər. (Ali İmran surəsi, 7)**

**3) Allah mənəvi istiqamətdən müxtəlif bəlalar isabət etdirər:**

Allaha qarşı təkəbbürlənən və özlərini müstağni görən insanlara Allah mənəvi istiqamətdən də müxtəlif çətinliklər daddırar və bu dünyada ayədə bildirildiyi kimi onlara "sıxıntılı həyat" verər. Münafiqlər, mənəvi olaraq verilən bu çətinliklərin haradan qaynaqlandığını da qavraya bilməzlər və səbəbini heç cür anlaya bilmədikləri depressiyadakı həyatlarını davam etdirərlər.

İlk olaraq səbəbini analiz edə bilmədikləri narahatlığı davamlı saxlayarlar. Əslində bu narahatlılıqlarının səbəbi çox aydındır.

Hər insanın nəfsində pislik vardır. Ancaq hər kəs pisliyi bildiyi kimi, ondan çəkinməyi də bilir. Çünki Allah nəfsə günah və pisliyi verərkən aşağıdakı ayədə ifadə edildiyi kimi “ondan çəkinməyi” da ilham etmişdir:

**And olsun nəfsə və onu yaradıb kamilləşdirənə, ona günahları və Allahdan qorxmağı təlqin edənə! Nəfsini günahdan təmizləyən uğur qazanmışdır. Onu günaha batıran isə ziyana uğramışdır. (Şəms surəsi, 7-10)**

Göründüyü kimi, nəfsin içində necə ki, insanı pisliyə çağıran varsa, eyni zamanda onu dayanmadan yaxşılığa çağıran vicdan da var. Nəfsin səsi şeytanın, vicdanın səsi isə haqqın səsidir. Münafiqlər, davamlı olaraq vicdanlarının səsini eşitməzlikdən gələrək, nəfslərindəki pislikləri ön plana çıxararlar. Məhz bu nöqtədə böyük ruhi qarşıdurmaya girmiş olurlar və bunun nəticəsi olaraq da içlərində daimi narahatlıq yaşayarlar.

Səbəbini heç cür analiz edə bilmədikləri bu hüzursuzluqla bərabər, həmişə narahatlıq və qorxunu da içlərində saxlayarlar. Bütün bu qorxu və qayğıların arxasında duran səbəb, Allaha olan uzaqlıqları, hər şeyin Onun nəzarəti altında olduğunu qavraya bilməmələridir. Əksinə hadisələri özləri idarə etdiklərini zənn etdikləri üçün hər təfərrüatı ayrı-ayrı hesablamalı olduğuna inanırlar.

Məsələn, bütün inkarçılar üçün olduğu kimi münafiqlər üçün də necə yaşayacaqları, insanları necə məmnun edəcəkləri, sağlamlıqlarını necə qoruyacaqları, heç bir xəstəliyə tutulmamağı necə bacaracaqları kimi bir çox dünyəvi narahatlıq verən fikirləri həmişə onları məşğul edən mövzulardır. Təbii ki, hamısı bununla da bitməz; hadisələrin heç də öz düşündükləri kimi getmədiyini görüncə çaxnaşmaya qapılaraq, dünyanın arxasından daha çox qaçmağa başlayarlar. Bu vəziyyət öldükləri ana qədər davam edər. Təvəkkül edib, işlərini Allaha buraxmadıqları, Ona möhtac olduqlarını qəbul edə bilmədikləri üçün, stress və narahatlıq da onlardan əl çəkməz. Narahat ruh quruluşları Quranda bu şəkildə təsvir edilir:

**... Hər çağırışı öz əleyhinə sanarlar... (Munafiqun surəsi, 4)**

Bütün bu narahatlıqları ilə yanaşı, bir də özlərini sevdirmək, insanları razı etməyə istiqamətli səyləri onları daha da pis bir vəziyyətə salar. Çünki dayanmadan pis iş görən, günaha batıb yara alan münafiqlər, əslində bir çox adam tərəfindən də sevilməz. Möminlərin nifrətini qazandıqları kimi, ətraflarındakı digər şəxslərin də antipatiyasını qazanar və hətta olduqca sevimsiz görünərlər. Allah onları insanlara sevimsiz göstərməklə, sevdirməməklə əslində qarşılaşa biləcəkləri ən böyük bəlalardan birini vermiş və onları dünyada da, axirətdə də tək-tənha buraxmış olar.

Allahın sevmədiyi kimi, kimsənin də xoşlanmadığı bu insanlar, (heç olmadıqları halda) özlərini böyük göstərməyə çalışaraq, durmadan öyünərək, əslində son dərəcə alçalmış vəziyyətə düşər və çevrələri tərəfindən aşağı görülərlər. Bu səbəbdən insan olaraq həqiqi hörmət və dəyər görməzlər, fikirlərinə də heç bir şəkildə əhəmiyyət verilməz. Dünyada və axirətdə alçalmış vəziyyətdə olacaqları Quran ayələriylə də xəbər verilir:

**...Onlar üçün dünyada rüsvayçılıq, axirətdə də böyük bir əzab vardır. (Bəqərə surəsi, 114)**

**...Yoxsa siz Kitabın bir qisminə inanıb, bir hissəsini inkarmı edirsiniz? Sizlərdən bunu edənin cəzası dünya həyatında rüsvay olmaq, Qiyamət günü isə ən şiddətli əzaba məhkum olmaqdır... (Bəqərə surəsi, 85)**

**4) "Necə olsa bağışlanarıq" deyə düşünürlər:**

**...Onlar bu fani dünya malını alıb: "Biz bağışlanacağıq!" – deyirdilər... (Əraf surəsi, 169)**

Münafiqlər qəlblərində daşıdıqları "müstağniyyət xəstəliyi" səbəbi ilə Allahın onları çox sevdiyi, bir xeyir olduğunda mütləq onlara verəcəyini düşünərlər. Etdikləri o qədər şeytani davranışı əslində yaxşı niyyətlə etdiklərini müdafiə edirlər. Yuxarıdakı ayədə də bildirildiyi kimi "əgər pis bir şey ediriksə, necə olsa bağışlanarıq" deyə düşünürlər. Bu, onların Allahı tanımamaları, Onun ədalətini təqdir edə bilməmələrindən qaynaqlanır.

Halbuki Allah, pisliyin qarşılığını mütləq verəndir. Münafiqlər isə dünyada etdiklərini yetərli görmələri səbəbi ilə axirətdə böyük hüsrana uğrayacaqlar. Onlar ətrafda mömin birliyi ilə bərabərdirlər, müxtəlif fəaliyyətlər göstərə bilərlər, amma qəlblərində daşıdıqları xəstəlik səbəbi ilə axirətdə bütün etdiklərinin boşa çıxdığını görəcəklər. Ancaq yenə müstağniyyətləri onların bunu dünyada qavramalarına mane olar. Axirətdə qarşılaşacaqları vəziyyət isə ayələrdə belə izah edilir:

**De: "Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi? O kəslər haqqında ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər. (Kəhf surəsi, 103-104)**

**5) Müstağniyyətin gətirdiyi fiziki zərərlər:**

Münafiqlərin, etdiklərinin səbəb olacağı nəticələrdən xəbərsiz olduqlarını daha əvvəl də vurğulamışdıq. Onlar zərər görəcəklərini düşünməz, ayədə bildirildiyi kimi "yaxşı işlər gördüklərini zənn etdikləri" üçün onlara edilən xəbərdarlıqlar və xatırlatmalar onları olduqca təəccübləndirir. Öz zəif ağıllarına görə qarşılarındakı möminlərin səhv davrandıqlarını, "günahsız" insanları gərəksiz yerə xəbərdar etdiklərini düşünürlər. Elçinin və möminlərin onları anlaya bilmədiklərini, təqdir edə bilmədiklərini zənn edərlər. Lakin xüsusilə elçi onların qəlblərindəki xəstəliyi istər xarici görünüşlərindən, istərsə düzgün olmayan danışıq üslublarından asanlıqla anlaya bilir. Necə ki, Allah ayəsində elçinin onları tanıya biləcəyini belə xəbər verir:

**Əgər Biz istəsəydik, onları sənə göstərərdik, sən də onları üzlərindəki əlamətlərdən tanıyardın. Sən onları danışıq tərzlərindən mütləq tanıyacaqsan. Allah sizin əməllərinizi bilir. (Məhəmməd surəsi, 30)**

Halbuki "müstağniyyət xəstəliyi", başdan bəri izah etdiyimiz kimi onlara çox zərər gətirir. İçlərindəki qaranlıq, narahatlıq, hiyləgər ruh halı xarici görünüşlərinə də tamamilə təsir edər. İstər danışıqlarında, istərsə də fiziki

görünüşlərində münafiqliklərinə dair bariz dəlillərə rast gəlinir. Ancaq daha əvvəl də ifadə etdiyimiz kimi bu mövzuda diaqnoz qoya biləcək olan yalnız elçidir. Elçinin təsviri ilə yanındakı möminlər də onların içlərindəki xəstəliyin necə ətrafa yansıdığına şahid olurlar.

Danışıq üslublarının və baxışlarının pis olması, çirkin hərəkətləri, üzlərinə qaranlıq ifadənin çökməsi, ən sadə mövzuları belə qavraya bilməmələri, ağılla düşünə bilməmələri, yalnız bu xəstəliyin gətirib çıxardığı zərərlərdən bəziləridir. Lakin onlar əllərindəki nemətlərin bir-bir getdiyini görə bilməzlər, tam tərsinə hər şeyin yolunda getdiyini zənn edərlər. Hətta xarici görünüşlərində, mimikalarında, baxışlarında və danışıqlarında olan pozuqluğu belə dərk edə bilməzlər. Məhz bu da Allahın onlara verdiyi həm böyük bəla, həm də tələlərini başlarına keçirən daha böyük tələdir.

# MÜNAFİQLƏR HEÇ BİR DÖVRDƏ PEYĞƏMBƏRLƏRƏ ÜSTÜN GƏLƏ BİLMƏMİŞLƏR

*Onlar sizə göz qoyurlar (gözləyirlər ki sizə bir bəla gəlsin). Əgər Allahdan sizə bir qələbə gəlsə: "Məgər biz də sizinlə deyildikmi?" – deyərlər. Əgər kafirlərə bir qələbə nəsib olsa: "Məgər biz möminlərlə birlikdə sizə qalib gələ bilməzdikmi, sizi möminlərdən qorumadıqmı?" – söyləyərlər. Qiyamət günü Allah sizin aranızda hökm verəcəkdir. Allah kafirlərə möminləri məğlub etməyə yol verməyəcəkdir. (Nisa surəsi, 141)*

Tarixin hər dövründə münafiqlər, haqqa qarşı baş qaldırmış və mömin birliyinin içində onlara qarşı gizli savaş yürütmüşlər. Quranda, **"Onlar: "Əgər biz Mədinəyə qayıtsaq, ən qüdrətlilər (münafiqlər) ən alçaqları (müsəlmanları) mütləq oradan çıxardacaqlar!" – deyirlər. Halbuki qüdrət yalnız Allaha, Onun Elçisinə və möminlərə məxsusdur, lakin bunu münafiqlər bilmirlər"** (Munafiqun surəsi, 8) ayəsi ilə də bildirildiyi kimi münafiqlərin hər zaman möminlərdən üstün olduqlarına və onları təxribata uğradacaqlarına dair əsassız iddiaları olmuşdur. Halbuki bütün bu iddialarına baxmayaraq, heç bir şəkildə möminlərə qarşı üstün gələ bilməmişlər. Qalib gələn tərəf, hər zaman elçilər və yanlarındakı möminlər olmuşdur. Tarix boyunca bu vəziyyət, sanki qanun kimi işləmişdir.

Hadisələr Quran əxlaqı ilə qiymətləndirildikdə bunun səbəblərini aydın şəkildə görmək mümkündür. Allah, "inkarçılara möminlərin əleyhinə" əsla yol vermir. Əksinə münafiqləri, elçinin və möminlərin əli ilə yerlə bir edir. Allah Quranda, münafiqlər də daxil olmaq üzrə möminlərin əleyhinə fəaliyyət göstərən bütün inkarçıları xəbərdar etmiş və hiyləgər fəaliyyətlərinə son qoymasalar möminlərin əlləri ilə onları əzablandıracağını belə bildirir:

**Əgər ikiüzlülər, qəlbi xəstə olanlar və şəhərdə qarayaxma şayiələr yayanlar öz yaramaz əməllərinə son qoymasalar, səni onlara qarşı çıxmağa çağırarıq. Sonra onlar orada artıq səninlə ancaq qısa bir müddət ərzində qonşuluq edərlər. (Əhzab surəsi, 60)**

Allah, Özünə könüldən bağlı, hər işində Allaha yönələn səmimi elçilərini və digər möminləri inkarçılara qarşı daim dəstəklədiyini də nümunələriylə xəbər verir. Allahın bu köməyi və dəstəyi ilə elçilər ən çətin kimi görünən şərtlərdə belə, zəfərlə qalib gəlmişlər. Quranda buna dair bir çox nümunə izah edilir.

Bu nümunələrdən biri, hz. Davud (ə.s) zamanında inkarçılara qarşı aparılan döyüşdə ordu komandiri vəzifəsini boynuna götürmüş olan Talutun nümunəsidir. Üstün döyüş qabiliyyəti səbəbi ilə möminlərə komandir təyin edilmiş olan Talut, ordusuna bəzi tövsiyələr etmiş, ancaq imanı zəif bir çox adam ona itaət etməli olduğu halda bu tövsiyələrdən üz çevirmiş və öz nəfsləri istiqamətində hərəkət etmişlər:

**Talut qoşunla birlikdə döyüşə yola düşdükdə əsgərlərinə dedi: "Allah sizi bir çayla imtahan edəcək. Kim ondan içsə, məndən deyildir. Bir ovuc götürən istisna olmaqla, kim ondan dadmasa, o, məndəndir". Onların az bir qismi istisna olmaqla hamısı ondan su içdilər. Talut onunla olan möminlərlə birlikdə çayı keçdikdən sonra bəziləri dedilər: "Bu gün bizim Caluta və onun qoşununa gücümüz çatmayacaq". Allahla qarşılaşacaqlarını yəqin bilənlər isə dedilər: "Neçə-neçə az saylı dəstələr Allahın izni ilə çox saylı dəstələrə qalib gəlmişdir!" Allah səbir edənlərlədir. (Bəqərə surəsi, 249)**

Münafiq olanlar döyüş anında itaətsizlik edərək möminlərə çətinlik çıxarmağa çalışarkən, mömin olanlar ən kiçik bir itaətsizlik sərgiləməyib, döyüşdə elçinin dayağı olmuşlar:

**Onlar Calutun və onun qoşununun qarşısına çıxdıqda dedilər: "Ey Rəbbimiz! Bizə səbir ver, qədəmlərimizi möhkəmlət və kafir qövmə qələbə çalmaqda bizə yardım et!" Möminlər Allahın izni ilə onları darmadağın etdilər... (Bəqərə surəsi, 250-251)**

Səmimiyyətləri və qətiyyətlərinə cavab olaraq, Allah iman gətirənləri müvəffəqiyyətli qılır, inkarçılara qarşı onlara zəfər verir. Onlar həm dünyada böyük bir müvəffəqiyyət, həm də axirətdə Allahın razılığını və cənnətini qazanarkən, münafiqlər Allahın lənətini və qəzəbini qazanırlar.

# MÜNAFİQLƏRƏ QARŞI GÖSTƏRİLƏCƏK RƏFTAR

*Ey Peyğəmbər! Kafirlərə və münafiqlərə qarşı vuruş! Onlarla sərt davran! Onların sığınacağı yer Cəhənnəmdir. Ora necə də pis dönüş yeridir!*

*(Təhrim surəsi, 9)*

Münafiqlərə qarşı necə bir rəftar göstəriləcəyi, Quranda çox üzərində durulan mövzudur. Mömin, ehtiyac duyduğu hər şeyi Qurandan və Peyğəmbərimizin (s) əməllərindən öyrəndiyi kimi, bu mövzuda necə davranmalı olduğunu da yenə Qurandan və Peyğəmbərimizdən (s) öyrənəcək.

Quranda möminlərə tövsiyə edilən, nümunə verilən rəftar belədir: Möminlər münafiqləri əsla dost seçməzlər, birlikdə olduqları müddətcə onları Quranla xəbərdar edib qorxudar, əgər edilən nəsihət bir fayda vermirsə də onları, öz aralarından uzaqlaşdırarlar. Ancaq bu nöqtədə münafiqlər haqqında son qərarı verəcək olan adam əlbəttə ki, Allahın elçisidir. Allah elçisi vasitəsilə münafiqlər arasında ən doğru hökmün verilməsini təmin edir. Onlara qarşı davranılacaq rəftarla əlaqədar ayələri sırayla araşdıraq.

## 1) Sirdaş etməmək:

**Ey iman gətirənlər! Allahın qəzəbinə gəlmiş adamlarla dostluq etməyin. Kafirlər qəbirdəkilərin bir daha diriləcəyinə inanmadıqları kimi, Axirət gününə də ümid etmirlər. (Mumtəhənə surəsi, 13)**

Kitabın əvvəlindən bəri, Quran ayələri istiqamətində edilən təriflərdən aydın olduğu kimi, münafiqlər heç bir şəkildə dost və sirdaş ediləcək kəslər deyildirlər. Allahı dost bilməyən və bu səbəbdən Allahın da onları dost seçmədiyi bu kəsləri sirdaş edənlər, ancaq həqiqi imana sahib olmayan, ya da hələ iman qəlblərinə tam olaraq məskunlaşmamış kəslər ola bilər.

Allahın bu mövzuyla əlaqədar olaraq bildirdiyi ayələr, möminləri hər an münafiqlərə qarşı diqqətli olmağa sövq edir. Onlara qarşı nifrət duyan,

onların dağılıb getmələrini və başlarına çətinlik gəlməsini istəyən münafiqlərə qarşı möminlərin hər zaman təmkinli davranmaları və onları heç bir mövzuda sirdaş etməmələri həqiqətən də son dərəcə əhəmiyyətli mövzudur.

2) Aralarında ədalətlə hökm etmək:

**Onlar yalana həvəslə qulaq asanlar və daima haram yeyənlərdir. Əgər onlar sənin yanına gəlsələr, aralarında hökm ver və ya onlardan üz çevir. Əgər onlardan üz çevirsən, sənə heç bir şeylə zərər verə bilməzlər. Əgər onların arasında hökm verməli olsan, ədalətlə hökm ver. Şübhəsiz ki, Allah ədalətli olanları sevir. (Maidə surəsi, 42)**

Allahın yuxarıdakı ayədə bildirilən hökmünün tətbiq olunması, ancaq qövmün başında olan elçiyə məxsusdur. Elçi münafiqlərin arasında ya dilədiyi şəkildə hökm verər, ya da onlardan üz çevirər.

3) Öyüd alacaqlarsa öyüd vermək:

**Onlar o kəslərdir ki, Allah onların qəlblərində olanı bilir. Elə isə onlardan üz döndər, onlara öyüd-nəsihət ver və özləri barədə onlara təsir göstərə biləcək söz söylə. (Nisa surəsi, 63)**

Ayədə də görüldüyü kimi Quranda, münafiqlərə təsiredici nəsihətlər edilməsi tövsiyə edilir. Bu, onların etdiklərinin fərqinə varmaları və peşman olmaları ehtimalı baxımından əhəmiyyətli və təsirli üsuldur. Ancaq burada əsas olan peşman olmaları ehtimalına qarşılıq xatırlatmaların edilməsidir. Nəticədə öyüd almadığı müddətcə, bu adam din əxlaqına qarşı savaş açmış adamdır. Bu səbəblə, onları dost etməmək və onlardan üz çevirmək lazım olduğu da əsla unudulmamalı olan mövzudur.

Bilinməlidir ki, möminlər bu kəslərə ibadət olaraq, bəlkə düzələrlər deyə öyüd verirlər. Ancaq bu da qətidir ki, verilən hər öyüd-nəsihət, bundan üz çevirən, çəkinən münafiqin cəhənnəmdəki əzabını artırır. Münafiqə verilən öyüd-nəsihət bir növ Allahın onlara qurduğu tələdir. Möminlərin içində

olmaqla, gizli işlər etməklə özlərini "ayıq" zənn edən münafiqlər, möminlərlə birlikdə olduqları müddətcə aldıqları hər nəsihətin cəhənnəmdə özləri üçün qat-qat əzab olacağını əsla qavraya bilməzlər. Və bu şəkildə möminlərə zərər vermək üçün tələlər qurarkən öz əlləriylə əbədi tələyə düşmüş olarlar.

**4) Öyüd almırlarsa onları daha çox xəbərdar edib qorxutmamaq:**

İnsanlara yaxşılığı əmr edib, onları pislikdən uzaqlaşdırmaq hər möminin vəzifəsidir. Ancaq bunun bir sərhədi vardır. Allah, öyüd-nəsihət verilən adamın nəsihətə qapalı olması vəziyyətində, ona artıq daha çox şey deyilməməsini buyurur:

**Xatırlatmanın fayda verdiyini görsən, onlara xatırlat! Allahdan qorxanlar öyüd-nəsihət götürərlər. Ən bədbəxt kimsələr isə onu qulaqardına vurarlar. (Əla surəsi, 9-11)**

Necə ki, münafiqlərin inkarlarında və azğınlıqlarında qərarlı olmaları halında, onları xəbərdar edib qorxutmaq bir fayda verməyəcəyi üçün möminlərin də bu mövzudakı rəftarları onları "öz hallarına buraxmaq" olacaq.

**5) Onlarla fikri mübarizə aparmaq, önləyici davranmaq:**

**Ey Peyğəmbər! Kafirlərlə və münafiqlərlə vuruş. Onlarla sərt davran... (Tövbə surəsi, 73)**

Bu, Allahın münafiqlərlə əlaqədar çox əhəmiyyətli tövsiyəsidir. Allaha verdikləri sözü tutmayan, yalan söyləyən və qəlblərində fisq və üsyanı saxlayan münafiqlərin möminlərdən qətiyyətli rəftar görmələri, onlar üzərində önləyici bir rol oynayır. Çıxara biləcəkləri mümkün fitnələrə qarşı ayıq olmaq, bunların əvvəldən tədbirlərini almaq, bu kəsləri zamanında analiz edərək zərər verə bilməyəcəkləri şəkildə "əlləri qolları bağlı" hala gəlmələrini təmin etmək möminlərin ən əhəmiyyətli vəzifəsidir. Möminlər hər dövrdə münafiq təhlükəsinə qarşı ayıq olmaq və bu şəkildə qəlblərində xəstəlik olan

bu kəslərin xəstəliklərini ortaya çıxararaq onları ifşa etmək və beləcə insanları onlardan çəkindirməklə məsuldurlar; necə ki, belə də edirlər.

Lazım olan hər cür tədbirləri almaq, fitnə çıxarmalarına əsla icazə verməmək eyni zamanda, onların ardından gələcək olan digər münafiqlərə də ibrət xüsusiyyətində olur.

### 6) Möminlərlə birlikdə mübarizə aparmalarına icazə verməmək:

Münafiqlər, əsla möminlərlə birlikdə mübarizə aparmazlar. Bu onların, Allahdan gərəyi kimi qorxmamaları, dünyəvi ehtiraslara asılı olmaları və inkarçılara böyük heyranlıq duymaları səbəbi ilədir. Geridə qalmağı, möminlərdən ayrı həyat yaşamağı seçdikləri üçün də Allah, Peyğəmbərimizə (s) münafiqlərin bir daha möminlərlə birlikdə mübarizə aparmalarına icazə verməməyi əmr edir:

**Əgər Allah səni onlardan bir zümrənin yanına göndərsə və onlar döyüşə çıxmaq üçün səndən izin istəsələr, de: "Siz bir daha mənimlə döyüşə çıxmayacaq və mənimlə birlikdə heç bir düşmənlə vuruşmayacaqsınız. Çünki siz birinci dəfə evdə oturmağa razı oldunuz. Elə isə arxada qalanlarla bərabər, siz də evdə oturun!" (Tövbə surəsi, 83)**

### 7) Onları mömin birliyindən uzaqlaşdırmaq:

**Musa dedi: "Məqsədin nə idi, ey Samiri?" O dedi: "Mən onların görmədiklərini gördüm. Mən o elçinin ləpirindən (Cəbrayılın atının ayağı dəydiyi yerdən) bir ovuc torpaq götürdüm və onu bəzək əşyalarının üstünə atdım. Nəfsim məni buna sövq etdi". Musa dedi: "Çıx get! Sən həyatın boyu: "Mənə toxunmayın, mən də sizə toxunmayım!" – deməli olacaqsan. Səni həm də qurtula bilməyəcəyin əzab günü gözləyir. Sən sitayiş etdiyin məbuduna bax. Biz onu yandıracaq, sonra da dənizə sovuracağıq." (Taha surəsi, 95-97)**

Hz. Musanın (ə.s) qövmün içində fitnə çıxaran Samirinin yuxarıdakı ayələrdə izah edilən rəftarı, münafiqlərə qarşı alınmalı olan çox yerində

tədbirdir. Çünki münafiqlər möminlərin arasında fitnə çıxarmağa, özləri inkara sapdıqları kimi möminləri də inkara məcbur etməyə səy göstərirlər. Bunu bacaramasalar belə möminləri psixoloji olaraq yormağa çalışırlar. Belə bir vəziyyətdə bu kəslər üçün ediləcək ən ağıllı rəftar, onları saleh möminlərin arasından uzaqlaşdırmaqdır.

### 8) Onlara uymamaq:

**Buna görə də sən tövhidə dəvət et və sənə əmr olunduğu kimi düz yolla get. Onların nəfslərinin istəyinə uyma... (Şura surəsi, 15)**

Münafiqə itaət etmək, ona uymaq bir çox zərəri də arxasınca gətirəcək. Allahın razı olacağı davranışı buraxıb münafiqlərə uyan adam əslində şeytana uymuş olar. Şeytana uyanlar da ancaq onun firqəsidir və dünyada da, axirətdə də əsla qurtuluş tapa bilməzlər. Bu səbəblə Allah belə bir təhlükəyə qarşı möminləri xəbərdar edir, münafiqlərin istəklərinə uymaq kimi davranışdan onları məhrum edir.

### 9) Verdikləri əziyyət və çətinliyə diqqət etməmək:

Möminlərin vəlisi, qoruyucusu, nəzarətçisi Allahdır. Çətinlikdə və sıxıntıda olduqlarında Allahdan kömək diləyərlər, səbir edib, təvəkkül edərlər. Münafiqlərdən qaynaqlanan əziyyətə də eyni şəkildə səbir edib, Allaha təvəkkül edər, verməyə çalışdıqları əziyyətin öz başlarına gəlməsi üçün dua edərlər. Onların hiyləsi möminlər üzərində təsirsizdir. Bu səbəblə Allah, onların əməllərinə diqqət etməməyi, çünki bütün əməllərinin təsirsiz və etibarsız olduğunu ifadə edir:

**İsrail oğulları verdikləri əhdi pozduqlarına görə Biz onları lənətlədik və qəlblərini sərtləşdirdik. Onlar Kitabda olan kəlmələrin yerlərini dəyişdirirlər. Onlar özlərinə öyrədilmiş şeylərin bir hissəsini unutdular. İçərilərindən az bir qismi istisna olmaqla, sən onlardan daim xəyanət görəcəksən. Onları əfv et və təqsirlərindən keç. Şübhəsiz ki, Allah yaxşılıq edənləri sevir. (Maidə surəsi, 13)**

**Onlara "Salam!" deyib, vaz keç. Onlar tezliklə biləcəklər. (Zuxruf surəsi, 89)**

## 10) Onlarla sevgi və dostluq bağı qurmamaq:

Münafiqlər şeytanın dostudurlar, onu vəli qəbul etmişlər. Bu səbəbdən mömin şeytandan necə çəkinirsə, münafiqlərdən də o dərəcə uzaq durur. Münafiqlərin Allaha və dinə düşmən olmaları səbəbi ilə, möminlər də onları düşmən qəbul edər və qəlblərində onlara qarşı böyük qəzəb duyarlar. Necə ki, Allah möminləri, din mövzusunda onlarla vuruşanları dost etməkdən belə məhrum edər:

**Allah sizə ancaq sizinlə din uğrunda vuruşan, sizi diyarınızdan qovub çıxardan və çıxarılmanıza kömək edən kimsələrlə dostluq etmənizi qadağan edir. Onlarla dostluq edənlər zalımlardır. (Mumtəhənə surəsi, 9)**

## 11) Onlardan çəkinmək:

Münafiqlər davamlı olaraq möminlərin əleyhinə mübarizə apararlar. Möminlərlə birlikdə olduqları müddətcə hiyləgərcə fəaliyyətlərinə davam edərlər. Mömin birliyindən ayrılsalar da bu hiyləgər mübarizələrini uzaqdan davam etdirərlər. Bu səbəbdən şeytandan çəkinildiyi kimi münafiqlərdən də çəkinmək, atəşdən uzaq dururmuş kimi onlardan uzaq durmaq, möminlərin təhlükəsizliyi və dincliyi baxımından son dərəcə əhəmiyyətlidir. Allah möminlərə, əgər çəkinərlərsə münafiqlərin onlara heç bir zərər verə bilməyəcəyini vəd etmişdir. Ayədə belə buyurulur:

**Sizə bir uğur nəsib olsa, bu onları kədərləndirər. Sizə bir fəlakət üz verdikdə isə, buna fərəhlənərlər. Əgər səbir etsəniz və Allahdan qorxsanız, onların qurduğu hiylə sizi ziyana sala bilməz. Həqiqətən, Allah onların nə etdiklərini əhatə edir. (Ali İmran surəsi, 120)**

# MÜNAFİQ ÜÇÜN TÖVBƏ MÜMKÜNDÜRMÜ?

*Döyüşə getməyənlərdən başqaları da vardır ki, onlar Allahın ixtiyarına buraxılmışlar. O, ya onlara əzab verəcək, ya da tövbələrini qəbul edəcək. Allah Biləndir, Müdrikdir. (Tövbə surəsi, 106)*

Allah Quranda xəbər verildiyi kimi, **"...qullarının kafirlik etməsinə razı olmaz..."** (Zumər surəsi, 7) Yəni, qullarını doğru yola yönəltmək, səhvlərini bağışlamaq və cənnətinə salmaq istəyər. Ancaq münafiqlər Allahın bu çağırışından israrla üz çevirirlər. Bildikləri və anladıqları halda ayələrə qarşı laqeyd qalaraq, zülm və təkəbbür səbəbi ilə inkarda təkid edirlər. Ancaq aralarında bu rəftarlarına son vermək istəyənlər də ola bilər. Bu vəziyyətdə, tövbə etməyə niyyət etmiş olan adama düşən, acizliyini tam mənasıyla qavrayaraq, ən səmimi şəkildə Allahdan bağışlanma diləyib, bir daha münafiqliyə geri dönməmək üzrə "qəti" olaraq tövbə etməkdir.

Həqiqətən səmimi olması şərti ilə, tövbə edən münafiqin tövbəsinin qəbulu "Allah istəsə" mümkün ola bilər. Necə ki, Allah, **"Hər kim haqsızlıq etdikdən sonra tövbə edib əməllərini islah etsə, şübhəsiz ki, Allah onun tövbəsini qəbul edər. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir."** (Maidə surəsi, 39) deyə bildirilir.

Münafiqlərin tövbə etməsiylə əlaqədar Quranda müxtəlif dəlillər vardır. İşlədiyi günahları etiraf edən, elçiyə qarşı səmimi rəftar göstərməyə təmiz qəlblə niyyət edən kəsə ümid edilir ki, Allah tövbəsini qəbul edər:

**Digərləri isə günahlarını etiraf etdilər. Onlar yaxşı bir əməllə başqa bir pis əməli qarışdırdılar. Ola bilsin ki, Allah onların tövbələrini qəbul etsin. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir. (Tövbə surəsi, 102)**

Allah keçmiş qövmlərdə yaşamış münafiqlərdən və onlardan bir qisminin tövbələrindən də nümunələr vermişdir. Ayələrdə bildirildiyi üzrə, Peyğəmbərimizin (s) qövmündən bəziləri döyüşə çıxmamaq üçün çoxlu bəhanələr irəli sürmüşlər və geri qalmaq üçün Peyğəmbərimizdən (s) icazə

istəmişlər. Geri qaldıqları üçün özlərini qazancda sayıb, sevinirdilər. Öz ağıllarına görə, döyüşə getməyərək ölüm təhlükəsindən xilas olmuş və həyatlarını zəmanət altına almışdılar. Qaçdıqları ölümün onları evlərində də yaxalaya biləcəyini düşünmürdülər. Halbuki Allaha və peyğəmbərə təslim olsalar və döyüşə çıxsalar, ölüm onları yaxalasa belə şəhid olacaqlar və Allahın lütfü ilə Cənnətə girməyə haqq qazanacaqdılar. Ancaq onlar axirətə şübhə ilə yanaşdıqlarından, döyüşdə ölməyi özləri üçün itki olaraq görürdülər. Ailələri ilə birlikdə geridə qalmaq, ticarətlə və buna bənzər işlərlə maraqlanmaq, onlara daha sərfəli gəlirdi.

Məhz döyüşdən geri qalmağı istəyən bu birliyin arasında, Quranda bəhsi keçən "üç adam" da var idi. Onlar da digərləri kimi döyüşə çıxmamışlar, möminlərlə birlikdə hərəkət etməmişlər, inkarçılara qarşı inananlara dəstək olmamışdılar. Ancaq bu üç adamın, digər "geridə qalanlar"dan fərqli tərəfi var idi: Quranda bizə bildirildiyinə görə bu kəslər, döyüşə çıxmadıqları üçün peşman olmuşlar, hallarından utanc duymuşlar və səmimi olaraq tövbə edib, Allahdan bağışlanma diləmişdilər. Allah da onların tövbələrini qəbul etmişdi.

Bağışlanmalarındakı ən əhəmiyyətli səbəb, səmimi olaraq Allahdan qorxmaları, ehtiyac içində Allaha yalvarıb Ondan bağışlanmağı diləməleriydi. Necə ki, bununla əlaqədar bir Quran ayəsində səmimiyyətləri və vicdani narahatlığı bu şəkildə ifadə edilir:

**Geri qalmış üç nəfəri də bağışladı. Hətta yer üzü öz genişliyinə baxmayaraq onlara dar gəlmiş, qəlbləri kədərdən sıxılmış və yəqin bilmişdilər ki, Allahdan (Onun əzabından), ancaq Onun Özünə sığınmaqdan başqa çarələri yoxdur. Sonra Allah peşman olsunlar deyə onların tövbəsini qəbul etdi. Həqiqətən, Allah tövbələri qəbul Edəndir, Rəhmlidir. (Tövbə surəsi, 118)**

Bunlarla yanaşı, Allah münafiqlərin tövbə etmələrinin, onlar üçün xeyirli olacağından da bəhs edir. Bu, onlar üçün böyük lütfdür. Etdikləri o qədər pis əməllərə baxmayaraq, Allah (dilərsə) onları bağışlayacaq, günahlarından keçəcək. Bu həqiqət ayədə belə xəbər verilir:

**...Əgər tövbə etsələr, onlar üçün xeyirli olar. Əgər üz döndərsələr, Allah onları dünyada da, axirətdə də acılı-ağrılı bir əzaba düçar edər... (Tövbə surəsi, 74)**

Ancaq unudulmayacaq başqa bir həqiqət də var ki, Münafiqlərin böyük əksəriyyəti pis əməllər edib, yaşlananda və ya öləcəklərini anladıqlarında da tövbə edə biləcəklərini düşünürlər. Öləcəklərini anladıqları anda etdikləri tövbənin qəbul edilməyəcəyini Allah bir ayədə belə bildirir:

**Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman: "Mən indi tövbə etdim!" – deyənlərin də, kafir kimi ölənlərin də tövbəsi qəbul deyildir. Biz onlar üçün ağrılı-acılı bir əzab hazırlamışıq. (Nisa surəsi, 18)**

Quranda Allahın məqbul olaraq göstərdiyi tövbə isə belə təsvir edilir:

**Allah ancaq o kəslərin tövbələrini qəbul edir ki, onlar avamlıqları üzündən pis iş gördükdən sonra tezliklə tövbə edirlər. Allah onların tövbələrini qəbul edər. Həqiqətən, Allah Biləndir, Müdrikdir. (Nisa surəsi, 17)**

# MÜNAFİQLƏRİN AXİRƏTDƏKİ VƏZİYYƏTLƏRİ

*Məgər bilmirdilərmi ki, Allaha və Onun Elçisinə qarşı çıxanlar üçün içində əbədi qalacaqları Cəhənnəm odu vardır? Bu isə böyük rüsvayçılıqdır.*

*(Tövbə surəsi, 63)*

Allaha və Allahın dininə savaş açmış olan münafiqlərin axirətdə gördükləri qarşılıq, tamamilə haqlı, layiq olduqları qarşılıqdır. Münafiqlər sonsuz həyatlarında maddi və mənəvi əzab içində yaşayacaqlar.

Münafiqlərin cəhənnəm əzabı, əslində dünyada yaşadıqları müddətdə başlamışdır. Böyük alçaldılma və kiçik düşmə ilə yanaşı, daha yüzlərlə əzab növü hələ dünyada ikən onları gözləyir. Lakin ən böyük əzab, heç şübhəsiz cəhənnəm əzabı olacaq; sonu olmayan, əsla bitmək bilməyən atəşin əzabı...

## Ölüm anları

Hər insan, Allahın özü üçün müəyyən etdiyi qədəri yaşayır və Onun təyin etdiyi zamanda ölür. Möminlər, yəni həyatlarını Onun istəkləri istiqamətində keçirmiş olan insanların (dünyada gördükləri saleh əməllər qarşılığında) canları Allahdan lütf olaraq mələklər tərəfindən gözəlliklə alınır və cənnətə yerləşdirilirlər. Allah ayələrində möminlərə bununla müjdə verir:

**O kəslər ki, tər-təmiz olduqları halda, mələklər onların canını alıb deyirlər: "Sizə salam olsun! Əməllərinizə görə Cənnətə girin!" (Nəhl surəsi, 32)**

Ancaq inkarçılar üçün eyni vəziyyət mümkün deyil; mələklər onların canlarını gözəlliklə almazlar. Əksinə münafiqlərin canlarını, onların arxalarına və üzlərinə vura-vura alırlar. Duyacaqları fiziki ağrı bir yana, bu eyni zamanda onlar üçün böyük rüsvayçılıqdır. Allah münafiqləri və bütün inkarçıları bu böyük rüsvayçılıq və əzabla qorxutmuşdur:

**Kaş sən kafirləri mələklər onların canını alarkən görəydin. Mələklər onların üzünə və yanlarına vura-vura deyirdilər: "Dadın yandırıcı odun əzabını! (Ənfal surəsi, 50)**

**Bəs mələklər onların üzlərinə və arxalarına vura-vura canlarını alanda halları necə olacaq? (Məhəmməd surəsi, 27)**

Münafiqlər mələklər canlarını bu şəkildə alarkən, dünyada ikən əməllərinin qarşılığında başlarına gələcəklərini təxmin etməyə başlamışlar. Bu vəziyyətdə, həyatları boyunca qorumağa çalışdıqları nüfuzları bir anda yox olur və "alçalmış vəziyyətdə" can verirlər və sonra cəhənnəmə aparılırlar:

**Kafirlərə de: "Siz məğlub olacaq və Cəhənnəmə toplanılacaqsınız! Ora nə pis yataqdır!" (Ali İmran surəsi, 12)**

**Şübhəsiz ki, kafir olanlar insanları Allah yolundan sapdırmaq üçün öz mallarını sərf edirlər. Onlar onu sərf edəcək, sonra bunun peşmançılığını çəkəcək, daha sonra isə məğlub ediləcəklər. Kafir olanları Cəhənnəmə toplayacaqlar. (Ənfal surəsi, 36)**

**Üzüstə sürüklənib Cəhənnəmə toplanılacaq kimsələr - məhz onlar yerləri ən pis olan, haqq yoldan ən çox azan kimsələrdir. (Furqan surəsi, 34)**

## Cəhənnəmdəki əzab

### 1) Ən şiddətli əzab:

Allahın Qurandakı ifadəsiylə "daha artığına layiq olan" münafiqlər, axirətdə ən böyük əzabla, yəni cəhənnəm əzabı ilə cəzalandırılacaqlar:

**...Yoxsa siz Kitabın bir qisminə inanıb, digər qismini inkarmı edirsiniz? Sizlərdən bunu edənin cəzası dünya həyatında rüsvay olmaq, Qiyamət günü isə ən şiddətli əzaba məhkum olmaqdır. Allah sizin etdiklərinizdən bixəbər deyildir. (Bəqərə surəsi, 85)**

2) Azalmayan bir əzab:

**Onlar axirəti verib dünya həyatını satın aldılar. Ona görə də onların nə əzabı yüngülləşdiriləcək, nə də onlara kömək göstəriləcəkdir. (Bəqərə surəsi, 86)**

Münafiqlər cəhənnəmdə sonsuza qədər qalacaqlar və əzab onlardan heç bir şəkildə yüngülləşdirilməyəcəkdir.

3) Ağrılı əzab:

**Münafiqlərə müjdə ver ki, onlar üçün ağrılı-acılı bir əzab vardır. (Nisa surəsi, 138)**

Qurana görə, cəhənnəm əzabı ağır və böyük əzab olacaqdır. Oradakıların hamısına cəhənnəm odunda əzab veriləcəkdir. Qurtuluş mümkün olmayacaq. Zəncirlərlə və dəmir halqalarla bağlanmış olacaqlar. Bunlarla yanaşı, dəmir qamçılarla qamçılanacaqlardır. Yeməkləri də yalnız qaynar su, irin, qan, zəqqum ağacı və darı tikanı olacaq olan münafiqlər, cəhənnəmdən çıxmağı istəyəcəklər, amma əzabın sonu gəlməyəcək, yüngülləşdirilməyəcəkdir. Bunun da səbəbi, Allahın dünyada onlardan istədiyi hər şeyi bildikləri halda, nəfslərinə uyaraq gerçəklərdən üz çevirmələri və Allaha və dininə savaş açmış olmalarıdır.

4) Ən iyrənc əzab:

Cəhənnəm əhli qorxunc görünüş alacaqlar, hər istiqamətdən əzaba uğrayacaqlar. Bədənlərinə odla dağ basılacaq, başları üstündən qaynar sular töküləcək, qatran və oddan paltar geyindiriləcəkdir:

**Ayələrimizi qüvvədən salmağa cəhd göstərənləri isə ən pis, ağrılı-acılı əzab gözləyir. (Səba surəsi, 5)**

**5) Allahın lənəti:**

Göründüyü kimi münafiqlər axirətdə hər istiqamətdən əzabla əhatə olunacaqlar. Ancaq bunların hamısından daha da üstün olan əzab vardır ki, bu, Allahın lənəti, onlarla danışmaması, onları rüsvay etməsi və alçaltmasıdır:

**Onların cəzası, şübhəsiz ki, Allahın, mələklərin və bütün insanların onları lənətləməsidir. (Ali İmran surəsi, 87)**

**Şübhəsiz ki, Allahın nazil etdiyi kitabda olanları gizli saxlayanlar və bununla cüzi miqdarda pul əldə edənlər öz qarınlarına oddan başqa bir şey doldurmurlar. Qiyamət günü Allah onları danışdırmaz və onları təmizə çıxarmaz. Onlar üçün ağrılı-acılı bir əzab vardır. (Bəqərə surəsi, 174)**

**6) Tək-tənha qalacaqlar:**

Dünyada ikən dost olduqlarını zənn etdikləri insanlar, axirətdə onlardan uzaq olacaqlar. Hər biri öz dərdində olacaq, bu səbəbdən heç bir dost və köməkçi tapa bilməyəcək, tək-tənha qalacaqlar.

**...Onlara heç bir köməkçi tapa bilməzsən. (Nisa surəsi, 145)**

Üstəlik, dünyada "ən yaxınlarım" dedikləri kəslərə, axirətdə lənət edəcəklər.

**...Sonra isə Qiyamət günü bir-birinizi kafir adlandırıb lənətləyəcəksiniz. Sığınacağınız Od olacaqdır. Sizə yardım edə bilən kəslər də tapa bilməyəcəksiniz. (Ənkəbut surəsi, 25)**

7) Ziyana uğrayacaqlar:

**Heç şübhəsiz ki, ziyana uğrayanlar da onlardır. (Nəhl surəsi, 109)**

Qazanclı olduqlarını zənn etdikləri dünya həyatlarını geridə buraxaraq ölümlə qarşılaşacaqlar və əsl yurdları olan cəhənnəmə girəcəklər. Orada hər şeyin həqiqi üzünü anlayacaqlar, qazancda deyil, tam tərsinə böyük ziyanda olduqlarını görəcəklər. Və dünyada etdikləri hər şeyin etibarsız olduğunu, özlərinə heç bir fayda təmin edə bilməyəcəyini anlayacaqlar.

# Cəhənnəmin ən aşağı təbəqəsi

**Həqiqətən, münafiqlər Odun ən aşağı təbəqəsində olacaqlar; və sən onlara heç bir köməkçi tapa bilməzsən. (Nisa surəsi, 145)**

Yuxarıdakı ayə ilə Allahın bizlərə bildirdiyi kimi, münafiqlərin axirətdəki yerləri "cəhənnəmin ən aşağı təbəqəsi"dir. Bunun səbəbi əlbəttə, sahib olduqları ikiüzlü və fitnəkar əxlaq modelidir. Buraya qədər münafiqlərin bu hiyləgər xarakterlərini təyin etdik, yüzlərlə maddəyə toxunduq. Bu maddələrin bir-bir açıqlanmasının ardındakı məqsəd də, münafiqlərin dünya tarixində yaşamış olan bütün insanlar arasında "ən zalım kəslər" olduqlarını vurğulaya bilmək və bu əhəmiyyətli həqiqətin bilinməsinə vasitəçi ola bilməkdir.

Kitabın əvvəlindən bəri izah edilən münafiqlərin həqiqətən də zalım və azğın kəslər sayılmasının səbəbi, özlərinə "elm gəlmiş" kəslər olmalarıdır; yəni din əxlaqı onlara izah edilmiş, həqiqətləri, doğruları möminlərdən, hətta şəxsən Allahın elçisindən eşidib öyrənmişlər. Bunun üzərinə bir müddət din

əxlaqını yaşamış, lakin rahatlığı inkarda tapacaqlarını düşünərək din əxlaqından üz çevirmişlər; və təbii ki, Allahdan, elçisindən və möminlərdən də. Allah Tövbə surəsində belə buyurur:

**Allaha and içirlər ki, nalayiq sözlər deməyiblər. Onlar küfr sözünü demiş, İslamı qəbul etdikdən sonra kafir olmuş və bacara bilmədikləri bir işə can atmışlar. Onların intiqam almağı yalnız Allahın və Onun Elçisinin onları Öz lütfündən varlandırdığına görədir. Əgər tövbə etsələr, onlar üçün xeyirli olar. Əgər üz döndərsələr, Allah onları dünyada da, axirətdə də acılı-ağrılı bir əzaba düçar edər. Yer üzündə onların nə bir dostu, nə də bir köməkçisi vardır. (Tövbə surəsi, 74)**

Bu səbəbdən heç bir zaman "elm gəlməmiş", yəni din əxlaqına, Qurana heç vaxt dəvət edilməmiş, beləcə dinə girməmiş olan insanlardan əlbəttə ki, daha çox məsuldurlar, tamamilə fərqli qarşılıq görürlər. Axirətdə görəcəkləri əzab da, Allahın bildirdiyi qədəri ilə daha şiddətli olacaq. Çünki münafiqlər, həyatları boyunca dindar görünmüş, qəlblərində Allaha və Onun elçisinə qarşı itaət etməmiş, əksinə qəlblərində onlara qarşı hiyləgər kin və düşmənlik bəsləmiş olan kəslərdir. Bu hiyləgər xarakterdəki birinin isə cəhənnəmdəki ən yüksək əzaba layiq olması şübhəsiz çox təbiidir. Çünki münafiqlər mömin birliyinin içində ən gözəl əxlaq nümunələrini görmüş, ən hüzurlu mühitdə yaşamış, ən üstün hörmət və sevgi ilə qarşılaşmışlar. Ancaq, möminlərdən həmişə yaxşılıq, gözəllik və xeyir gördükləri halda qəlblərindəki xəstəlik səbəbi ilə bu qiymətli insanlara qarşı kin bəsləməyə başlayıblar.

Həmçinin axirətdə Allah münafiqləri dünyada onlara qarşı təkəbbür göstədikləri möminlərin qarşısında da alçaq və rəzil vəziyyətə salacaq. Onlar dünyada möminləri aldatmağa çalışmışlar, ancaq axirətdə bir az kömək etmələri üçün onlara yalvaracaqlar. Ancaq əlbəttə ki, möminlər onların bu yalvarışlarına məhəl qoymayacaqlar və Allahın sonsuz ədaləti sayəsində sonsuza qədər cənnətdə nemətlər içərisində həyat yaşayacaqlar. Münafiqlərin cəhənnəmdəki nəticəsiz yalvarışları ayələrdə belə xəbər verilir:

**O gün münafiq kişilər və münafiq qadınlar iman gətirənlərə: "Bir az gözləyin ki, biz də sizin işığınızdan alaq" - deyəcəklər. Onlara deyiləcəkdir: "Geriyə qayıdıb işıq axtarın!" Onların arasına içəri tərəfində mərhəmət, çöl**

tərəfində əzab olan qapılı bir sədd çəkiləcəkdir. Münafiqlər onları haraylayıb deyəcəklər: “Məgər biz sizinlə birlikdə deyildikmi?” Möminlər deyəcəklər: “Bəli, lakin siz öz-özünüzü aldadırdınız, möminlərə bəla üz verməsini gözləyirdiniz, haqqa şübhə edirdiniz və Allahın əmri gələnədək xülyalar sizi yoldan çıxartdı. Tovlayan şeytan Allah barəsində sizi yaman aldatdı. Bu gün nə sizdən, nə də kafirlərdən heç bir fidyə qəbul olunmaz. Sığınacağınız yer də oddur. Sizə layiq olan elə odur. Ora nə pis dönüş yeridir!” (Hədid surəsi, 13-15)

# MÜNAFİQLƏR CƏHƏNNƏMİN ƏN AŞAĞI TƏBƏQƏSİNDƏ OLACAQLAR

**(HÖRMƏTLİ ADNAN OKTARIN ÇAY TV-DƏKİ MÜSAHİBƏSİ - 25 fevral 2009)**

**APARICI:** "Cəhənnəmin ən dibində iblis olacaq yoxsa insan? Bu mövzuda bizə məlumat verə bilərsinizmi?"

**ADNAN OKTAR:** Münafiqlər olacaqlar, amma şeytan hamısının yanında olacaq, yəni bütün dinsizlərin həmişə yanında olacaq, məsələn münafiqlər də iç-içə olacaq şeytanla, kafirlərlə iç-içə olacaq yəni hər təbəqədə hər yerdə şeytanla birlikdə olacaqlar.

**(HÖRMƏTLİ ADNAN OKTARIN BAŞKENT TV-DƏKİ MÜSAHİBƏSİ - 24 aprel 2009)**

**ADNAN OKTAR:** Onsuz da münafiq cəhənnəmdən gəlir. Yəni əxlaqsızların olduğu hissədən cəhənnəmin ən dərin təbəqəsindən dünyaya göndərilir. O eyni zamanda dünyadan da oraya gedər. Zaman nisbi olduğu üçün insanlar onu başa düşmürlər.

# SON SÖZ

Münafiqlər "dindar" görünərək mömin birliyinin içinə girən və aralarında olduqları müddətdə öz zəif ağıllarına görə onlara zərər verməyə, haqlarında inkarçılara xəbər daşımağa və aralarındakı birlik və bərabərliyi zədələməyə çalışan ikiüzlü insanlardır. Çoxu ən başından bəri pis niyyət daşıyaraq möminlərin arasındadır və onlarla birlikdə olduqları zaman ərzində maddi olaraq özlərinə mənfəət təmin etməyə çalışır. Bu tip insanların möminlərdən mənfəət əldə edə bilməyəcəklərini anlamaları, aralarından ayrılmaq üçün yetərli səbəbdir.

Bəzisi isə iman edərək möminlərin arasına gəlmiş, lakin zamanla vicdanını korlaşdırmış və özünü şeytana təslim etmişdir. Qəlblərində olan xəstəlikdən ötrü zamanla Quran ayələrinə olan həssaslıqlarını və bağlılıqlarını itirmiş və təbii olaraq "cahil topluluğu"nun batil dininə, yəni "şeytanın gizli dini"nə girmişlər.

Bu kəslər, qarşılarına çıxan hadisələri Quranda izah edilənlər istiqamətində deyil, din əxlaqını yaşamayan cəmiyyətlər arasında etibarlı olan yanlış baxış bucağı çərçivəsində qiymətləndirərlər. Buna ən doğru nümunə çətinlik anlarıdır. Quran qarşılaşılan çətinlik qarşısında Allaha güvənib səbir edib və ümidsizliyə qapılmamağı nəzərdə tutarkən, münafiqlər belə bir vəziyyətdə, cahil cəmiyyətə bənzərlik göstərərək, ya çətinliyi görüncə dəhşət içində donarlar, ya da çaxnaşmaya qapılaraq sabit olmayan rəftar göstərərlər.

İndiyə qədər ifadə etmiş olduğumuz bütün xüsusiyyətlər, münafiqlərin həm dünyada, həm də axirətdəki vəziyyətlərini bizlərə xəbər verir, onların xüsusiyyətlərini və qaranlıq ruh hallarını tanıdır. Möminlərə qarşı fikirləri ayələrdə ətraflı olaraq təsvir edilir. Allahdan gərəyi kimi qorxmayan bu kəslər dünya həyatında möminlərə qarşı davamlı fəaliyyət halındadırlar. Bunu sanki vəzifə qəbul edərlər və böyük qətiyyətlə mövqelərini davam etdirərlər. Bunlar, onların təbii davranışlarıdır. Şeytan onlara etdikləri əməlləri gözəl göstərir. Allahı və Onun ayələrini unudan bu qafil kəslər, şeytanın onları "az qala qabıq kimi" bağlamasıyla, imanlarından sonra inkara düşürlər.

Göründüyü kimi, bu xüsusiyyətlər müxtəlif ola bilir. Ancaq nəticədə hamısının məqsədi və niyyəti eynidir: Bir an əvvəl öz mənfəətlərini artıra bilmək və möminlərə verə biləcəkləri ən çox zərəri verərək onlardan ayrılmaqdır.

Aralarında olduqları müddət ərzində, əvvəl-axır ayrılacaqlarını bilirlər. Təyin etdikləri ayrılıq vaxtı, ümumiyyətlə çətinlik anlarıdır. Necə ki, bilindiyi kimi, hər peyğəmbər, iman etməyən bir qövmə Onları xəbərdar edib qorxutmaları üçün göndərilmişdir. Öz aralarında alışdıqları "ataların dinini" yaşayan inkarçılar isə, hər gələn elçiyə qarşı çıxmışlar, izah etdiklərini qəbul etməməkdə dirənmişlər. Onları şifahi və feli bəzi hücumlarla təsirsiz buraxmağa çalışmışlar. Ancaq tarix boyunca bu şəkildə davranan bütün inkarçılar, bilmədikləri gizli qanun səbəbindən heç bir nəticə əldə edə bilməmişlər və dünyada və axirətdə ziyana uğramışlar. Bu gizli qanun, möminlərin Allahın qoruması altında olmaları və inkarçıların onlara heç bir şəkildə zərər verə bilməmələridir. Ayələrdə belə buyurur:

**...Allah kafirlərə möminləri məğlub etməyə yol verməyəcəkdir. (Nisa surəsi, 141)**

**...Amma bilin ki, kafirlərin hiyləsi boşa çıxar. (Mümin surəsi, 25)**

Ancaq bu gizli qanundan xəbərsiz olan inkarçılar, hər səfərində elçiləri və onların yanlarında olan möminləri təzyiq altına salmağa çalışmış və onları öz dinlərinə döndərmək istəmişlər. Məhz belə zamanlarda, inkarçıların hücumlarından qorxan münafiqlər bir-bir ortaya çıxmışlar və mübarizədən geri qalmaq üçün möminlərdən icazə istəmişlər. Beləliklə qaçaraq, onlara isabət edə biləcək zərərlərdən xilas olacaqlarını düşünmüşlər.

Halbuki münafiqlər bu davranışlarıyla hər nə qədər özlərinin qazancda olduqlarını zənn etsələr də əsl yurd olan axirət yurdunda pis yer qazanmışlar. Üstəlik burada əbədi qalacaqlar. Çünki Allah onları görür və etdikləri pisliklər bir-bir qarşılarına çıxacaqdır.

Onlar etdiklərinə görə cəhənnəmdəki yerləri hazırlanan (özləri fərqində olmasalar da) dünyada yaşadıqları ömür boyunca bir dəfə olsun tövbəyə yanaşmayan, qəlbləri doğrulara qarşı tamamilə qatılaşmış, Quranda bildirildiyi üzrə **"daş kimi, hətta ondan da sərt"** (Bəqərə surəsi, 74) olan insanlardır. Allahdan qafil yaşadıqları kimi, Allahın dininə qarşı da böyük savaş açmışlar. Dünyada da, axirətdə də bu dərəcə rüsvay edilmələrinin səbəbi budur. Onlara xəbərdar edicilər gəlmiş, doğrunu bildirmiş, pislik etməkdən açıq şəkildə çəkindirmişdir. Pislik anlayışını da, gözəlliyi də, Allah

üçün yaşamağı da olduqca yaxşı bilir, buna baxmayaraq üz döndərirlər. Allahın varlığını və böyüklüyünü qavramadıqlarına görə, əzabın şiddəti onları qorxutmaz. Cəhənnəmin varlığına inanmayaraq, onlardan çox uzaq görürlər və xəyali məkan olaraq düşünürlər. Mövzu axirət olduğunda, ruhlarına hakim olan "müstağniyyət xəstəliyi" özünü açıq şəkildə göstərir. Əzab düşüncəsindən uzaqdırlar. Bu uzaqlığın ən əhəmiyyətli dəlili, axirətdə əzab ehtimalını düşünməmələridir. Çünki axirətdə hesab verəcəyinə və işlədiyi günahlardan ötrü cəhənnəmə gedə biləcəyinə dair anlıq ehtimal belə adamı hərəkətə keçirmək, ən azından içində olduğu vəziyyətin mühakiməsini təmin etmək üçün yetərlidir. Din əxlaqının yaşanmasına qarşı açıq savaş açmış olmaları, bu ehtimalı heç düşünmədiklərinin dəlilidir.

Ancaq bu müstağniyyət, onlara dünyada rüsvay etməkdən başqa bir şey verməyəcək. Axirətdə isə, özlərini müstağni gördükləri şeylərlə qarşılaşacaq, etdiklərindən ötrü lənətlənəcəklər. Mübarizələrinin nəticəsində layiq olduqları budur. Allah Hud surəsində münafiqlərin sonunu belə bildirir:

**Rəbbinin istədiyi istisna olmaqla, göylər və yer durduqca onlar orada əbədi qalacaqlar. Həqiqətən, Rəbbin istədiyini edəndir. (Hud surəsi, 107)**

# HZ. MEHDİ (Ə.S) DÖVRÜNDƏKİ MÜNAFİQLƏR

Uca Allah, Quran-ı Kərimdə İslam əxlaqını yer üzünə hakim edəcəyini bildirmişdir. Peyğəmbərimiz (s) də, hədislərində bu böyük və müqəddəs hadisəyə Axırzamanda hz. Mehdinin (ə.s) vəsilə olacağını xəbər vermişdir. Axırzamanda hz. Mehdinin (ə.s) Allahın izni ilə, şübhəsiz ortaya çıxacağı Peyğəmbərimizin (s) hədisi şəriflərinin birində belə müjdələnmişdir:

*Dünyada **<u>tək bir gün qalsa belə</u>** (qiyamət qopmadan) **<u>Allah o günü uzadacaq</u>**, adı adıma, atasının adı da atamın adına uyğun, **<u>Əhli-Beytimdən mütləq bir şəxs (hz. Mehdi (ə.s)) gələcək</u>**, daha əvvəl zülm və haqsızlıqla dolu olan yer üzünü ədalət və bərabərliklə dolduracaq. (Ebu Davud ve Tırmizi, "Büyük Hadis Külliyatı", Rudani, 5-ci cild, səh. 365)*

Hədislərdə bildirildiyinə görə, hz. Mehdi (ə.s) hicri 1400-cü ildə zühur edəcək və İslam əxlaqını yer üzünə hakim edəcək. Hz. Mehdinin (ə.s) ortaya çıxışı ilə yer üzündəki bütün zülm və haqsızlıqlar sona çatacaq, dünyaya ədalət, sülh, sevgi, hüzur və təhlükəsizlik yerləşəcəkdir. Kutub-i Sittədə bəhs edilən hədislər, İmam Rəbbani, Suyuti, Bərzənci, Bədiüzzaman Səid Nursi kimi böyük İslam alimlərinin etdikləri izahlar istiqamətində hz. İsanın (ə.s) yenidən yer üzünə qayıtmasının, hz. Mehdinin (ə.s) çıxışının, İslam əxlaqının yer üzünə hakim olmasının vaxtının hicri 1400, yəni içində olduğumuz dövr olduğu son dərəcə açıqdır. (bax: www.hazretimehdi.com)

Allah, hz. Mehdinin (ə.s) əli ilə dəccaliyyət sistemini; darvinizm, materializm, kommunizm, faşizm kimi insanlara acı, narahatlıq və müharibə gətirən, bütün dünyanı qana və göz yaşına boğan şeytani sistemləri fikirlə təsirsiz hala gətirəcəkdir. Hz. Mehdi (ə.s) dövründə insanlar Allaha iman edəcək, Quran əxlaqını mənimsəyəcək, Peyğəmbərimizin (s) sünnəsinə uyğun yaşayacaq, sülh, qardaşlıq, birlik və hüzur içində olacaqlar. Ancaq bu ortamın əvvəlində Hz. Mehdi (ə.s); bir müddət tələbələriylə birlikdə gözlərdən uzaq həyat yaşayacaqdır. Bu müddətdə, tələbələri arasında özünü müsəlman kimi göstərən, ancaq həqiqətdə iman etməyən münafiqlər çıxacaq, bunlardan bəziləri hz. Mehdinin (ə.s) yanından; *"Allaha iman etmək üçün Peyğəmbər (s)*

*soyundan bir adama ehtiyacımız yoxdur..."* deyərək ayrılacaqlar. Tarix boyunca Allahın peyğəmbərlərinin, elçilərin, mücəddidlərin, müştəhidlərin, böyük alimlərin, mürşidlərin inkarçılar tərəfindən qəbul edilməməsi kimi, tələbələri arasından çıxan bəzi münafiqlər də hz. Mehdini (ə.s) qəbul etmək istəməyəcəklər:

**Əgər onlar səni yalançı hesab etsələr, bil ki, onlardan əvvəlkilər də elçiləri yalançı hesab etmişdilər... (Fatir surəsi, 25)**

Halbuki ki, din əxlaqından uzaqlaşıldığı, pisliyin, şiddətin, ədalətsizliyin və əxlaqsızlığın artdığı zamanlarda Allah; cəmiyyətlərə haqq dini izah edəcək, onları haram hərəkətlərdən çəkindirəcək və yaxşılığı əmr edəcək peyğəmbərlər, elçilər, mücəddidlər, mürşidlər, hidayət rəhbərləri göndərərək insanları din əxlaqına dəvət etmişdir.

**Ey Adəm oğulları! Sizə aranızdan elçilər gəlib ayələrimi bəyan edərkən Məndən qorxub öz əməllərini islah edən şəxslərin heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. (Əraf surəsi, 35)**

Axırzamanda; fitnənin, pisliyin çox artdığı, haramların halal, halalın haram sayıldığı belə bir dövrdə də Allah, hz. Mehdini (ə.s) Axırzamanın ən böyük mücəddidi (yeniləyən, hər əsrin əvvəlində dini həqiqətləri dövrün ehtiyacına görə dərs vermək üçün göndərilən böyük alim), hakimi, mürşidi və Qütbü Əzəm olaraq göndərəcək. Ustad Səid Nursi həzrətləri, hz. Mehdinin (ə.s) Axırzamanın böyük fəsadı zamanında göndəriləcəyini "*Məktubat*" adlı əsərində belə bildirmişdir:

*Axırzamanın ən böyük fəsadı zamanında, əlbəttə ən böyük MÜCTƏHİD (ehtiyac olduğunda ayələrdən hökm çıxaran böyük İslam alimi) həm ƏN BÖYÜK MÜCƏDDİD (hər əsrin əvvəlində dini həqiqətləri dövrün ehtiyacına görə dərs vermək üçün göndərilən böyük İslam alimi, yeniləyən, yeniləyici), həm HAKİM, həm MEHDİ, həm MÜRŞİD (doğru yolu göstərən insan) həm QÜTBÜ ƏZƏM (müsəlmanların özünə bağlandıqları böyük övliyalardan, zamanın ən böyük mürşidi) olaraq ZAT-I NURANİYİ (nurlu bir zatı)*

*GÖNDƏRƏCƏK və O ZAT da, ƏHLİ-BEYTİ NƏBƏVİDƏN (Peyğəmbərimizin (s) soyundan) olacaq. (Bədiüzzaman Səid Nursi, Məktubat, 29-cu məktub, səh. 423)*

Hz. Mehdi (ə.s) insanlar arasında Quran-ı Kərim və Peyğəmbərimizin (s) sünnəsi ilə hökm edəcək. Münafiqlər və Allahı inkar edənlər nə qədər əngəlləməyə çalışsalar da hz. Mehdi (ə.s) Allahın izni ilə vəzifəsini ən gözəl şəkildə yerinə yetirəcək.

Peyğəmbərimizin (s) hz. Mehdi (ə.s) camaatı haqqında bildirdiyi əhəmiyyətli məlumatlardan biri, bu mübarək camaat içindən çıxacaq olan münafiqlərin xüsusiyyətləridir. Hədislərdə xəbər verildiyi üzrə bu kəslər, dünya tarixinin ən azğın münafiqləri olacaq və bütün gücləriylə (öz ağıllarına görə) hz. Mehdi (ə.s) və camaatı əleyhinə mübarizə aparacaqlar. Ancaq tarix boyunca olduğu kimi Axırzamanda da Rəbbimizin qanunu bir daha təcəlli edəcək və bu hiyləgər kəslər hz. Mehdinin (ə.s) böyük elmi mübarizəsinə heç bir şəkildə zərər verə bilməyəcəklər. Allah vədini yerinə yetirəcək, kafirlər və münafiqlər istəməsə də Allah nurunu tamamlayaraq İslam əxlaqını yer üzünə hakim edəcək. Hədislərdə bildirilən hz. Mehdi (ə.s) dövründəki münafiqlərin bəzi xüsusiyyətləri bu şəkildədir:

## HZ. MEHDİ (Ə.S) CAMAATINDAN AYRILANLAR OLACAQ

Peyğəmbərimizin (s) hədislərində, sayca çox az olacaq olan hz. Mehdinin (ə.s) camaatından ayrılanlar olacağı bildirilmişdir. Bu Allahın böyük möcüzəsidir. Bu kəslər hz. Mehdini (ə.s) çox yaxından tanıdıqları, onun hədislərdə bildirilən xüsusiyyətlərə sahib olduğuna və yalnız hz. Mehdinin (ə.s) edə biləcəyi bildirilən fəaliyyətləri reallaşdırdığına yaxından şahid olduqları halda onun yanından ayrılacaqlar. Deməli ki, xalqın böyük əksəriyyəti kimi, hz. Mehdini (ə.s) bu qədər yaxından tanıma fürsəti əldə edən bu insanlar da hz. Mehdini (ə.s) fərq edə bilməyəcəklər.

Hədislərdə hz. Mehdi (ə.s)-ın camaatından ayrılanlar olacağı belə bildirilir:

***Hz. Mehdinin (ə.s) ordusu bəzən zərbələr yeyəcək, zamanla o çətin vəzifəni boynuna götürməmək, rahatlıq meyli; can, mal, vəzifə qorxusu kimi fərqli səbəblərlə ondan ayrılanlar olacaq...*** *(Ramuzü'l Ehadis, səh. 476)*

***"Ayrılanlar da, müxaliflər də ona zərər verə bilməyəcək. O özündən ayrılanlara baxmayaraq müzəffər olaraq yoluna davam edəcək."*** *(Ramuzü'l Ehadis, səh. 487; Taberani, Kebir)*

*Hz. Müaviyə ibn Kirradan (r.ə) rəvayət edilmişdir: "Ümmətimdən bir tayfa (qövm) qiyamət qopana qədər kömək etməkdə davam edər.* ***Onları tərk edənlərin ayrılmaları da onlara bir zərər verməz."*** *(Ramuzü'l Ehadis, səh. 472 – (Hz. Müaviyə İbni Kırra r.ə))*

***Ümmətimdən bir tayfa Allahın əmri ilə hərəkət etməkdə davam edir. Onlar haqq üzərində olduqları halda, qiyamət qopana qədər*** *onları tərk edən və müxalifət edən kimsənin onlara zərəri toxunmaz... (Hz. Müaviyə, Ramuzül Ehadis, səh. 472)*

## HZ. MEHDİ (Ə.S) CAMAATINDAKI MÜNAFİQLƏRİN DƏCCALIN ARXASINCA GETMƏSİ

*...Sonra MƏDİNƏ ŞƏHƏRİ SAKİNLƏRİ İLƏ BİRLİKDƏ ÜÇ DƏFƏ YELLƏNƏCƏK, BUNUN ÜZƏRİNƏ (MƏDİNƏDƏ OLAN) MÜNAFİQ KİŞİLƏR VƏ QADINLARDAN HEÇ KİMSƏ QALMAYIB HAMISI ONUN YANINA GEDƏCƏKLƏR və beləcə dəmirçi körüyünün dəmirin kirini, pasını aradan qaldırıb atdığı kimi Mədinə də pisliyi (yəni xəbis insanları) atacaq və o günə qurtuluş günü deyiləcəkdir. (İbni Mace cild 10, səh. 331-335)*

# HZ. MEHDİ (Ə.S.) VƏ CAMAATI AYRILANLARDAN TƏSİRLƏNMƏYƏCƏK

*Hz. Müaviyədən (r.ə) rəvayət edilmişdir: "Ümmətimdən bir tayfa hər kəs üzərinə hakim olmadıqca qiyamət qopmaz.* ***Onlar özlərini tərk edənlərə fikir verməzlər və özlərinə kömək edənə də fikir verməzlər."*** *(Ramuzü'l Ehadis, 476 (İbni Mace))*

*Hz. Cabirdən (r.ə) rəvayət edilmişdir:* ***"Bu iş ondan ayrılanlara baxmayaraq müzəffər olaraq davam edəcək. Müxaliflərin və çıxanların ona zərəri olmaz."*** *(Ramuzül Ehadis, 487)*

*Sevbandan (r.ə) rəvayət edilmişdir; "Rəsulullah (s) buyurdu ki: Ümmətimdən bir camaat Allahın əmri reallaşana qədər batilə qələbə çalaraq haqq üzrə davam edəcək və* ***onlarıköməksiz buraxanlar onlara zərər verə bilməyəcəklər."*** *(Sünen-i Tirmizi, 4/91)*

# MÜNAFİQLƏRİN AYRILMASINDAN SONRA HZ. MEHDİNİN (Ə.S) ZÜHURU

*Süleyman ibn Bilal deyir ki: İmam Cəfər-i Sadiq (ə.s) atasından, o da babasından nəql edir ki, hz. Hüseyn (ə.s) belə buyurdu: Bir gün adamın biri Əmirəlmöminin Əlinin (ə.s) yanına gələrək: "Ey Əmirəlmöminin! Bizə bu Mehdimizdən bəhs edə bilərsənmi? deyə ərz edincə belə buyurdu:* ***"GETMƏSİ LAZIM OLANLAR GEDİB MÖMİNLƏR AZALDIĞINDA VƏ FİTNƏKARLAR GETDİYİNDƏ MƏHZ ORADA (YƏNİ UZAQ BİR YERDƏ) ZÜHUR EDƏCƏKDİR."*** *(Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 250)*

# HZ. MEHDİ (Ə.S) CAMAATININ MÜNAFİQLƏRDƏN TƏMİZLƏNMƏSİ

*Abdullah ibn Ömər-i Yemani, bir ricaldan nəql edir ki, imam Məhəmməd Baqir (ə.s) belə buyurdu: "Gözdəki sürmənin təmizləndiyi kimi təmizlənəcəksiniz ey Ali-Məhəmmədin şiələri. Və gözün sahibi sürməni gözünə nə zaman çəkəcəyini bilir, amma nə zaman sürməni siləcəyini bilməz.* ***MƏHZ EYNİ ŞƏKİLDƏ SƏHƏR BİZİM ŞƏRİƏTİMİZƏ VƏ ƏMRİMİZƏ TABE OLAN AXŞAM ONDAN ÇIXACAQDIR. AXŞAM BİZİM ŞƏRİƏTİMİZƏ VƏ ƏMRİMİZƏ TABE OLANSA SƏHƏR ONDAN ÇIXACAQDIR.*** *(Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 241)*

*"...**Təmizlənəcəksiniz, eynilə qızılın təmizləndiyi kimi.** Və eynilə qızıl kimi təmizlənib saf olacaqsınız." (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani səh. 236)*

## HZ. MEHDİ (Ə.S) MÜNAFİQ XARAKTERLİ İNSANLARI SİMALARINDAN TANIYACAQ

*Əbu Basirdən:*

*İmam Cəfəri Sadiq (ə.s) "**Onları üzlərindəki əlamətlərdən tanıyardın**" (Məhəmməd surəsi, 30), ayəsi haqqında belə buyurdu: **ALLAH ONLARI TANIYIR, LAKİN BU AYƏ QAİM (HZ. MEHDİ (Ə.S)) HAQQINDA NAZİL OLMUŞDUR. HZ. MEHDİ (Ə.S) ONLARI (MÜNAFİQLƏRİ) ÇÖHRƏSİNDƏN TANIYACAQ VƏ ƏSHABI İLƏ BİRLKDƏ ONLARI (MƏNƏVİ CƏHƏTDƏN) DARMADAĞIN EDƏCƏK.**" (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 283)*

## HZ. MEHDİNİN (Ə.S) CAMAATI "TƏMİZ VƏ BƏRƏKƏTLİ BUĞDAYA" BƏNZƏYƏCƏKDİR. ARALARINDAN ÇIXAN MÜNAFİQLƏR DƏ, "BU

# BUĞDAYA DÜŞƏN PARAZİT, İYRƏNC BUĞDA QURDLARI” KİMİ OLACAQLAR

*Esbağ ibn Nebate deyir ki: Əmirəlmöminin Əli (ə.s) belə buyurdu: “...Elə ki, sizdən sadəcə gözdəki sürmə qədər və ya yeməkdəki duz qədər qalacaq. Və mən sizə bir nümunə verəcəyəm: Adamın birinin bir miqdar buğdası vardır. Onu təmizləyər və bir evə qoyar, uzun müddət sonra geri qayıtdıqda ona qurd düşdüyünü görər, onu təkrar ayırar və təmizləyər sonra təkrar evin içinə qoyar. Uzun müddət sonra qayıtdığında ona təkrar qurd düşdüyünü görər. Təkrar onu ayırar və təmizləyər və həmişə eyni işi təkrarlayar.* ***NƏHAYƏT QURDLARIN HEÇ ZƏRƏR VERƏ BİLMƏDİYİ ÇOX AZ SAĞLAM BUĞDA QALAR. MƏHZ SİZ DƏ BELƏSİNİZ. AXIRDA İÇİNİZDƏ FİTNƏLƏRİN ƏSLA ZƏRƏR VERƏ BİLMƏDİYİ ÇOX AZ QRUP QALACAQDIR.*** *“(Eyni hədisi Əhməd ibn Məhəmməd ibn Səid də nəql edər.) (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 246)*

Hədisdə hz. Mehdinin (ə.s) camaatından çıxan münafiqlərin, **”buğdaya daraşan iyrənc qurdlar”** kimi olduqları xəbər verilmişdir. Hz. Mehdi (ə.s) camaatı, “buğda kimi, irəlidə açılıb səpiləcək, inkişaf edib böyüyəcək, bərəkət gətirəcək, gələcək vəd edən bir nemətə” bənzədilmişdir. Münafiqlərin də, **”buğdanı içdən məhv etməyə çalışan, qurd kimi iyrənc və xəbis varlıqlar olduqları”** xəbər verilmişdir. Hədisdə, sahibinin buğdanı təmizləyəcəyi, amma buğdaya yenə qurd düşəcəyi; sahibi hər dəfə bu prosesi təkrarladıqdan sonra, ən sonunda buğdada heç bir qurd qalmayacağı izah edilmişdir. Bu məlumatlara görə, buğdadakı iyrənc və parazit qurdların ayrılıb buğdanın pislikdən təmizlənməsi kimi; hz. Mehdi (ə.s) camaatı da bir müddət sonra münafiqlərdən təmizlənib sonunda tərtəmiz camaatla vəzifəsini yerinə yetirəcəkdir.

# MÜNAFİQLƏR HZ. MEHDİDƏN (Ə.S) ÇƏKİNƏCƏKLƏR

**BİR ÇOX İNSAN QURANDAN ÇOX ONUN (HZ. MEHDİNİN (Ə.S)) QORXUSU SƏBƏBİYLƏ günahlardan çəkinəcəkdir...** (*İbn-i Arabi, El Futuhatul Mekkiyye, səh. 6)*

Bir qisim insanlar hz. Mehdinin (ə.s) güclü fərasətindən, bəsirətindən və ağlından çox çəkinəcəklər. Bundan ötrü özlərini iman edirmiş kimi göstərəcək və müsəlman kimi yaşamaq məcburiyyətində qalacaqlar. Əxlaqsızlıq etməyə güc və cəsarət tapa bilməyəcəklər.

## MÜNAFİQLƏRİN FİTNƏSİ VƏ SƏRT QƏLBLİ OLMALARI

*...LAKİN QƏLBLƏRİ QURD QƏLBİ KİMİ SƏRT OLACAQ. (Tirmizi, Zühd, 60)*

***HEÇ BİR ŞEY SƏNİ ONA BEYƏT ETMƏKDƏN (ONUN TƏLƏBƏSİ OLMAQDAN, ONA TABE OLMAQDAN) YAYINDIRMASIN,*** *sənə mane olanlar hər zaman fitnəyə sığınanlardır. Əgər danışarlarsa şər danışarlar, əgər susarlarsa fəsad (pis, xarab) və fasiqdirlər. (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 252)*

(Bu mövzuda daha ətraflı məlumat əldə etmək istəyənlər www.hazretimehdi.com veb səhifəsinə baxa bilərlər.)

# HÖRMƏTLİ ADNAN OKTARIN MÜNAFİQLƏR HAQQINDAKI FİKİRLƏRİ

(KANAL 35, TV KAYSERİ VƏ KANAL AVROPADAKI MÜSAHİBƏSİ – 7 fevral 2010)

**CİHAT GÜNDOĞDU:** Şeytandan Allaha sığınıram. **"Onlardan bir dəstə isə: "Evlərimiz açıqdır "deyə peyğəmbərlərdən icazə istəyirdi; halbuki onlar (-ın evləri) açıq deyildi. Onlar yalnız qaçmaq istəyirdilər."** (Əhzab surəsi, 13) deyə buyurur, inşaAllah. Başqa bir ayədə də, şeytandan Allaha sığınıram. **"Əgər güc yetirsəydik, şübhəsiz səninlə birlikdə çıxardıq."** (Tövbə surəsi, 42) deyirlər inşaAllah. Əslində hər kəsin mütləq əlindən gələn bir fayda vardır. Burada səmimiyyətsizliklərini Allah bizə təsvir etmiş olur, inşaAllah.

**ADNAN OKTAR:** MaşaAllah. Münafiqlər ilə əlaqədar ayələr varmı səndə?

**APARICI:** Hocam məndə, tamamilə buna uyğun bir sual var. Əgər icazə versəniz, tamaşaçımızın sualını çatdırım.

"Hocam, münafiqlər ilə əlaqədar bir ayə oxudum: **"Onlar: "İtaət edirik!" – deyirlər. Sənin yanından çıxıb getdikdə isə onların bir qismi gecələr bir yerə yığışıb sənin dediyinin əksinə tədbir görürlər. Allah onların gecələr nə tədbir gördüklərini yazır. Onlardan üz döndər və Allaha təvəkkül et! Qoruyan olaraq Allah yetər"** Nisa surəsi, 81-ci ayə. Mehmet Can Yüce, Osmaniyədən bizə sualını göndərib. **"Münafiqlər əvvəl, peyğəmbərlərinin dediklərini qəbul edirlər, inanırlar, amma öz başlarına qalanda inkar edirlər. Bir insan, necə belə ikiüzlü, səmimiyyətsiz ola bilər? İnkar edirlərsə, niyə möminlər ilə bərabərdirlər? Münafiqləri necə anlayarıq və onlardan necə qoruna bilərik hocam?"** demiş.

**ADNAN OKTAR:** MaşaAllah, çox uzun bir sual. Quranda, münafiqlərin uzun-uzun əlamətləri vardır. Münafiqlər çətinlikdən qorxarlar. Ən açıq əlaməti odur. Çətindən çox çəkinirlər. Yəni canları şirindir. Amma namaz qılar münafiq, oruc tutar, zəkat verər. Yəni çətin mübarizələrə girə bilmirlər. Tapdınmı?

**CİHAT GÜNDOĞDU:** Bəli inşaAllah ....

**ADNAN OKTAR**: Hamısını bir-bir, yavaş-yavaş oxu. Mən sonra şərh edəcəyəm.

**CİHAT GÜNDOĞDU**: İnşaAllah. Şeytandan Allaha sığınıram. **"Münafiq kişilər və münafiq qadınlar bir-birinin tayıdırlar. Onlar insanları pis işlər görməyə vadar edir, yaxşı əməllərə qadağa qoyur və xəsislik göstərirlər. Onlar Allahı unutdular. Allah da onları unutdu. Həqiqətən, münafiqlər günahkardırlar. Allah münafiq kişilərə, münafiq qadınlara və kafirlərə içərisində əbədi qalacaqları Cəhənnəm odu vəd etmişdir. Bu onlara kifayət edər! Allah onlara lənət etmişdir. Onlar üçün daimi bir əzab vardır.** Bu, Tövbə surəsi, 67 və 68-ci ayələrdir.

Nisa surəsində yenə Allah münafiqlərdən bəhs edir. **"Münafiqlər, həqiqətən də, Allahı aldatmağa çalışırlar. Halbuki Allah onları aldadır. Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər. Onlar imanla küfrün arasında tərəddüd edir, nə bunlara, nə də onlara (nə möminlərə, nə də kafirlərə) tərəf olurlar. Allahın azdırdığı şəxs üçün heç bir yol tapa bilməzsən." Yenə Məhəmməd surəsində, "Bu ona görədir ki, onlar Allahın qəzəbinə səbəb olan şeyə uydular və Onun razı qaldığı şeyə nifrət etdilər. Buna görə də Allah onların əməllərini boşa çıxartdı. Yoxsa qəlblərində xəstəlik olanlar elə hesab edirdilər ki, Allah onların kin-küdurətini üzə çıxarmayacaq? Əgər Biz istəsəydik, onları sənə göstərərdik, sən də onları üzlərindəki əlamətlərdən tanıyardın. Sən onları danışıq tərzlərindən mütləq tanıyacaqsan. Allah sizin əməllərinizi bilir."** İnşaAllah. Bəqərə surəsində yenə eyni şəkildə. Şeytandan Allaha sığınıram; **"İnsanların eləsi vardır ki: "Biz Allaha və axirət gününə iman etdik" deyərlər; halbuki inanmış deyildirlər."** deyə buyurur Allah. Bu şəkildə təbii ki, tamamilə iman edən bir insan tipi var qarşımızda, amma təbii ki, səmimiyyətsizliyi ön plandadır. Adnan bəyin də həmişə üzərində dayandığı mövzu, onsuz da səmimiyyətdir bu günə qədər. İnsanın öz-özünü bu şəkildə qiymətləndirib, səmimiyyət nöqtəsində özü barədə əvvəl qənaətə gəlməlidir ki, münafiq rəftarı göstərməsin, inşaAllah.

**APARICI**: Açıq-aşkar qəbul etmirik demirlər. Yaxşı, qəbul edirik, deyirlər. Amma səmimiyyətsiz şəkildə dedikləri üçün.

**CİHAT GÜNDOĞDU**: Əməllərində də bunu deyirlər, amma Allah əməllərini boşa çıxaracağını söyləyir, inşaAllah. Bununla birlikdə...

**CİHAT GÜNDOĞDU**: **"Sən onlara baxdıqda bədən quruluşları xoşuna gəlir, danışanda onların dediklərinə qulaq asırsan. Halbuki, onlar divara**

**söykədilmiş dirəklər kimidirlər. Onlar hər bir səs-küyün özlərinə qarşı olduğunu sanırlar. Onlar düşməndirlər. Sən onlardan çəkin! Allah onları məhv etsin, necə də haqdan döndərilirlər!”** (Münafiqun surəsi, 4), **”Onlar harada olursa olsunlar, Allahın və mömin insanların himayəsində olanlar istisna olmaqla onlara həmişə zəlillik qismət olar.”** (Ali İmran surəsi, 112) Quranı anlamadıqları ifadə edilir. **“Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi mənası aydın ayələrdir ki, bunlar da Kitabın anasıdır. Digərləri isə mənası aydın olmayan ayələrdir. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər. Onun yozumunu isə Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə deyərlər: “Biz onlara iman gətirdik, hamısı bizim Rəbbimizdəndir”. Bunu isə ancaq ağıl sahibləri dərk edərlər.”** deyə buyurulur, Ali İmran surəsi, 7-ci ayədə.

**ADNAN OKTAR**: Münafiqlərdən məhz ən bariz olandır, mənim günlərdən bəri izah etdiyim odur. Bax, evlilik sünnəsinə yaxşı əməl edər münafiq. Yemək yemə ilə əlaqədar bütün sünnələrə çox yaxşı əməl edər. Həcdə gəzmə kimi, gedər onu çox yaxşı edər. Namaz qılar, **”onların namazları göstərişdir”** (Nisa surəsi, 142) deyir. Təhlükəyə girə bilməz, yəni məsələn, Allah uğrunda həbsə düşmək, təhqirə məruz qalmaq, böhtana məruz qalmaq, əzilmək, təcrid edilmək, ictimai təzyiq görmək, işindən atılmaq, evlənməmək kimi çətinliklərə girə bilməz. Yəni, məsələn, peşəsinə bir şey deyilmirsə, malına mülkünə zərər gəlmirsə, namaz qılar, yəni namazdan bir şey itirməz o. Oruc da tutar, hətta bir çox yerdə, iş yerində və yaxud oruc tutursa, dinsizlər də oruc tuturlar, yəni onlarla birlikdə çünki məcbur hiss edir özünü. Yəni mən də tutum, ayıb olar deyə tutur. Və yaxud da yaxşı təsir edir sağlığıma deyir, kilo almışdım bir az deyir. Pəhriz olaraq tutur təbii ki. Həqiqətən yaxşı gəlir mənə, canlanıram oruc tutduğumda deyir. Yemək yemək vaxtımı alır deyir. Oruc tutduğumda vaxtım da yaxşı gedir deyir. Amma çətin döyüşlərə gələ bilmirlər, çətin mübarizələrə. Məsələn, Peyğəmbərimizin (s) səhabələr ilə apardığı mübarizə var. İki tərəfdən sıxışdırılır müsəlmanlar; üstdən və altdan, iki tərəfdən. Bir-bir münafiqlər tökülməyə başlayır belə mühitdə. Deyirlər ki, bir qismi deyir ki, Allah haqqında zənlərə başladılar deyir, Allah haqqında. Allah varmı, yoxmu deyirlər? (Allahı tənzih edirik) Bir qismi Rəsulullah (s.ə.v.) haqqında zənlərə başlayır. Bir qismi də, Peyğəmbərin (s) onları aldatdığını söyləyir. Yəni bax deyir məhz, bu gün artıq bitdik deyir, hər tərəfdən sarıldıq, bizi öldürəcəklər deyir. Bəs Allah vardı deyir, Peyğəmbər (s) doğru idi deyir (haşa). Peyğəmbər

(s) bizi aldatdı deyir. Sonda müsəlmanlar yenə qələbə qazanırlar ki, şəhid də ola bilərlər orada, hamısı şəhid də ola bilər, o da bir xeyirdir. Sonra şəxsiyyətləri ortaya çıxmış olur məhz o mühitdə. Yəni məsələn, hicrətdə ortaya çıxır, Peyğəmbər (s) ilə birlikdə hicrət etmək istəmirlər. Malı var, mülkü var, arvadı var buraxmaq istəmir, oğul-uşağı. Yəni hamısını buraxa bilmir.

**APARICI:** Səmimiyyətli olanlar o zaman seçilir, elə deyil?

**ADNAN OKTAR:** Təbii, onda seçilir. Yoxsa onun xaricində, çətinlik görmənin xaricində möminin ortaya çıxması olmur, inşaAllah. Cihat hocam, danış.

**CİHAT GÜNDOĞDU:** Quranı anlamadıqları başqa bir ayədə belə bildirilmişdir. Tövbə surəsi, 124-cü ayə. **"Bir surə nazil edildiyi zaman onlardan istehza ilə: "Bu, hansınızın imanını artırdı?" - deyənlər də var. İman gətirənlərə gəldikdə isə, o surə onların imanını artırır və onlar bir-birlərini müjdələyirlər."** inşaAllah.

Yenə başqa bir ayədə, **"Bir surə nazil edildiyi zaman onlar: "Sizi kimsə görürmü?" - deyə bir-birlərinə baxır, sonra da üz çevirib gedirlər. Anlamayan adamlar olduqlarına görə Allah onların qəlbini imandan məhrum etmişdir."** (Tövbə surəsi, 127) deyə buyurulur. Allahı çox az andıqları bildirilir Quranda tez-tez. **"Allahı zikr etmək isə şübhəsiz ən böyük ibadətdir."** (Ənkəbut surəsi, 45) deyə bildirilərkən möminlər üçün Ənkəbut surəsində; **"Münafiqlər, həqiqətən də, Allahı aldatmağa çalışırlar. Halbuki Allah onları aldadır. Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər."** (Nisa surəsi, 142) deyə bildirilir, inşaAllah.

**ADNAN OKTAR:** Məsələn, məşhur belə bir şəxs var idi, tanınan, belə böyük ağabəy olaraq bilinən biri. Axı deyir, bu ayaq yuma olmasa, o qədər rahat namaz qılaram ki, deyir. Yəni hamı tərəfindən bilinən bir insan. Ona görə deyir mübarək. Bir də onu belə gülərək izah edir, sanki zarafat mövzusu imiş. Ayaq yuma olduğu üçün narahat olurmuş namaz qılmaqdan. Yoxsa çox rahat qılaram deyir, namazı deyir. Ona desən ki, hər namaz başına sənə 1 milyard verəcəyik, ayağını yüz dəfə yuyar o. 1 milyard da deyil, çox az pula belə edər. İman zəifliyi buna səbəb olur. Amma bu da məhz imtahanın gərəyi olmuş olur. Allah, xüsusi yaradır belə insanları.

**CİHAT GÜNDOĞDU:** ...Münafiqlərin təkəbbürlü olduqları bildirilir xüsusilə. Eqoist olduqları izah edilir, inşaAllah. **"Xeyr, həqiqətən insan azar. Özünü müstağni gördüyündən."** (Ələq surəsi, 6-7) deyə bildirilmiş Ələq surəsində.

**ADNAN OKTAR:** Bax, müstağni görür özünü, mən mükəmmələm deyir, bəli.

**CİHAT GÜNDOĞDU: "Çünki onlara Allahdan başqa ilah yoxdur, deyildiyi zaman təkəbbür edərlər."** (Saffat surəsi, 35) deyə bildirilir. **"Ona: "Allahdan qorx!" – deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona Cəhənnəm kifayət edər. Ora nə pis yataqdır!"** Bəqərə surəsi 206-cı ayə. **"Onlara: "Gəlin Allahın Elçisi sizin üçün bağışlanma diləsin!" – deyildiyi zaman başlarını yelləyir və sən onların özlərini dartaraq üz döndərdiklərini görürsən"** Münafiqun surəsi, 5-ci ayə.

**ADNAN OKTAR:** Bunlarda ümumiyyətlə təkəbbür hissi olur. Yəni belə özünü mükəmməl, əxlaqi cəhətdən, şəxsiyyət olaraq hər istiqamətdən mükəmməl görürlər. Bəli.

**CİHAT GÜNDOĞDU:** Qəlblərində olmayanı söylədikləri bildirilir Quranda yenə. Şeytandan Allaha sığınıram. **"...Onlardan bir dəstə də, həqiqətən evlərimiz açıqdır, deyə Peyğəmbərdən izin istəyirdi. Halbuki onların evləri açıq deyildi. Onlar yalnız qaçmaq istəyirdilər."** (Əhzab surəsi, 13)...

**ADNAN OKTAR:** Məsələn, bax bu qorxudur, görürsənmi? Çətinliyi görür, dərhal yalan söyləyir.

**APARICI:** Mənim gücüm çatmaz, deyir.

**ADNAN OKTAR:** Bəli, gücüm çatmaz deyir, yalandır o. Amma özünü aldadır. Məntiqi cavab verir, vicdani cavab vermir.

**CİHAT GÜNDOĞDU:** Fəth surəsi, 11-ci ayədə də, "**Geri qalan bədəvilər sənə: "Var-dövlətimiz və ailələrimiz bizi döyüşə getməkdən yayındırdı. Allahdan bizim üçün bağışlanma dilə!" – deyəcəklər. Onlar qəlblərində olmayanları dilləri ilə deyirlər. De: "Əgər Allah sizə bir zərər yetirmək və ya bir xeyir vermək istəsə, Onun edəcəyi işin qarşısını kim ala bilər?" Xeyr, Allah sizin nə etdiyinizdən xəbərdardır.**"

**ADNAN OKTAR:** Bax, mallarımız, ailələrimiz deyirlər deyilmi?

**CİHAT GÜNDOĞDU:** Məşğul etdi deyirlər, bəli, inşaAllah. Allah da; **"...onlar, qəlblərində olmayanı dilləri ilə deyirlər."** (Fəth surəsi, 11) deyə cavab verir inşaAllah. Dediyiniz kimi, yaxşılığı əmr edib pislikdən çəkindirmək üçün çalışır möminlər. Münafiqlərin isə belə cəhdləri olmur inşaAllah. Yaxşılığa, tam tərsinə mane olurlar; pislik etmək üçün tələsirlər. Tövbə surəsi, 67-ci ayə: **"Münafiq kişilər və münafiq qadınlar bir-birinin tayıdırlar. Onlar insanları**

**pis işlər görməyə vadar edir, yaxşı əməllərə qadağa qoyur və xəsislik göstərirlər..."**

**ADNAN OKTAR**: Xəsisdirlər yəni.

**CİHAT GÜNDOĞDU**: İnşaAllah. "**...Onlar Allahı unutdular. Allah da onları unutdu. Həqiqətən, münafiqlər günahkardırlar."** (Tövbə surəsi, 67) İnşaAllah. Allahın bəyəndiklərini çirkin görürlər. Şeytandan Allaha sığınıram. **"Bu ona görədir ki, onlar Allahın qəzəbinə səbəb olan şeyə uydular və Onun razı qaldığı şeyə nifrət etdilər. Buna görə də Allah onların əməllərini boşa çıxartdı."** Məhəmməd surəsi, 28-ci ayə. Nankor olduqları bildirilir Quranda. **"Onların bağışlanması üçün dua etsən də, etməsən də, hətta onlar üçün yetmiş dəfə bağışlanma diləsən belə, Allah onları əsla bağışlamayacaqdır. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər. Allah günahkar insanları doğru yola yönəltməz"** İnşaAllah. Və həm fiziki, həm də mənəvi cəhətdən pis olduqları bildirilir, inşaAllah. Tövbə surəsi, 125-ci ayədə. **"Qəlbində xəstəlik olanlara gəlincə, o surə onların murdarlığı üstünə bir murdarlıq da artırır və onlar kafir qalaraq ölürlər."** deyə bildirir inşaAllah.

**ADNAN OKTAR**: Həqiqətən fiziki olaraq da pis olurlar bunlar. Bəli.

**CİHAT GÜNDOĞDU**: Davamlı narahatlıq içərisində olduqları Quranda yenə bildirilir. "**Münafiqlər onları haraylayıb deyəcəklər: "Məgər biz sizinlə birlikdə deyildikmi?" Möminlər deyəcəklər: "Bəli, lakin siz öz-özünüzü aldadırdınız, möminlərə bəla üz verməsini gözləyirdiniz, haqqa şübhə edirdiniz və Allahın əmri gələnədək xülyalar sizi yoldan çıxartdı. Tovlayan şeytan Allah barəsində sizi yaman aldatdı".** (Hədid surəsi, 14)

**ADNAN OKTAR**: Bir daha oxu bu ayəni.

**CİHAT GÜNDOĞDU**: **"Münafiqlər onları haraylayıb deyəcəklər: "Məgər biz sizinlə birlikdə deyildikmi?" Möminlər deyəcəklər: "Bəli, lakin siz öz-özünüzü aldadırdınız, möminlərə bəla üz verməsini gözləyirdiniz, haqqa şübhə edirdiniz və Allahın əmri gələnədək xülyalar sizi yoldan çıxartdı. Tovlayan şeytan Allah barəsində sizi yaman aldatdı."**

**ADNAN OKTAR**: Məhz, münafiqləri tam təsvir edən ayələrdən biri. Bəli. Yəni ruh hallarını, şəxsiyyətlərini tam, ətraflı olaraq təsvir edir. Bunlar bir-bir düşünülməlidir, inşaAllah.

**CİHAT GÜNDOĞDU**: Yenə Münafiqun surəsi, 4-cü ayədə; **"Onlar hər bir səs-küyün özlərinə qarşı olduğunu sanırlar"** deyə Allah bildirir.

**ADNAN OKTAR**: Ona görə də, aman-aman bu işlərə qarışmayım. Bu əleyhimizədir deyir, məsələn, bir çağırış olur, əleyhimizə. Gəl müsəlmanlar toplansın bir yerə, söhbət etsin, əleyhinə olduğunu zənn edir. Bir şey deyirsən, məsələn, kitab dağıdın. Onu da əleyhinə zənn edir. Bir yerdən bir xəbər eşidir, onu da əleyhinə zənn edir. Yəni davamlı özünü müdafiə halındadır. O bir əvvəlki ayəni şərh edərək açıqlaya bilərsənmi? Hansı ki, iki dəfə oxutdum.

**CİHAT GÜNDOĞDU**: Bəli. **"Biz sizinlə birlikdə deyildikmi?" deyərlər. "Bəli ancaq siz özünüzü fitnəyə düşürdünüz..."** Yəni müsəlmanlar ilə birlikdə bir müddət yaşamışlar. Bəlkə də müəyyən işlər də görmüşlər. Müəyyən işlər də etmiş ola bilərlər. İnşaAllah. **"...Bəli ancaq siz özünüzü fitnəyə düşürdünüz..."** Normalda müsəlmanları uzaq bir yerdən, geridə qalaraq gözləməyə başlayırlar.

**ADNAN OKTAR**: Ayrılırlar və onlara qarşı ediləcək bir əməliyyat və yaxud onlara ediləcək hücum, təhqir, böhtan onları gözləyirlər.

**CİHAT GÜNDOĞDU**: Bəli. **"...şübhələrə qapıldınız..."** Demək ki, Allaha iman nöqtəsində çox böyük şübhələri vardır. **"...Sizləri vəsvəsələr yoldan çıxartdı..."** Demək şeytan davamlı vəsvəsə verir, şübhələrə salır. Şeytanın qabıq kimi bağlamış olması da bu deməkdir. "**...Allahın əmri (Olan ölüm) gəldi; ...**" Mötərizə içində yazılmış olan "ölüm" deyə. **"Allahın əmri gəldi və o aldadıcı da sizi Allah ilə aldatmış oldu."** Demək ki, buradan anladığımız, Allahın adıyla da şeytanın bu şəkildə insanları azdıra biləcəyidir.

**ADNAN OKTAR**: Və şeytanın yolunda adamlar var, Allahın adını istifadə edərlər deyilmi? Allah yolunda səy göstərməkdən, İslamdan müsəlmanları soyudan, İslam əxlaqından, dünya hakimiyyətindən insanları soyutmağa çalışan.

**CİHAT GÜNDOĞDU**: Yenə Allahın adını istifadə edərək bu şəkildə azdıra bilirlər demək ki, bunu anlamış oluruq, inşaAllah. Asanlıqla ümidsizliyə qapıldıqları da Quranda ifadə edilir, inşaAllah. Yusif surəsi, 87-ci ayədə; **"...ancaq kafir adamlar Allahın rəhmətindən ümid kəsər."** deyə bildirilir inşaAllah.

**ADNAN OKTAR**: Rahat şəkildə ümid kəsirlər.

**CİHAT GÜNDOĞDU**: Bəli, möminlər isə davamlı ümidvar olurlar. Allahın rəhmətindən ümid kəsmirlər. Məhəmməd surəsi, 21-ci ayə: **"...Cihada qəti**

**əmr verildiyi zaman Allaha sadiq qalsaydılar, əlbəttə ki, onlar üçün daha yaxşı olardı.”**

**ADNAN OKTAR:** Çətin bir vəziyyətdə, bəli.

**CİHAT GÜNDOĞDU:** Allahın vədi haqdır deyə düşünüb, bu şəkildə Allaha bağlılıqda davam etmək, səbat etmək lazımdır Allahın izni ilə, inşaAllah.

Möminlərə qarşı davamlı qorxu və narahatlıqları var, bu da Quranda bildirilmişdir. “**Onlar sizinlə həmrəy olduqlarına and içirlər. Halbuki onlar sizdən deyildirlər. Əslində, onlar qorxaq adamlardır. Əgər onlar bir sığınacaq və ya daldalanmaq üçün mağaralar yaxud gizlənməyə bir deşik tapsaydılar, ləngimədən ora yönələrdilər.”** (Tövbə surəsi, 56-57) Davamlı qorxuları var özlərinə haradan zərər gələcəyi barəsində. Hər hansı bir yerdə çıxan xəbər onları narahat etməyə bəs edir inşaAllah. “**Doğrusu, onlar qəlblərində Allahdan çox sizdən qorxurlar. Çünki onlar anlamayan adamlardır.”** (Həşr surəsi, 13) Möminlərdən qorxurlar, başda Peyğəmbərimiz hz. Məhəmməd (s) olmaqla. O zamankı münafiqlər də, xüsusilə ondan çox qorxurlar. Allahdan deyil, daha çox möminlərdən bu şəkildə qorxmuş, narahat olmuş olurlar, İnşaAllah. Mömin birliyinin içindən çıxacaqları onsuz da Quranda bildirilmişdir yenə. Nur surəsi 11-ci ayə: **“Doğrusu, uydurulmuş bir yalanla gələnlər, sizin içinizdən olan bir dəstədir”** deyə bildirir, inşaAllah. İman etmədikləri halda, iman etmiş kimi göründükləri təsvir edilmişdir. Tövbə surəsi 109-cu ayə; **“Binasını Allah qorxusu və rizası üzərində quran kəs daha yaxşıdır, yoxsa binasını dağılmaqda olan uçurumun lap kənarında quran və onunla birlikdə Cəhənnəm oduna yuvarlanan kəs? Allah zalım qövmü doğru yola yönəltməz.”** Burada Allah qorxusu olmadan, imanın çox zəif olacağı və insanı münafiqliyə aparacağı təsvir edilmişdir, inşaAllah. **“Sizi razı salmaq üçün yanınızda Allaha and içirlər. Əgər mömindirlərsə, bilsinlər ki, Allahı və Onun Elçisini razı salmaları daha yaxşıdır.”** Tövbə surəsi 62-ci ayə. Burada möminləri davamlı məmnun etməyə və özlərinin də onlardan olduğuna inandırmağa çalışdıqlarına işarə var. Burada heç bir şəkildə sözlə deyil, davranışla insan özünü onsuz da isbat etməlidir, o da Allaha isbat etməlidir onsuz da. İnşaAllah. İnsanlar içərisində eləsi də vardır ki: **“İnsanlar arasında elələri də vardır ki, mömin olmadıqları halda: “Allaha və Axirət gününə inanırıq” - deyirlər. Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki yalnız özlərini aldadır və bunu anlamırlar. Onların qəlblərində**

**xəstəlik vardır və Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə də ağrılı-acılı bir əzab çəkəcəklər"** (Bəqərə surəsi, 8-10), MaşaAllah.

**CİHAT GÜNDOĞDU:** Münafiqlər, mömin birliyindən ayrıldıqdan sonra kin və nifrətləri olur möminlərə qarşı. Buna görə intiqam alma səyləri olur ciddi mənada. Bunun üçün ciddi səylər göstərirlər. Bu da Quranda ifadə edilmişdir. Şeytandan Allaha sığınıram, Tövbə surəsi 74-cü ayə, "**Onların intiqam almağı yalnız Allahın və Onun Elçisinin onları Öz lütfündən varlandırdığına görədir."**

**ADNAN OKTAR:** Peyğəmbərimiz (s) onların zəngin olmasına vəsilə olur, onlar Peyğəmbərimizdən (s) nifrət edirlər, haşa. Mehdi (ə.s) də elə olacaq. Mehdi (ə.s) o insanların rahatlığına, hüzuruna vəsilə olacaq, lakin o onları azdırıb Mehdiyə (ə.s) qarşı olmalarına səbəb olacaq. İnşaAllah, bəli.

**CİHAT GÜNDOĞDU:** Ciddi intiqam cəhdləri var, bunun üçün əllərindən gələni edirlər. Bütün mallarını hətta belə sərf edə biləcəkləri kimi, Allah yolunda sərf etməzkən, bu şəkildə ciddi səylər sərgiləyə bilirlər, inşaAllah. Ali İmran surəsi 120-ci ayədə, şeytandan Allaha sığınıram, **"Sizə bir uğur nəsib olsa, bu onları kədərləndirər. Sizə bir fəlakət üz verdikdə isə, buna fərəhlənərlər. Əgər səbir etsəniz və Allahdan qorxsanız, onların qurduğu hiylə sizi ziyana sala bilməz. Həqiqətən, Allah onların nə etdiklərini əhatə edir".** Allah hiyləli tələlər quracaqlarını xəbər verir. Planlar, sui-qəsdlər qura biləcəklərindən bizi xəbərdar etmiş olur. Bunlara qarşı möminlərin də yenə Allaha təvəkkül etməli olduqları bildirilmiş, xəbər verilmiş olur inşaAllah.

**ADNAN OKTAR:** Təbii ki, hər vəziyyətdə hamısını yaradan Allahdır çünki.

**CİHAT GÜNDOĞDU**: İnşaAllah. İnkarçılarla əməkdaşlıq halında olduqları bildirilir Quran-i Kərimdə, şeytandan Allaha sığınıram, **"Münafiqlərə müjdə ver ki, onlar üçün ağrılı-acılı bir əzab vardır. Mömінləri qoyub kafirləri özlərinə dost tutanlar gücü və əzəməti onlardamı axtarırlar? Halbuki qüvvət və əzəmət tamamilə Allaha məxsusdur."** (Nisa surəsi, 138-139). Bir qüvvət, bir yerə arxalanma ehtiyacları var, buna görə də küfrü daha güclü görürlər öz ağıllarına görə.

**ADNAN OKTAR:** Mehdinin (ə.s) yanından ayrılan münafiqlər də elə edəcəklər deyilmi? Gedib küfrdə dəstək axtaracaqlar. Gedib münafiqlərə sığınacaqlar. Bir də münafiqlər öz aralarında qövm olurlar, ayrıla bilmirlər münafiqlər, o çox qəribədir. Normalda kafirlərlə gedib əməkdaşlıq etmələri lazım ikən, ayrılıb bir araya gəlib yeni bir camaat təşkil edirlər münafiqlər.

**APARICI:** Bir-birlərini tapırlar dediniz.

**ADNAN OKTAR:** Bir-birlərini, məsələn çox qəribədir, möcüzədir bu. Normalda bir-birlərindən nifrət edərlər deyir Allah Quranda, buna baxmayaraq, qəlbləri parça-parça deyir, bir-birlərindən nifrət edərlər, amma birlikdə hərəkət edərlər deyir. Kafir topluluğuna girmirlər, yenə ayrı qövm meydana gətirirlər. Böyük möcüzədir.

**CİHAT GÜNDOĞDU:** Şeytandan Allaha sığınıram, **"Münafiqlərin, Kitab əhlindən kafir olan qardaşlarına: "Əgər siz yurdunuzdan qovulsanız, biz də sizinlə birlikdə çıxıb gedəcək və sizə qarşı heç vaxt, heç kəsə tabe olmayacağıq. Əgər müsəlmanlar sizə qarşı vuruşsalar, mütləq sizə kömək edəcəyik!" - dediklərini görmədinmi? Allah onların yalançı olduğuna şahiddir"** (Həşr surəsi, 11)

**ADNAN OKTAR:** Məhz kafirlərə deyirlər, biz sizinlə ittifaq edirik onlara qarşı, müsəlmanlara qarşı deyirlər. Amma bir vəziyyət olduğunda kafirləri də buraxırlar, onlara da dəstək olmurlar. Öz dərdlərinin arxasına düşürlər. Münafiq çox şiddətli, çox azğın məxluqdur. Peyğəmbərimiz (s) zamanında da var idilər. Ayrı məscid qururlar, bax namaz qılır, məscidləri var məscidə gedir bunlar, həcc edirlər, oruc tutur, evlilik mövzusunda da çox seçicidirlər. Sırf cəhd etmə, səy göstərmə və çətin hadisələrə girmirlər yəni təhlükəli, məsələn ailəsinə zərər verəcək, diqqət etsən ailəsini və uşaqlarını bəhanə edirlər. Quran ayələrini az əvvəl oxumuşdum diqqət etdinizsə, orada həmişə evimiz açıqda, uşaqlarımız, ailəmiz aman deyirlər. Allah ayədə deyir ki, **"De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun Elçisindən və Onun yolunda cihaddan daha əzizdirsə, Allah Öz əmri ilə gəlincəyə qədər gözləyin. Allah günahkarları doğru yola yönəltməz".** (Tövbə surəsi, 24) Yəni intiqam alacağam deyir Allah sizdən. Amma təbii ki, bunlar da xüsusi yaradıldıqları üçün intiqam olduğunda da yenə şuursuzlar, yenə bilmirlər. Münafiq, möminlərin qiymətini artırmaq üçün xüsusi yaradılmış bir qrupdur. Münafiq olmazsa mömünin dəyəri bir parça düşər. Münafiq, möminin dəyərini artıran məxluq tayfasıdır. Onlarla müqayisədə Allah insanların gözündə onların qiymətli olduğunu göstərir. Məsələn, Mehdi (ə.s) camaatından da münafiqlər çıxacaq, sonra bunlar çox məşhur olacaq bu münafiqlər, bütün insanlıq biləcək. Şəkilləriylə, adlarıyla, şəxsləriylə dünyaya ibrət olacaq bütün münafiqlər. Yəni axirətdə də bütün insanlara ibrət olacaq. Peyğəmbərimiz (s)

zamanındakı münafiqlərin də, hz. Musa (ə.s) dövründəki münafiqlər də, bunlar məşhurdur. Məsələn, Samiri vardır, məşhur, tarixə keçmişdir. Peyğəmbərimiz (s) zamanındakı münafiqlərdən də tarixə keçmişdir. Mehdi (ə.s) dövründəki münafiqlər də tarixə keçəcəklər. Yəni hər kəs tərəfindən bilinəcək. Hər kəsin alçaltdığı, şərəfsiz, xaraktersiz gördüyü məxluqlar olaraq bilinəcəklər. O dövrdə Mehdi (ə.s) tələbələrinin nə qədər çalışqan olduğu izah ediləcək və münafiqlərin də onlara qarşı etdiyi fəaliyyətlər izah ediləcək. Onlara qarşı apardıqları mübarizə izah ediləcək. Bu hər ikisi də tarixə keçəcək. Necə Peyğəmbərimiz (s) zamanı tarixə keçdisə, hz. İbrahim (ə.s) dövrü tarixə keçdisə, bu da tarixə keçəcək, inşaAllah.

**CİHAT GÜNDOĞDU**: Möminlərin içindən özlərinə bənzər kəsləri seçib öz tərəflərinə çağırmaları da var. Hətta bunun üçün dediyiniz kimi məscid qururlar. Xüsusi məscid qururlar və özlərinə doğru işçi toplamağa çalışırlar, tərəfdar çağırırlar.

**ADNAN OKTAR**: Möminlərin fəlakət xəbərlərini kənardan gözləyirlər, bax diqqət etsəniz. Bu nədir? Müsəlmanlara qarşı ediləcək əməliyyat, hücum, təhqir, oyun. Bunu dəhşət içində kənardan izləyirlər, amma kənarda olduqları üçün də özlərini təhlükəsizlikdə görürlər. Müsəlmanların o sinə gərən mübarizəsinə uzaqdan tamaşaçıdırlar. Müsəlmanlar qalib olduğunda qibtə edirlər yəni həsəd edirlər, kaş ki, biz də olsaydıq deyə. Amma müsəlmanlara hücum olduğunda çox xoşlarına gəlir, təbii ki, Allah bizi qorudu deyirlər, çox yaxşı oldu deyirlər.

**APARICI**: Özlərini qorudular deyə.

**ADNAN OKTAR**: Yəni belə ürkmüş quduz it kimi bütün məsələni müsəlman camaatından ayrı olmaqda görürlər. Amma yenə də ətrafındakıları aldatmaq üçün ayrıldıqdan sonra namazlarına davam edirlər, yenə oruc tuturlar, bir arada bir-birlərini aldadırlar, yəni münafiq birliyinin xüsusiyyətidir. Biz onsuz da müsəlmanıq deyirlər, onlardan ayrıyıq, amma müsəlmanıq deyirlər, yəni küfrə qarışmırlar. Yəni küfr xarakterində olduğu halda, İslamdan nifrət etdikləri halda, müsəlmanlardan nifrət etdikləri halda yenə o münafiqliyin gərəyi olaraq namazlarına, oruclarına, ibadətlərinə davam edərək yenə camaat halında, qrup halında yaşayırlar, ayrı bir şey olaraq. Və bütün vəzifələri də, müsəlmanlara qarşı mübarizə olur. Baxın, bu çox qəribədir. Əsas məqsədi, yəni şüuraltından heç cür getmir. Məsələn, Peyğəmbərimizi (s) həmişə şəhid etməyə çalışmışdır münafiqlər. Çünki Peyğəmbərimiz (s) qaldığı müddətcə vicdan əzabı çəkirlər, narahatdırlar. O

məsələn döyüşə gedir, cihada gedir hər səfərində vicdan əzabı çəkirlər, narahat olurlar. Çünki zəlil olurlar. Onun üçün qəlbən fövqəladə dərəcədə nifrət edirlər. Peyğəmbərimizin (s) söhbəti olur, söhbət halında ikən bir başqası çıxarkən onu sipər edir. Quran ayəsi var. Ona gizlənərək məsələn bir insan gedir, onun arxasına o çıxarkən onun yanından o da gedir görünməyəcək şəkildə öz ağlına görə. Ayə onu ifadə edir.

**CİHAT GÜNDOĞDU**: Başqa bir ayədə Əhzab surəsi 13-cü ayə, şeytandan Allaha sığınıram. **"Ey Yəsrib əhli! Siz müqavimət göstərə bilməyəcəksiniz. Geri qayıdın!"** deyə xəbər göndərirlər möminlərə.

**ADNAN OKTAR:** Baxın, məhz burada müsəlmanlara hücum var. Təhqirlər, böhtanlar, feli hücum o dövrün məhz silahlı gücü nə isə, o müsəlmanlara hücum edirlər. İqtisadi embarqo tətbiqi, həm təcrid edirlər, həm ictimai təcrid var. Kimsə danışmır, görüşmür, kimsə yanlarına yanaşmaq istəmir. Təhlükəli görürlər. Bu hücum mühitində artıq dayanacaq vəziyyətiniz qalmadı deyir münafiqlər. Yəni artıq dağılın deyirlər müsəlmanlara. Yəni edəcək bir şey yoxdur deyirlər. Hər istiqamətdən əhatə olundunuz. Gücünüz yoxdur, bax hər kəs sizə qarşıdır, siz artıq bu mübarizəni, bu səyi buraxın deyirlər.

**CİHAT GÜNDOĞDU**: **"Möminlər müttəfiqləri gördükdə: "Bu, Allahın və Onun Elçisinin bizə olan vədidir. Allah və Onun Elçisi doğru söyləmişlər!" - dedilər. Bu onların yalnız imanını və itaətini artırdı."** (Əhzab surəsi, 22)

**ADNAN OKTAR:** Bax, bu hücumdan əksinə məmnun olurlar. Məsələn, möminlər tutulurlar, nəzarətə alınırlar, həbs edilirlər, əzilirlər, şəhid edilirlər, döyülüb söyülürlər, təhqirə məruz qalırlar. Bu, Allah onsuz da bizə bunu vəd etmişdi deyirlər, bu onsuz da meydana gəldi, Allaha həmd olsun deyirlər. Münafiqlər də böyük dəhşət içərisində ailəsinə, özünə, malına mülkünə zərər gəlmədiyi üçün həyəcanla hadisəni seyr edir və onların içində olmadığı üçün də müdhiş sevinir və özünün çox ağıllı olduğunu düşünür. Yəni müsəlmanların ağılsız olduqlarını və ağılsız olduqları üçün başlarına bunların gəldiyini düşünür. Özü də çox tədbirli, ağıllı biri olduğu üçün də heç bir şey olmadığını düşünür.

**CİHAT GÜNDOĞDU:** Bəli, inşaAllah. Şeytandan Allaha sığınıram. **Möminlərin içərisində Allaha etdikləri əhdə sadiq qalan kişilər vardır. Onlardan kimisi əhdini yerinə yetirib şəhid olmuş, kimisi də şəhid olmasını gözləyir. Onlar əhdlərini əsla dəyişdirməyiblər. Bu ona görədir ki, Allah doğru danışanları doğruluqlarına görə mükafatlandırsın, münafiqlərə də ya istəsə**

**əzab versin, ya da onların tövbələrini qəbul etsin. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir** (Əhzab surəsi, 23-24)

**ADNAN OKTAR**: Yenə də Allah bir yol açır ki, dönmək istəyən, münafiqlərin içinə qarışmış möminlər olur bəzən qafil olaraq. Onların qurtuluşu üçün Allah yenə bir yol açır.

**CİHAT GÜNDOĞDU**: Tövbənin, tövbə qapısını açır.

**ADNAN OKTAR**: Tövbə etmələrini söyləyir, Allah. Edə bilərlər deyir.

**CİHAT GÜNDOĞDU**: Münafiqlərin sədaqətsiz olduğu, möminlərin sadiq olduqları izah edilmiş olur burada. İnşaAllah.

**ADNAN OKTAR**: Bəli, çünki münafiqin xüsusiyyəti odur onsuz da. Lakin özünü çox ağıllı zənn edər münafiq. Yəni malı qoruma, ailəni qoruma, oğul-uşağı qoruma bu mövzularda çox diqqətlidir münafiq. Dini qorumaz, Allahı qorumaz, Peyğəmbəri qorumaz, dinin dəyərlərini qorumaz, amma ailəsinə, malına mülkünə filan çox diqqətlidir, münafiqin əsas xüsusiyyətidir bu. Halbuki Allah yolunda insan oğul-uşağını da cihadın içinə çəkər, özü də cihadın içərisinə girər və özü də Allah yolunda lazım olsa şəhid olar ki, bax orada ayədə, şəhid olmuş və şəhid olmaq üzrə o birilərini gözləyir. O ayəni şərh et, oxu onu. O mənadadır o ayə.

**CİHAT GÜNDOĞDU**: **“Onlardan kimisi əhdini yerinə yetirib şəhid olmuş, kimisi də şəhid olmasını gözləyir.”** (Əhzab surəsi, 23)

**ADNAN OKTAR**: Məhz bu şəhid olmuş, kimisi də şəhid olmağı gözləyir Allah yolunda deyil ki, malı mülkü, ailəsi. Məsələn, Əshabi-Kəhf, ailəsini tamamilə buraxırlar, mağaraya çəkilirlər, elə deyilmi? Həyat yoldaşını, dostlarını, yoldaşlarını buraxır, uşağını buraxır. Yəni dünyada bu böyük şəhvətdir, ailə şəhvəti. Onun üçün insan da bunu büt edir yəni ailəsi, evlənmək və çoxalmaq. Bütün sistem bunun üstünə qurulur. Dini də buna alət edir. Dini də bunun üçün istifadə edir, ailəsini mühafizə üçün istifadə edir dini, evlənmək üçün istifadə edir dini, çoxalmaq üçün istifadə edir dini.

**CİHAT GÜNDOĞDU**: Dediyiniz kimi döyüşdən geri qalmağı xoş görürlər, bəyənirlər. Şeytandan Allaha sığınıram. Tövbə surəsi 81-ci ayə: **“Döyüşə getməyib arxada qalanlar Allahın Elçisinin əleyhinə çıxaraq evdə qalmalarına sevindilər. Onlar Allah yolunda öz malları və canları ilə cihad etmək istəmədilər və: “Bu istidə döyüşə çıxmayın!” - dedilər. De: “Cəhənnəm odu bundan da hərarətlidir!” Kaş anlayaydılar”**

**ADNAN OKTAR:** Bax, çoxbilmişlik edirlər görürsənmi? Bu istidə döyüş olar? deyirlər, sanki sərin olsa döyüşəcəklər kimi. Ona da bir bəhanə tapacaqlar onsuz da, çünki canı qiymətlidir. Halbuki, müsəlmanın canı qiymətli deyil. Allah yolunda, hər cür çətinliyə girir, çünki Allahın eşqi onu əhatə etmişdir. Yalnız Allahın razılığını istəyir.

**CİHAT GÜNDOĞDU:** İnşaAllah və münafiqlərin əslində zərər verə biləcəkləri də Quranda xəbər verilir. Yəni bizimlə birlikdə, möminlərlə birlikdə döyüşə çıxmış olsaydılar deyərək inşaAllah. Şeytandan Allaha sığınıram. "Sizinlə birlikdə çıxsalardı, sizə "pislik və zərərdən" başqa bir şey verməz və aranıza mütləq fitnə soxmaq üzrə içinizdə səy göstərərlərdi. İçinizdə onlara "**xəbər daşıyanlar**" vardır. Allah zalımları tanıyır. "**And olsun, daha əvvəl onlar fitnə axtarmışlar. Və sənə qarşı bəzi işlər etmişdilər. Sonunda onlar istəmədikləri halda, haqq gəldi və Allahın əmri ortaya çıxıb-üstünlük təmin etdi.**" Eyni zamanda möminlər içində xəbər daşıyanlar olacağı da xəbər verilir. Yəni möminlərin içində davamlı yenə münafiqliyə meyli olan kəslər ola biləcəyi bildirilmiş olur.

**ADNAN OKTAR:** Yəni müsəlmanların içində olanda, müsəlmanlar məsələn sevinirlər çox olanda, halbuki bu yaxşı deyil, deyir Allah. Yəni münafiqin getməsi yaxşıdır. Yəni müsəlmanların içində olsalar deyir Allah, fitnə törədirlər, baş bəlası olurlar deyir. Qarşı tərəflə iş birliyi edirlər, xəbər aparırlar, müsəlmanları ürkütməyə çalışırlar, əhvalını pozmağa çalışırlar, yəni baş bəlasıdır münafiq. Münafiqin getməsi yaxşıdır. Gedər amma orada da boş durmaz münafiq, yenə fəaliyyətə davam edər müsəlmanlara qarşı.

**APARICI:** Yəni aranızda deyiləm deməsində belə xeyir var. Gəlməməsində.

**ADNAN OKTAR:** Təbii ki, gəlməməsi daha xeyirlidir.

**CİHAT GÜNDOĞDU:** İnşaAllah çətinlik anını da Allah xüsusilə yaradır ki, münafiq ortaya çıxsın deyə. Ali İmran surəsində bu izah edilmiş, inşaAllah. Şeytandan Allaha sığınıram. **Uhudda iki qoşunun üz-üzə gəldiyi gün sizə üz vermiş müsibət Allahın izni ilə oldu ki, möminləri aşkara çıxartsın və münafiqləri bəlli etsin. Onlara: "Gəlin, Allah yolunda döyüşün, yaxud heç olmasa müdafiədə durun!" - deyildi. Onlar: "Döyüş olacağını bilsəydik sizin ardınızca gedərdik" - dedilər. Onlar o gün imandan çox küfrə yaxın idilər. Onlar qəlblərində olmayanı ağızları ilə deyirlər. Halbuki Allah onların nəyi gizlətdiklərini çox yaxşı bilir.** (Ali İmran surəsi, 166-167) inşaAllah.

**ADNAN OKTAR:** Məsələn, əsrimizdə də deyirik ki; darvinizmə, materializmə qarşı mübarizə aparaq, dinsizliyə qarşı mübarizə aparaq. Çox təhlükəli adamlar vardır, indi ailə-uşaq vardır deyir. Mən oxuyuram, bilsələr məni məktəbdən çıxardarlar deyir. Mən edə bilmərəm deyir. Amma siz maşaAllah çox yaxşı fəaliyyət göstərirsiniz deyir. Təşəkkür edirəm sizə, təbrik edirəm deyir. Siz davam edin qaldığınız yerdən deyir. Yəni bununla da kifayətlənmir. Baxırsan yenə müsəlmanların dedi-qodusunu edir. Allah bizi qoruyur deyir, çox təhlükəli adamlar deyir. Nə işimiz var deyir. Niyə masonları biz qarşımıza alaq, niyə dinsizləri, niyə PKK-nı qarşımıza alaq, iddia edilən Ergenekon təşkilatını niyə qarşımıza alaq deyir adam. Mənim oğul-uşağım, ailəm var deyir, xeyli təhlükəli olar mənim üçün deyir. Elə olunca da məhz İslam əxlaqı hakim olmur. İslam əxlaqı hakim olmayınca da öz həyat keyfiyyətləri də düşür. Özləri də sürünürlər, özləri də acı içindədir. Qorxu və dəhşət içində yaşayırlar. Onsuz da ayədə deyir ya, **"xəbərləri çöldən izləyərlər"** deyir, amma qorxu ilə izləyir, çaxnaşma halında. Kafirlərdən də qorxurlar. Onlara da qatıla bilmirlər.

**CİHAT GÜNDOĞDU:** **"Onlar sadəcə qaçmaq istəyirdilər"** deyə, Allah onu söyləyir inşaAllah. Şeytandan Allaha sığınıram. "...**İçərilərindən bir qismi isə: "Evlərimiz nəzarətsiz qalıb" - deyərək Peyğəmbərdən izin istəyirdi. Halbuki evləri nəzarətsiz deyildi. Onlar sadəcə olaraq qaçmaq istəyirdilər.**" (Əhzab surəsi, 13)

**ADNAN OKTAR:** Bax yenə ev, evlilik məhz, ailəsi, oğul-uşaq yenə onun dərdindədirlər. Yəni belə mövhumatçı ailəyik biz filan deyir, aman oğul-uşaq belə yəni sürü psixologiyası, onu mühafizə etmənin dərdindədir. Halbuki insanın oğul-uşağı da Allah üçündür, həyat yoldaşı da Allah üçündür, özü də Allah üçündür. Yəni hamısı öləcək. Çünki uşağı dediyi şeylər, yəni yaşayacaq deyil ki, onlar da ətdən sümükdən meydana gəlmiş varlıqlardır. Sabah bir gün hamısı məzarda çürüyüb öləcəklər. Özü də çürüyüb öləcək, arvadı da çürüyüb öləcək, evi də bir müddət sonra dağılıb gedəcək.

**CİHAT GÜNDOĞDU:** Möminlər onsuz da birbaşa olaraq yaxşı işlər edirlər, döyüşürlər, mübarizə aparırlar. Münafiqlər isə həmişə "edəcəyəm" şəklində and içərlər, inşaAllah. Bəqərə surəsi 204-cü ayədə Allah, şeytandan Allaha sığınıram: **"O, qəlbində Allahı şahid gətirir, halbuki o, ən qatı düşməndir."** deyə bildirir, inşaAllah münafiqlər üçün.

**ADNAN OKTAR:** Bir də bax Allahı da şahid gətirir. Allahı çox anar onlar, münafiqlər.

**APARICI:** Hocam and içmək buna girərmi? Yəni məsələn, çoxlu and içən insanların da ...

**ADNAN OKTAR:** Məhz yalan olaraq and içir. Yəni davamlı and içər. Davamlı "Allah şahidimdir" deyər. Halbuki saxtakarlıq edir.

**CİHAT GÜNDOĞDU:** Yenə Tövbə surəsi 42-ci ayədə, şeytandan Allaha sığınıram: **"Əgər taqətimiz olsaydı, biz də sizinlə bərabər çıxardıq!" – deyə Allaha and içəcəklər"** Allah bildirir, inşaAllah.

**ADNAN OKTAR:** Məsələn, "məlumatımız yoxdur" deyir. Halbuki canı istəyir, universitetdə doktorantura oxuyur, dosent də olur. Yəni məsələn, özünə mənfəət təmin etməli olduğunda, universitet imtahanlarına sabaha qədər çalışır. Su kimi əzbərləyir kitabları. Məsələn, tibb kitablarını, onları, bunları, hamısını hüquq kitablarını, hamısını su kimi əzbərləyir, amma Quranı bir dəfə başdan sona oxu desən, yaxın durmaz. Çünki ondan bir mənfəəti yoxdur onun öz ağlına görə; amma Quranın yüz misli əsəri, kitabı oxumaq vəziyyətində qalır, hamısını əzbərləyir bir az maaş ala bilmək üçün, bir az pul qazana bilmək üçün. Yəni bax məsələn, axirətdə sonsuz həyatına vəsilə olacaq Quran, amma ona yanaşmır. Bu, xüsusi yaradılışıdır məhz onun.

**APARICI:** Nə qazanacağının fərqində deyil, nə itirdiyinin.

**ADNAN OKTAR:** Təbii ki, nə itirəcəyinin fərqində də deyil. Qurana görə yaşasa nə qazanacağının da fərqində deyil.

**CİHAT GÜNDOĞDU:** Və döyüş zamanı onsuz da döyüşün nə səbəbə ortaya çıxdığından, niyə cəhd edilməli mühit olduğundan şikayətçi olmağa başlayırlar. Belə buyurulmuş Quran-i Kərimdə. Nisa surəsi 77-ci ayə, şeytandan Allaha sığınıram: **"Onlara vuruşmaq vacib edildikdə, içlərindən bir dəstəsi Allahdan qorxduqları kimi və ya daha artıq qorxu ilə insanlardan qorxdular və: "Ey Rəbbimiz! Vuruşmağı nə üçün bizə vacib etdin? Nə olardı ki, bizə yaxın vaxtadək möhlət verəydin!" – dedilər."**

**ADNAN OKTAR:** İndi əsrimizdə də məsələn, mətbuatdan qorxur və yaxud hər hansı şəkildə hüquqi müdaxilə edilməsindən qorxur və yaxud özünə böhtan atılmasından qorxur. Bir söz deyilməsindən qorxur, bir söz olmasından. Yəni evliliyinin əngəllənməsi, peşəsinin əngəllənməsi, yeməyinə, içməyinə, kefinə maneə törədilməsi, yəni bunlar ən qorxduqları mövzular olur. Bu, dindən çox üstün olur onlar üçün. Quran buna işarə etmiş olur.

**CİHAT GÜNDOĞDU:** İnşaAllah. Səmimiyyətsizlikləri hər vəziyyətdə onsuz da izah edilmiş olur Quranda. Allah bildirmiş olur.

**ADNAN OKTAR:** Bəli, onun üçün məsələn, Mehdi mövzusu çox narahat edir münafiqləri. Yəni Mehdinin varlığından çox-çox narahat olurlar. Çünki Mehdi demək; İslam əxlaqının dünyaya hakimiyyəti deməkdir. Bütün maraqlarının sarsılacağını düşünür. Məsələn, holdinqin varsa holdinqinin sarsılacağını düşünür. Məsələn, öz şeyxi ilə, tələbələri ilə xoşbəxt həyat qurmuş. Bir sistem qurmuş. Pullar müntəzəm olaraq axıb gəlir. Etibarı var onların içərisində. Bir həyat şəkli qurmuş. Mehdini qəbul etmək nə deməkdir bilirsənmi? Hamısını yıxacaq sistem olaraq görür. Yəni nə şeyxinin etibarı qalar deyə düşünür, nə öz etibarının qalacağını düşünür. Həmçinin gəlir qapısının da bağlanacağını düşünür. Çünki Mehdi gəlincə məzhəbləri qaldırar. Elə deyilmi? Yəni onun bütün izah etdikləri başqa bir mövqeyə gəlmiş olacaq o zaman. Sistemi və birisinə itaət etmiş olacaq. Buna görə istəməz. Hz. İsanın (ə.s) zühurunu istəməz. Məsələn, onu kabus kimi görər hz. İsanın (ə.s) enişini. Hətta xristian münafiqlər də var. Onlar da deyirlər ki; hz. İsa (ə.s) həqiqətən gəlsə də deyirlər, biz öz sistemimizi dəyişdirməyək deyirlər. Yəni bu kilsə sistemi və təslis inancına qarşıysa deyirlər hz. İsa, biz onu qəbul etmərik deyirlər.

**CİHAT GÜNDOĞDU:** Vatikanın o şəkildə şərhi var.

**ADNAN OKTAR:** Təbii ki, Vatikanın şərhi var. Yəni həqiqətən gəlsə də qəbul etmərik İsanı deyirlər. Həqiqətən o da olsa qəbul etmərik deyirlər. Biz bu sistemi müdafiə edirik deyirlər. Məsələn, bu da bir münafiq şərhidir, münafiq. Bəli.

**CİHAT GÜNDOĞDU:** İnşaAllah. Münafiqlər özlərinin yaxşı yolda olduqlarına inanırlar. Bu şəkildə təsvir edirlər özlərini də. Şeytandan Allaha sığınıram: **"Müsəlmanlara zərər vurmaq, küfr etmək, möminlərin arasına təfriqə salmaq məqsədilə, əvvəlcədən Allaha və Onun Elçisinə qarşı müharibə edən kimsəni gözləmək üçün məscid tikənlər, əlbəttə: "Biz yaxşılıqdan başqa bir şey istəmədik" - deyə and içəcəklər. Allah şahiddir ki, onlar yalançıdırlar."** (Tövbə surəsi, 107), İnşaAllah.

**ADNAN OKTAR:** Ayrı məscid bax. Bir də məscid qururlar.

**CİHAT GÜNDOĞDU:** Məscid qurmuşlar.

**ADNAN OKTAR:** Namazlar tamam, ibadət tamam, paltar tamam. Sarıq, cübbə hamısı var bunlarda, o dövrün münafiqlərində.

**CİHAT GÜNDOĞDU**: Möminlərin başına gələcək olan fəaliyyəti müşahidə edə bilərlər.

**ADNAN OKTAR**: Bir daha oxu o ayəni, başdan oxu. Ayələri sən bütün olaraq oxuyursan. Elə deyil də hissə-hissə oxusan daha yaxşı vurğulayarsan.

**CİHAT GÜNDOĞDU**: İnşaAllah . **"Müsəlmanlara zərər vurmaq, küfr etmək, möminlərin arasına təfriqə salmaq məqsədilə, əvvəlcədən Allaha və Onun Elçisinə qarşı müharibə edən kimsəni gözləmək üçün məscid tikənlər..."**

**ADNAN OKTAR**: Hətta söz-söz izah etmək lazımdır. Yəni orada bir çox sözü keçmiş olursan.

**CİHAT GÜNDOĞDU**: İnşaAllah.

**ADNAN OKTAR**: Məsələn zərər vermək. Müsəlmanlara zərər vermək; bir. İki:

**CİHAT GÜNDOĞDU**: **"İnkarı gücləndirmək ..."**

**ADNAN OKTAR**: Məsələn, küfrü gücləndirməyə çalışır. Çünki küfr yayılacaq ki, münafiq rahatlıq tapsın. Müsəlmanlıq olduğu müddətcə, din əxlaqı yayıldığı müddətcə münafiqin kefi qaçar, rahatlığı qaçar.

**CİHAT GÜNDOĞDU**: **"Möminlərin arasına təfriqə salmaq..."**

**ADNAN OKTAR**: Məsələn, möminləri dəstəyə bölmək, qruplara bölmək və bir yerdə olmalarını istəməmək, yəni birləşmələrini istəməmək. Döyüşəcək ki, müsəlmanlar öz içində, münafiqin vəsaiti olsun. Ona iş çıxsın, imkan çıxsın. Onun üçün inkarın möhkəmlənməsi onlar üçün çox əhəmiyyətli olur. Küfrün güclənməsi çox əhəmiyyətli olur. Müsəlmanların bir-birinə düşməsi çox əhəmiyyətli olur. Onun üçün münafiq dinlə həmişə lağ edər. Quranla istehza edər haşa, yəni elə karikaturalar nəşr edərlər. Müsəlmanlar, ya da din əleyhinə, İslam əleyhinə, cənnət, cəhənnəm ilə əlaqədar lətifələr danışarlar. Yəni İslamı haşa öz ağlına görə alçaltmağa çalışır ki, öz sistemi güclənsin. Ona ehtiyac duyulsun.

**CİHAT GÜNDOĞDU**: **"...əvvəlcədən Allaha və Onun Elçisinə qarşı müharibə edən kimsəni gözləmək üçün..."**

**ADNAN OKTAR**: Yəni müsəlmanlara edilən məsələn, fəaliyyət edilirsə, müsəlmanlara bir hücum varsa hər hansı bir yerdən, məsələn, "iddia edilən Ergenekon təşkilatı" ola bilər əsrimizdə, küfrdən hər hansı bir şey ola bilər. Onu müşahidə edir. Görəsən nə vaxtdır hücum? Hansı gün bunlara qarşı hərəkət ediləcək? Hansı gün tutulacaqlar? Hansı gün əziləcəklər? Bunun hesabları arxasında.

**CİHAT GÜNDOĞDU**: **"... Gözləmək üçün məscid tikənlər və ..."**

**ADNAN OKTAR**: Bir də məscid, bax məscid tikirlər. Allahı xatırlayırlar, toplanıb Quran oxuyurlar.

**CİHAT GÜNDOĞDU**: **"... və: "Biz yaxşılıqdan başqa bir şey istəmədik" deyə and içərlər..."**

**ADNAN OKTAR**: Bir də çölə çıxıb yaxşılıq axtarırıq biz, Allah rizası üçün yaxşılıq olsun deyə biz bunu edirik deyir. Məsələn, Mehdiyə (ə.s) qarşı çıxacaq adam da bunu edəcək. O İstanbulda çıxacaq olan o münafiq; yaxşılıq edirəm mən deyir, gözəllik edirəm deyir. Bu, Mehdi deyil deyir. Mehdiyyət deyə də bir mövzu yoxdur deyir. Bu, bizim dinimizi dəyişdirmək üçün gəlmiş birisidir deyir. Mehdi tamamilə fərqli insandır deyir. Bu belə deyil, mehdiyyət deyir.

**APARICI**: Yalançı hesab edəcək.

**ADNAN OKTAR**: Təbii ki, təkzib edir. Bu, dinimizi dəyişdirən bir adamdır deyir. Tam fərqli biridir bu deyir.

**CİHAT GÜNDOĞDU**: **"Allah onların şübhəsiz yalançı olduqlarına şahidlik edir."**

**ADNAN OKTAR**: Allah onların, bəli. Şəxsən Allah yalançı olduqlarını açıqlayır.

**CİHAT GÜNDOĞDU**: İnşaAllah. Yenə başqa bir ayədə də yenə münafiqlər haqqında bu bildirilmişdir. Şeytandan Allaha sığınıram: "**Özlərinə: "Yer üzündə fitnə-fəsad törətməyin!" deyildikdə..."** Demək ki, fəsad törədirlər, fitnə-fəsad törədirlər, möminlərin arasını ayırırlar dediyiniz kimi inşaAllah.

**ADNAN OKTAR**: Fəsad necə çıxarır? Müsəlmanları məzhəb düşmənçiliyinə itələyir. Məsələn, bunları asın, bunları kəsin, bu camaata hücum. Yəni müsəlmanları bir-birinə düşürür. Ayrı-ayrı parçalara, parça ayırıcılar deyə keçir onsuz da Quranda. Fitnə çıxardır yəni.

**CİHAT GÜNDOĞDU**: İnşaAllah **"... deyildiyində, "biz yalnız islah edənlərik" deyərlər."**

**ADNAN OKTAR**: Təbii ki, biz doğruya çəkirik deyir yəni. Haqq olana çəkməyə çalışırıq deyir. Ona görə biz bunları edirik deyir, bu fitnəni.

**CİHAT GÜNDOĞDU**: **"Bilin ki; həqiqətən, əsl fitnə-fəsad törədən bunlardır, amma şüurunda deyildirlər."**

**ADNAN OKTAR:** Bax fəsad çıxardığı üçün, müsəlmanlara zərər verdiyindən xəbəri belə yoxdur. Məsələn, çıxır oyunbazlıq, təlxəklik edir, dinə ağır şəkildə hücum edir, o deyir mən simpatiya toplayıram belə deyir.

**APARICI:** Hocam, İsrailin etdiyi də əslində buna nümunədir. Hansı ki, İsrail, İraqdakı o fəaliyyətlərin hamısına bunu dedi; biz burada sülh yaratmağa gəldik. Burada əslində sülhü təmin etməyə gəldik. Demokratiyanı təmin etməyə gəldik.

**ADNAN OKTAR:** Amerikanın məsələn Əfqanıstandakı, İraqdakı fəaliyyətləri əsasdır. Orada sel kimi qan axıtdı. Əgər xalqı maarifləndirmək istəyirsənsə kitab payla. Elə deyilmi? Əhli-sünnə etiqadını, müsəlmanlığı izah et. Sevgini, sülhü, qardaşlığı izah et. Bununla əlaqədar alimlər göndər, müəllimlər göndər; izah etsinlər xalqa. Elə deyilmi? Onları mədəni cəhətdən istiqamətləndir, faydalı olmağa çalış. Asıb kəsərək olarmı? İşğal edərək olarmı? Onların təbii ki, qaynaqlarına əl qoyaraq olarmı? Elə deyilmi? Məsələn hələ də elədir. Zorla və şiddətlə müsəlman ölkə düzələrmi? Müsəlmanın anlayacağı Qurandır, Quran əxlaqıdır. İslam Birliyini təşviq etməlidir, əgər düzəlmələrini istəyirsə, yaxşı olmalarını istəyirsə. Deyəcək ki; Ey İraq xalqı, niyə İslam Birliyini istəmirsiniz? Müsəlmanlarla birləşin deməlidir, əgər hüzur və xoşbəxtlik istəyirsə.

**CİHAT GÜNDOĞDU:** Bu böhtan mövzusunda da normalda möminlərə gələn bir xəbər olduğunda, mömin birliyinə, o xəbəri ətraflıca qiymətləndirib böhtan ola biləcəyinə qənaət gətirmələri Quranda təsvir edilmiş.

**ADNAN OKTAR:** Oxu ayəni.

**CİHAT GÜNDOĞDU:** Yayılmaması lazım olduğu təsvir edilir, inşaAllah. Şeytandan Allaha sığınıram: **"Şübhəsiz ki, Aişə barəsində yalan xəbər gətirənlər özünüzdən olan bir dəstədir."** (Nur surəsi, 11)

**ADNAN OKTAR:** İndi Allah yolunda mübarizə aparanlara nə edilə bilər? Ən yaxşı böhtan, nədir xalq arasında? İnsanların ən əhəmiyyət verdiyi şey, cinsi əlaqədir. Əxlaqdır. Ən vacibi budur. O zaman oradan hücum edək deyirlər. Məsələn, hz. Yusif (ə.s) da nədir? Cinsi əlaqə ilə əlaqədar məsələn. Təcavüz iddiasıyla hz. Yusif (ə.s) həbsə qoyulmuşdur. Yəni təcavüz günahı ilə. Cinsi əlaqə iftirası ilə, təcavüz günahı ilə yeddi il həbsdə tutulmuşdur. Hz. Məryəmə də eyni şəkildə zina böhtanı atılmışdır. Elə deyilmi? Bu da müsəlmanların qarşılaşacağı şeydir. Münafiqlərin də silahıdır bu. Yəni müsəlmanları hədələmədə, haqq yolunda mübarizə edən insanları hədələmədə üsuldur. Münafiqlər də belə iddialara inanırlar. Müsəlmanların

içindəki münafiqlər də "Allah, Allah, doğrudur" deyirlər. Halbuki Allah deyir ki; **"Dörd dənə şahid gətirmədilər?"** (Nur surəsi, 13) deyir. Şahidə ehtiyac yoxdur münafiq üçün. Münafiq birbaşa inanır və yayar. Allah deyir məsələn; **"Bir fasiqdən sizə xəbər gəldiyində onu yaxşıca araşdırın"** (Hucurat surəsi, 6) deyir. Yəni gözünüzlə görün, qulağınızla duyun. Bunun xaricində inanmayın deyir. Amma münafiq üçün o elə deyil. O bir kafirdən, İslam düşmənindən xəbər gəldiyində onu köklü və doğru xəbər olaraq qəbul edir və ona inanır.

**CİHAT GÜNDOĞDU: "... siz onu özünüz üçün şər hesab etməyin, əksinə o sizin üçün xeyirdir."**

**ADNAN OKTAR:** Təbii ki, bu müsəlmanların savab qazanmasına, mövqelərinin yüksəlməsinə səbəb olur.

# MEHDİ DÖVRÜNDƏKİ MÜNAFİQLƏR GƏLİB-KEÇMİŞ ƏN ŞİDDƏTLİ MÜNAFİQLƏRDƏNDİR

(HÖRMƏTLİ ADNAN OKTARIN 4 YANVAR 2010-Cİ İL TARİXLİ KRAL KARADENİZ, ADIYAMAN ASU VƏ EKİN TV MÜSAHİBƏSİNDƏN)

**ADNAN OKTAR**: Bəli, Axırzamanda, Mehdi (ə.s) dövründə münafiqlər olacaq. Mehdinin (ə.s) camaatına, yoldaşlarına qarşı mübarizə aparan, o camaat içərsindən çıxan, müsəlmanlar içərisindən çıxan münafiqlər olacaqlar. Özlərini müsəlman kimi təqdim edəcəkdir. Hətta Mədinə sarsılar deyir Peyğəmbərimiz (s). Münafiqlər toplu olaraq bəzən 2 və 3 dəfə ayrılacaqlar deyir Mehdi (ə.s) camaatından. Və işləri, gücləri Mehdiyə (ə.s) və camaatına zərər vermək üzrə fəaliyyət olacaq. Məsələn gecə-gündüz, Allahın onlara verdiyi o ilhamla, davamlı o qəzəbi yaşayacaqlar. Axırzamanın münafiqləri, gəlib-keçmiş münafiqlərin ən şiddətlilərindəndir, yəni Mehdi (ə.s) camaatının münafiqləri. Rəsulullah (s) deyir, Mehdi (ə.s) camaatına bu münafiqlərin müsəllət olacağını, hətta buğdaya müsəllət olan qurd kimi olacaqlarını deyir. Buğdanı təmizləyəcək deyir Mehdi (ə.s), təmizlənəcək, yenə müsəllət olacaq qurd deyir, yenə təmizləyəcək, yenə müsəllət olacaq, bu belə uzun müddət davam edəcək deyir. Ən axırda 313 nəfər saf, təmiz, həqiqi mömin qalacaq deyir və beləcə də münafiqlərin təsiri qalmayacaq deyir.

Həqiqətən münafiq çox böyük fitnə və bəladır. Müsəlman şəfqət göstərir, mərhəmət göstərir, sevgi göstərir, dost qəbul edir, saxlamağa çalışır, ona kömək edir, maddi dəstək verir, mənəvi fayda təmin etməyə çalışır. Lakin münafiqə baxarsan ki, bir gün bir alçaqlıq etmişdir, küfrlə, dinsizlərlə ittifaq etmiş və müsəlmanların harada nə etdikləri ilə əlaqədar onlara məlumat verərək, onların ani basqın etməsini, ani hücum etməsini təmin edəcək əməkdaşlıq edəcəyini Quran ifadə edir. Yəni sizi **"fəlakətlərin əhatə etməsini gözləyərlər"** deyir, Allah bu şəkildə ifadə edir. Şeytandan Allaha sığınıram**, "Pis fəlakət onları əhatə etsin."** (Tövbə surəsi, 98) deyir Allah. Bu nə deməkdir? İndi Allah, belə bir duanı, Allah belə söylədisə, **"pis fəlakət onları əhatə etsin"** dedisə, nə deməkdir? Mən onları məhv edəcəyəm demək istəyir Allah. Yəni dünyada məhv edəcəyəm demək. Necə olur? Mənəvi əzabla, və bütün münafiqlərdə bir əzab vardır ruhlarında. Ruhları cəhənnəmə

dönər. Yəni qaçınılmaz olaraq gecə-gündüz acı duyarlar, narahat olarlar. Amma münafiqin rahatlamaq üçün də tək istədiyi şey, müsəlman camaatının dağılması, müsəlmanların yox olmasıdır. Onlar dünyada olduğu müddətcə, dünyada tək bir müsəlman qaldığı müddətcə, münafiq əsla rahat ola bilməz, əzab çəkib yanar. Onun üçün, bu əzabdan xilas olmaq üçün, məsələn Peyğəmbərimiz (s) zamanında, ayrı bir məscid qururlar, ayrı bir bina tikirlər. Bir də utanmadan Peyğəmbəri (s) ora çağırırlar, gəl burada namaz qıl deyirlər. Peyğəmbərin (s) onsuz da məscidi var, orada müsəlmanlar namaz qılır, yəni niyə ora getsin ki, sizin yanınıza, elə deyilmi? Allah deyir, **"heç bir şəkildə onların yanına getmə"** deyir. **"Əvvəl olan məsciddə namazını qıl"** (Tövbə surəsi, 108) deyir. **"Onların"** deyir, **"qəlbləri parça-parça, yəni ölmədikcə onlar deyir, əsla bu əxlaqsızlıqlarından vaz keçməzlər"** deyir. Sonsuza qədər imtina etmirlər, İnşaAllah. Mehdi (ə.s) dövründə də münafiqlər inkarçılar ilə əməkdaşlıq edirlər. Müsəlmanları, öz başlarına görə şikayət edəcəklər, onların haqqında, əleyhinə şahidlik edəcəklər, onları küncə sıxışdırmağa çalışacaqlar, onların haqqında dedi-qodular yayacaqlar. Fitnə çıxartmaq üçün var gücləri ilə səy göstəcəklər. Amma bu, Mehdi (ə.s) camaatının güclənməsinə, bir-birlərinə daha çox bağlanmalarına, əzm və səylərinin daha çox artmasına səbəb olacaq. Bunu hədislərdən bu şəkildə anlayırıq.

Çox insan "münafiq" sözünün mənasını tam olaraq bilməz. Bəziləri isə sözü xalq dilindəki şəkli ilə, yəni "ikiüzlü" ya da "yalançı" mənaları ilə bilir, lakin Qurandakı qarşılığından xəbərdar deyil. Bir az dini biliyi olanlar isə münafiqlərin, Peyğəmbərimiz (s) dövründə yaşamış inkarçı qrup olduğunu düşünürlər. Halbuki münafiqlər, Allahın Quranda yüzlərlə ayə ilə diqqət çəkdiyi və onlara qarşı son dərəcə təmkinli olunmasını xatırlatdığı qrupdur.

Və yenə Qurana baxıldığında anlaşılan, münafiqlərin az rast gəlinən qrup deyil, əksinə hər mömin birliyinin içində olan "təşkilatlı" qrup olduğudur. Allah, möminlər üçün təhlükə meydana gətirəcək bu birliyə tez-tez diqqət çəkmişdir; Quranda ən çox tərifi olan insan növlərindən biri münafiqlərdir.

Həyatının hamısını Allaha həsr etmiş, Quran əxlaqını təbliğ edən səmimi insanların arasında, "onlardanmış" kimi görünərək (bəzən illərlə) yaşayan bu insanlar, əslində "onlardan" deyildirlər və yalnızca özlərinə mənfəət təmin etməyə çalışırlar. Tarix boyunca bu hadisə, bütün mömin birliklərində görülmüşdür.

Bu kitabda münafiqlərin xüsusiyyətləri, Quranda təsvir edilən təfərrüatları ilə araşdırılmışdır.